**Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)**

# İŞGƏNCƏLƏR ƏLEYHİNƏ MİLLİ PREVENTİV MEXANİZMİN FƏALİYYƏTİNƏ DAİR

# H E S A B A T

**(2018)**

**Bakı – 2019**

Təqdim olunan hesabatda BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunda nəzərdə tutulmuş Milli Preventiv Mexanizmin funksiyalarını yerinə yetirən təsisat qismində Müvəkkilin 2018-ci il üzrə həyata keçirdiyi fəaliyyət, irəli sürülən təklif və tövsiyələr yer almışdır.

Bu hesabat hazırlanması və Müvəkkilin Milli Preventiv Mexanizm funksiyalarının həyata keçirilməsi prosesində İşgəncələrin Qarşısının Alınması üzrə Komitəsi, İşgəncələrin Qarşısının Alınması üzrə Alt Komitə (SPT) və İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin(CPT), habelə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə İşçi Qrupunun Azərbaycan Respublikasının dövrü məruzələri üzrə verilmiş təklif və tövsiyələri nəzərə alınmışdır.

Hesabata başçəkmələrin nəticəsi olaraq təhlillər əsasında hazırlanmış məlumatlar, statistik göstəricilər, habelə "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu əlavə edilmişdir.

**İSBN: 978-9952-51-4445**

**MÜNDƏRİCAT**

**Ön söz**....................................................................................................4
Mətndə istifadə olunmuş anlayışlar və ixtisarlar..........................................5

**BÖLMƏ 1. FAKÜLTATİV PROTOKOLA ƏSASLANAN MİLLİ PREVENTİV MEXANİZM MANDATI**..................................................7
1.1. Fakültativ Protokolun tələbləri...............................................................7
1.2. Milli qanunvericilik.....................................................................................8
1.3. Milli Preventiv Mexanizmin fəaliyyət istiqamətləri..............................10

**BÖLMƏ 2. MİLLİ PREVENTİV MEXANİZMİN FƏALİYYƏTİ VƏ PREVENTİV BAŞÇƏKMƏLƏR**..............................................................12
2.1 Preventiv başçəkmələrin təşkili..........................................................12
2.1.1. Plan üzrə başçəkmələr....................................................................12
2.1.2. Plandankənar başçəkmələr..............................................................13
2.2. Başçəkmələrin həyata keçirilməsi........................................................13
2.2.1. Daxili İşlər Nazirliyinin müəssisələri.................................................16
2.2.2. Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələri................34
2.2.3. Dövlət Təhlükəsizliyi Xidmətinin müəssisələri.................................46
2.2.4. Dövlət Miqrasiya Xidmətinin müəssisələri........................................47
2.2.5. Səhiyyə Nazirliyinin müəssisələri.....................................................48
2.2.6. Təhsil Nazirliyinin müəssisələri.......................................................53
2.2.7. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələri..........59
2.2.8. Yerli icra hakimiyyəti orqanlarının müəssisələri...............................62

**BÖLMƏ 3. HÜQUQİ TƏHLİL**..............................................................67

**BÖLMƏ 4. HÜQUQİ MAARİFLƏNDİRMƏ**........................................77

**BÖLMƏ 5. İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ**..........................................................81

**BÖLMƏ 6. TƏKLİF VƏ TÖVSİYƏLƏR**.................................................89

Əlavə 1.....................................................................................................94

Əlavə 2.....................................................................................................97

## ÖN SÖZ

Məlum olduğu kimi, Azərbaycan Respublikası 2 dekabr 2008-ci ildə BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunu ratifikasiya etmiş və ölkə Prezidentinin 13 yanvar 2009-cu il tarixli Sərəncamı əsasında Protokolda nəzərdə tutulmuş Milli Preventiv Mexanizmin funksiyalarını həyata keçirən təsisat qismində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) müəyyən edilmişdir.

Ölkədə hüquqi dövlət quruculuğu prosesi çərçivəsində aparılan hüquqi islahatların məntiqi davamı olan bu yeni funksiyaların icrasından irəli gələn vəzifələrin yerinə yetirilməsi Müvəkkilin fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilmişdir.

Müvəkkilin müvafiq dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, hüquq müdafiəçiləri, vəkillər, kütləvi-informasiya vasitələri, beynəlxalq təşkilatlar, xarici ölkələrin Milli İnsan Hüquqları Təsisatları, yerli və beynəxalq ekspertlərlə olan əlaqələri onun MPM qismində fəaliyyətinin də inkişafına, uğurlu və konstruktiv əməkdaşlıq əlaqələrinin qurulmasına, faydalı müzakirələr, treninqlər və təcrübə mübadilələrinin təşkilinə imkan vermişdir.

MPM qismində işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə fəaliyyətimiz çərçivəsində istər praktik yanaşma, istərsə də qanunvericiliyə təklif və tövsiyələrin verilməsi, habelə təşkilati baxımdan mövcud fəaliyyətin təkmilləşdirilməsi məqsədilə təşəbbüs və töhfələrimizi əsirgəmirik.

Təqdim olunan hesabat Azərbaycan MPM-nin 2018-ci il üzrə fəaliyyətini əhatə etməklə, görülmüş işlər, preventiv başçəkmələr və onların nəticələri, verilmiş təklif və tövsiyələr və onların icrası vəziyyəti, eləcə də MPM-in həyata keçirdiyi hüquqi maarifləndirmə və digər fəaliyyət istiqamətlərinə dair tədbirləri özündə əks etdirir.

Ümidvaram ki, hesabatda qaldırdığımız məsələlələr, verdiyimiz təklif və tövsiyələr milli və beynəlxalq qanunvericiliyin tələblərinə uyğun şəkildə ölkə təcrübəsinin vəmüvafiq istiqamətlər üzrə fəaliyyətin daha da təkmilləşdirilməsinə öz töhfəsini verəcəkdir.

Hesabatla əlaqədar göndəriləcək təkliflərə görə əvvəlcədən təşəkkür edirik.

**Prof. Elmira SÜLEYMANOVA**
*Azərbaycan Respublikasının*
*İnsan Hüquqları üzrə Müvəkkili*
*(Ombudsman)*

# MƏTNDƏ İSTİFADƏ OLUNMUŞ ANLAYIŞLAR VƏ İXTİSARLAR

**Azadlıqdan məhrum etmə** – şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət yaxud özəl saxlanma yerinə yerləşdirilməsinin istənilən forması
**Azadlıqdan məhrum edilmiş şəxs** – barəsində azadlıqdan məhrum etmə tətbiq edilmiş şəxs
**Azadlıqdan məhrum etmə yeri** – şəxsin öz iradəsi ilə tərk etmə hüququ olmadan saxlanıldığı və ya saxlanıla bildiyi istənilən yer
**Aparat** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatı
**ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı
**BMT** – Birləşmiş Millətlər Təşkilatı
**CÇM** – Cəzaçəkmə müəssisəsi
**CİM** – Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi
**CM** – Azərbaycan Respublikasının Cinayət Məcəlləsi
**DİQ** –Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları
**DİN** – Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi
**DMX** – Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti
**DTX** – Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti
**ƏƏSMN** – Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
**ƏN** – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
**FP** – "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu
**HP** – Azərbaycan Respublikasının Hərbi Prokurorluğu
**İQK**– BMT-nin İşgəncələrin Qarşısının Alınması Komitəsi (CAT)
**İQA** – BMT-nin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə Altkomitəsi (SPT)
**İQAK** – Avropa Şurasının İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Komitəsi (CPT)
**İHOSM** – İnzibati həbs olunanların saxlanılma məntəqəsi
**İİV** – İnsanın İmmunçatışmazlığı Virusu
**İşgəncə** – İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza
**İMM** – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin İxtisaslaşdırılmış müalicə müəssisəsi
**İT** – İstintaq təcridxanası
**KİV** – Kütləvi informasiya vasitələri

**Konstitusiya Qanunu** – “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu
**Konvensiya** – BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası”
**QİÇS** – Qazanılmış İmmunçatışmazlığı Sindromu
**MN** – Azərbaycan Respublikasının Müdafiə Nazirliyi
**MPQ** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatında İşgəncələrin qarşısının alınması üzrə Milli preventiv qrup
**MPM** – BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya”sının Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizm
**MSY** – Müvəqqəti saxlama yeri
**Müvəkkil** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)
**PB** –Polis bölməsi
**PX** – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti
**RPİ** – Rayon polis idarəsi
**RPŞ** – Rayon polis şöbəsi
**SN** – Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi
**SMR** – Məhkumlarla rəftara dair minimal standart qaydalar
**Şöbə** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının İşgəncələrin qarşısının alınması şöbəsi
**ŞPİ** – Şəhər polis idarəsi
**ŞPŞ** – Şəhər polis şöbəsi
**ŞRPŞ** – Şəhər rayon polis şöbəsi
**TN** – Azərbaycan Respublikasının Təhsil Nazirliyi

## BÖLMƏ 1.

## FAKÜLTATİV PROTOKOLA UYĞUN MİLLİ PREVENTİV MEXANİZMİN MANDATI

### 1.1. FP-nin tələbləri

Müvəkkil 2018-ci ildə də BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə" Konvensiyasının Fakültativ Protokolunda (FP) nəzərdə tutulmuş milli preventiv mexanizmin (MPM) funksiyalarını yerinə yetirən təsisat qismində müvafiq sahədə fəaliyyətini davam etdirmişdir.

Məlumdur ki, FP[1]-nin əsas məqsədi işgəncələrin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən müntəzəm başçəkmələrin həyata keçirilməsi sisteminin yaradılmasından ibarətdir.[2] FP konstruktiv dialoqun vacibliyini və tənzimlənən münasibətlərə reaksiya verilməsi baxımından, preventiv – qarşısını alma tədbirlərinin görülməsini vurğulayır. FP-nin innovativliyi, həm də onun hər hansı yeni hüquq və ya standartı, yaxud pozulmuş hüquqların bərpasını deyil, mövcud standartın, yəni işgəncəyə məruz qalmamaq hüququnun pozulmasının qarşısının alınmasını əks etdirməsində təzahür edir.

İşgəncələrin qarşısının alınmasının ən əlverişli üsulu kimi, bütün azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin monitorinqi məqsədi ilə müstəqil və müntəzəm başçəkmələr sisteminin yaradılması sözü gedən sənədin ehtiva etdiyi əsas ideyadır. FP-yə əsasən, preventiv mandata malik olan beynəlxalq və milli qurumlar yaradılır (buraya İQA və Milli Preventiv Mexanizmlər daxildir). Beynəlxalq səviyyədə yaradılmış İQA BMT-nin yeni nəsil saziş qurumudur.

FP-nin 17-ci maddəsinin tələblərinə görə hər bir iştirakçı dövlət tərəfindən protokolun qüvvəyə minməsindən və ya onun ratifikasiyasından, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq dəstəklənməli, təyin və ya təsis edilməli olan MPM azadlıqdan məhrumetmə yerlərində saxlanılan

---

[1] "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu BMT Baş Məclisinin 18 dekabr 2002-ci il tarixli 57/199 saylı qətnaməsi ilə qəbul edilmiş, 22 iyun 2006-cı il tarixdə, 20 dövlət tərəfindən ratifikasiya edildikdən sonra qüvvəyə minmişdir;

[2] FP-nin 4-cü maddəsinin 2-ci bəndinin tələblərinə görə, FP-nin məqsədləri üçün azadlıqdan məhrum etmə dedikdə şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət, yaxud özəl saxlanma yerinə yerləşdirilməsinin istənilən forması başa düşülür.

şəxslərlə rəftar və saxlanma şəraitinin milli səviyyədə müntəzəm monitorinqini aparan qurumdur. MPM-lərin mandatı ən azı aşağıdakıları əhatə edir:

- azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələlərə müntəzəm olaraq baxılması;

- BMT-nin müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədi ilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi və işgəncələrin qarşısının alınması;

- qüvvədə olan qanunvericilik aktlarına və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.[3]

Göstərilən mandatın uğurla həyata keçirilməsi üçün, MPM-lərin yaradılması zamanı onların funksional müstəqilliyinin, habelə işçi heyətinin müstəqilliyinin təmin olunması əsas şərtdir.[4]

FP həmçinin MPM-lərin aşağıdakı əsas hüquqlarını təsbit edir:

- azadlıqdan məhrum edilmiş şəxslərin sayı, onlarla rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında, həmçinin azadlıqdan məhrum etmə yerlərinin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək;

- bütün azadlıqdan məhrum etmə yerlərinə buraxılmaq;

- azadlıqdan məhrum edilmiş şəxslərlə və ya müvafiq məlumat verə biləcək istənilən şəxslə fərdi söhbətlər aparmaq;

- baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək;

- İQA ilə əlaqələr qurmaq, ona məlumat ötürmək və onunla görüşmək.[5]

## 1.2. Milli qanunvericilik

FP Azərbaycan Respublikası tərəfindən 15 sentyabr 2005-ci il tarixdə imzalanmış, 02 dekabr 2008-ci il tarixli qanunla ratifikasiya edilmişdir.[6] Həmin qanunun dərc edilməsindən etibarən – 15 yanvar 2009-cu il tarixdən FP Azərbaycan Respublikasına münasibətdə qüvvəyə minmişdir. Həmin tarixdə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı[7] ilə FP-də nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını yerinə yetirən təsisat qismində Müvəkkil müəyyən edilmişdir.

---

[3] FP, maddə 19;

[4] FP, maddə 18(1);

[5] FP, maddə 20;

[6] "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (02.12.2008, № 724-IIIQD);

[7] "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (13.01.2009, № 112);

Yeni və kifayət qədər məsuliyyətli vəzifələr fonunda fəaliyyətin daha səmərəli və keyfiyyətli təşkili zərurəti Müvəkkilin mandatının, eləcə də işçi heyətinin səlahiyyət dairəsinin genişləndirilməsini şərtləndirmişdir. Konstitusiya Qanununa edilən əlavə və dəyişikliklərlə [8] Müvəkkilin səlahiyyət dairəsi, eləcə də müstəqilliyi FP-də MPM-lər üçün nəzərdə tutulmuş tələblərə cavab verən səviyyəyə çatdırılmış, həmçinin Müvəkkilin MPM qismində fəaliyyətinin həyata keçirilməsi məqsədi ilə Aparatda şəffaf prosedurlar əsasında Milli Preventiv Qrupun (MPQ-nin) yaradılması, onun üzvlərinə dair tələblər, habelə onların hüquqları və toxunulmazlığının təminatları kimi məsələlər təsbit edilmişdir.

Konstitusiya Qanununa əsasən, milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi zamanı Müvəkkil və MPQ üzvləri istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən polis bölmələrinə, müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə, qarnizon hauptvaxtlarına, psixiatriya müəssisələrinə və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə daxil olmaq; saxlanılan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən şəxslə təkbətək və ya zəruri hesab etdiyi halda mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək; saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq; akt tərtib etmək, həyata keçirdiyi tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq hüququ vardır.[9] Müvəkkilin, səlahiyyətli dövlət orqanlarına müvafiq tövsiyələr vermək və həmin tövsiyələrə müəyyən edilmiş müddətdə cavablar almaq hüququ da adı çəkilən qanunda müəyyən edilmişdir.[10]

Ötən müddət ərzində Müvəkkilin MPM qismində fəaliyyətinin effektiv təşkili məqsədilə qanunvericilik aktları təkmilləşdirilmiş, Müvəkkilin və MPQ üzvlərinin yuxarıda göstərilən səlahiyyətləri barədə müddəalar müvafiq qaydada normativ hüquqi aktlarda təsbit edilmişdir.[11]

---

[8] “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Qanunu (24.06.2011, № 163-IVKQD).

[9] Konstitusiya Qanunu, maddə 12.2.1; 18-1.2.1;

[10] Konstitusiya Qanunu, maddə 12.2.1;

[11] Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (20.04.2012, № 324-IVQD); “Psixiatriya yardımı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (20.04.2012, № 325-IVQD); Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 saylı Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi”nin “Hauptvaxt haqqında” 4 saylı əlavəsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (20.04. 2012, № 326-IVQD); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 65 nömrəli qərarı ilə təsdiq edilmiş “Açıq və qapalı tipli

MPQ-nin tərkibi Konstitusiya Qanununun 18-1.1-ci maddəsi əsasında 3 il müddətinə ilk dəfə 26.12.2013-cü ildə, müddətin başa çatması ilə 26.12.2016-cı il tarixdə şəffaf tərzdə ikinci dəfə formalaşdırılmışdır.

Müvəkkilin FP-yə uyğun olaraq MPM qismində funksiyalarının səmərəli həyata keçirilməsinin təmin edilməsi məqsədilə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə İşçi Qrupunun Azərbaycan Respublikasının dövrü məruzələri üzrə verilmiş, habelə İQK (CAT), İQA (SPT) İQAK-ın (CPT) təklif və tövsiyələri də nəzərə alınmışdır.[12]

## 1.3. MPM-in fəaliyyət istiqamətləri

Azərbaycan MPM-nin fəaliyyəti aşağıdakı dörd əsas istiqamət üzrə həyata keçirilən tədbirlərdən ibarətdir:

- Preventiv başçəkmələr – saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə mütəmadi olaraq, plan üzrə və ya plandankənar, əvvəlcədən xəbərdarlıq edilmədən baş çəkilməsi;
- Hüquqi təhlil – həyata keçirilən fəaliyyətin, eləcə də bu fəaliyyətlə əlaqədar toplanmış məlumatların, həmçinin aidiyyəti üzrə daxil olmuş təklif və tövsiyələrin, mövcud, yaxud layihədə olan qanunvericilik aktlarının nəzəri-təcrübi təhlili, əldə olunmuş nəticələrin ümumiləşdirilməsi və müvafiq təkliflərin hazırlanması;
- Hüquqi maarifləndirmə – işgəncələrin qarşısının alınması işinin təşviqi məqsədi ilə Aparatın əməkdaşları, MPQ üzvləri, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərin işçiləri, eləcə də belə yerlərdə saxlanılan şəxslər, habelə aidiyyəti təhsil müəssisələri və akademiyaların tələbə-müdavimləri üçün hüquqi maarifləndirmə tədbirlərinin təşkil olunması, müvafiq əyani vəsaitlərin hazırlanıb paylanılması;
- İctimaiyyətlə əlaqələr və beynəlxalq əməkdaşlıq – yerli, regional və beynəlxalq təşkilatlarla, həmçinin xarici ölkə MPM-ləri ilə informasiya

---

xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (04.07.2012, № 148); Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyasının 2011-ci il 29 dekabr tarixli 7-N nömrəli Qərarı ilə təsdiq edilmiş “Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları”nda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı (13.07.2012, № 3-N); “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu (22.05.2012, № 352-IVQ); “Polis orqanlarının müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin mühafizəsi və müşayiəti qaydalarına dair Təlimat”ın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Kollegiyasının Qərarı (14.01.2013, № Q1-001-13);

[12]BMT-nin İnsan Hüquqları Şurası tərəfindən 5 July 2013-cü il tarixdə qəbul edilmiş Universal Dövri İcmal üzrə İşçi qrupun məruzəsi, (bənd 103.31).

mübadiləsinin aparılmasının, həyata keçirilən tədbirlərdə qarşılıqlı iştirakın, həmçinin birgə tədbirlərin təşkilinin təmin olunması, habelə MPM-in fəaliyyətinin KİV-də işıqlandırılmasının təşkili.

Göstərilənlərlə yanaşı, qeyd olunmalıdır ki, Azərbaycan MPM-nin fəaliyyəti Müvəkkilin şikayətlərə baxmaq mandatı ilə sıx əlaqələndirilmişdir. Belə ki, Aparata daxil olmuş müraciətlərin araşdırılması zamanı toplanmış məlumatlar, o cümlədən şikayətlərin qurumlar və müəssisələr üzrə xüsusi çəkisi preventiv başçəkmələrin planlaşdırılması və həyata keçirilməsi zamanı yönəldici vasitə qismində istifadə olunmuşdur.

Sadalanan istiqamətlər üzrə Müvəkkilin fəaliyyətinin nəticələri, əldə olunmuş uğurları, təşəbbüsləri, təklif və tövsiyələri onun MPM qismində fəaliyyətinə dair xüsusi hesabatlarında əks etdirilir. Ötən illərin hesabatları Azərbaycan və İngilis dillərində nəşr etdirilmişdir. İndiyədək hazırlanmış hesabatlarda qanunvericiliyin təkmilləşdirilməsi, eləcə də təşkilati problemlərin həllinə yönəlmiş 200-dən artıq təklif və tövsiyə öz əksini tapmışdır ki, onun da yarıdan çoxu praktik həllini tapmış və ya icraya yönəldilmişdir.

Müvəkkilin MPM qismində fəaliyyəti işgəncə və pis rəftara şərait yaradan halları pisləməklə məhdudlaşmır, qarşısı alınan tədbirlərin gücləndirilməsi məqsədilə görülməli işlərlə bağlı müvafiq təsisatlara tövsiyələr verilir, dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, onları birləşdirən İctimai Komitə və digər təsisatlarla əməkdaşlıqda bu məsələlər və preventiv yanaşmalar diqqətdə saxlanılır.

# BÖLMƏ 2.

# MİLLİ PREVENTİV MEXANİZMİN FƏALİYYƏTİ VƏ PREVENTİV BAŞÇƏKMƏLƏR

## 2.1. Preventiv başçəkmələrin təşkili

Məlum olduğu kimi, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə mütəmadi başçəkmələrin həyata keçirilməsi milli preventiv mexanizmlərin fəaliyyətinin əsas istiqamətidir. Azərbaycan MPM-i də onun üzərinə qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində prioritetləri müəyyən edərkən əsasən Fakültativ Protokolun məqsədlərini nəzərə alır[13].

Belə ki, Fakültativ Protokolun 20-ci maddəsinin "a" bəndinə əsasən, Milli Preventiv Mexanizmlərin öz mandatını yerinə yetirə bilməsi məqsədilə, iştirakçı dövlətlər Fakültativ Protokolun 4-cü maddəsinin tətbiqi üçün şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrin və orada saxlanılanların sayı, yerləşdiyi yer haqqında istənilən məlumatı təqdim etməyi öhdələrinə götürürlər.

Bu məlumatlar Müvəkkilin sorğusu əsasında müvafiq dövlət orqanlarından alınır və həmin sorğular üzrə daxil olmuş məlumatlar əsasında hazırlanmış illik plana uyğun olaraq başçəkmələr həyata keçirilir. Zərurət yarandıqda, ilin sonunda müvafiq orqanlarla dəqiqləşdirmələr aparılaraq növbəti il üçün məlumatlar yenilənir.

MPM fəaliyyəti çərçivəsində bütün preventiv başçəkmələr əvvəlcədən xəbərdarlıq etmədən həyata keçirilir və bunları *plan üzrə başçəkmələr* və *plandankənar başçəkmələr* olmaqla iki qrupa bölmək olar.

### 2.1.1. Plan üzrə başçəkmələr

Plan üzrə başçəkmələr Müvəkkil tərəfindən təsdiq olunan illik plan əsasında həyata keçirilir. İllik planın layihəsi hər ilin sonunda növbəti il üçün MPQ üzvlərinin iştirakı ilə keçirilən iclasda müzakirə olunur, nəticələr protokollaşdırılır, qəbul edilmiş plan təsdiq olunmaq üçün Müvəkkilə təqdim edilir. Planın açıqlanmaması başçəkmələrin effektivliyi baxımından çox əhəmiyyətlidir. Bu baxımdan konfidensiallıq MPQ üzvləri tərəfindən təmin olunur.

Bu və ya digər müəssisənin plana hansı ardıcıllıqla daxil edilməsi, həmçinin müəssisəyə təkrar başçəkmələrin təyin edilməsi həmin müəssisənin rejiminin xüsusiyyəti, ötən illərdə şərait və rəftarla əlaqədar qeydə alınmış

[13] "İşgəncələrə və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiya"nın Fakültativ Protokolu, maddə 1;

hallar, ərazi uyğunluğu, eləcə də Müvəkkilin ünvanına daxil olmuş şikayətlərin təhlili nəticəsində MPQ-yə verilmiş məlumatlar kimi amillər nəzərə alınmaqla aparılır.

Başçəkmənin həyata keçirilməsi üçün sərf olunan vaxt isə müəssisədən, orada saxlanılan şəxslərin sayından, rejim və digər xüsusiyyətlərindən, eləcə də başçəkməyə cəlb olunmuş MPQ üzvlərinin sayından asılı olaraq dəyişir.

### 2.1.2. Plandankənar başçəkmələr

Plandankənar başçəkmələr əsas etibarilə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası vəziyyətinin öyrənilməsi, MPM-ə bu və ya digər formada məlumat ötürmüş şəxslərə qarşı təqib hallarının baş verməsinin qarşısının alınması, o cümlədən saxlanılan şəxslərlə aparılan söhbət zamanı onların əvvəllər saxlanıldıqları müəssisə haqqında verdikləri məlumatların və Müvəkkilin ünvanına daxil olmuş şikayətlərin, qaynar xəttinə daxil olmuş müraciətlərin təhlili, MPQ-yə verilmiş məlumatların araşdırılması, kütləvi informasiya vasitələrində rast gəlinən və MPM-i maraqlandıran informasiyaların yerində yoxlanılması, habelə Müvəkkilin təşəbbüsü ilə həyata keçirilir.

## 2.2. Başçəkmələrin həyata keçirilməsi

Başçəkmələrin effektivliyinin təmin olunması üç əsas mərhələnin əhatə olunmasını tələb edir. Bunlar nəzərə alınaraq Azərbaycan MPM-i tərəfindən başçəkmələr aşağıdakı mərhələlər üzrə həyata keçirilir:

- başçəkməyə hazırlıq;
- başçəkmənin həyata keçirilməsi;
- başçəkmədən sonrakı tədbirlər.

*Başçəkməyə hazırlıq* adətən iki iş gününədək davam etməklə zəruri məlumatların toplanılması; başçəkmənin məqsədlərinin müəyyən edilməsi; başçəkməni həyata keçirəcək qrupun təşkil edilməsindən ibarət olur.

Hazırlıq zamanı, zəruri məlumatların toplanılması prosesində əvvəlki başçəkmələrdə əldə edilmiş və ya digər mənbələrdən alınmış məlumatlar, Müvəkkilin ünvanına daxil olmuş müraciətlər, KİV-lərdən alınmış məlumatlar, habelə bəşçəkmənin həyata keçiriləcəyi müəssisənin fəaliyyətini tənzimləyən normativ-hüquqi aktlar və beynəlxalq standartlar təhlil edilir.

Başçəkmənin məqsədləri saxlanma şəraitinin və rəftarın ümumən qiymətləndirilməsindən; saxlanma şəraiti və rəftarla bağlı konkret halların öyrənilməsindən (məsələn, intizam cəzalarının həyata keçirilməsi, tibbi xidmətin keyfiyyəti və s.); əvvəlki başçəkmələr zamanı aşkar olunmuş halların aradan qaldırılıb-qaldırılmamasının, habelə verilmiş təklif və tövsiyələrin

icrası vəziyyətinin yoxlanılmasından; xüsusi diqqət yetirilməli olan məsələlərin dairəsinin müəyyənləşdirilməsindən və digər tədbirlərdən ibarət olmaqla müəyyən edilir.

Başçəkməni həyata keçirəcək qrupun təşkil edilməsi zamanı qrup üzvlərinin sayı, ixtisası, cinsi və s. amillər nəzərə alınmaqla başçəkmə qrupunun tərkibi formalaşdırılır, başçəkmənin məqsədindən asılı olaraq başçəkmə və müsahibə suallarının siyahısı, məhkumlarla söhbətin, həyata keçiriləcək tədbirlərin gedişi və nəticələrinin protokollaşdırılması üçün akt formaları, sorğu anketləri və s. hazırlanır.

*Başçəkmənin həyata keçirilməsi* özündə bir neçə mərhələni ehtiva edir:

Əvvəlcə müəssisənin rəhbərliyi ilə ilkin söhbət aparılır, söhbət zamanı qrup üzvləri özlərini təqdim edir, başçəkmənin məqsədi barədə onu məlumatlandırırlar. Daha sonra müəssisə barədə ümumi məlumat alınır.

Müəssisənin rəhbərliyi ilə ilkin söhbətdən sonra müəssisənin binalarına baş çəkilir. Bu zaman müəssisədə saxlanma şəraiti – müəssisənin binasının, kamera və ya otaqların vəziyyəti, ölçüsü, tutumu, faktiki yerləşmə, işıqlandırma, havalandırma, mebel təchizatı, şəxsi gigiyena və sanitariya şəraiti, qidalanma məsələləri qiymətləndirilir; tibbi xidmətlərin təmin olunması vəziyyəti, mövcud sənədləşmə və s. araşdırılır.

Daha sonra sənədlərə baxış keçirilir, saxlanılan şəxslərlə kollektiv və ya təkbətək, konfidensial şəkildə söhbət aparılır. Saxlanılan şəxslərlə kollektiv söhbətlərin aparılması əsas etibarilə başçəkmənin məqsədindən asılıdır. Vəziyyətdən asılı olaraq söhbətlərin hansı şəkildə aparılmasını MPQ üzvləri başçəkmə yerində müəyyən edə, yaxud ilkin razılaşmaya düzəliş edə bilər.

Müəssisə əməkdaşları ilə söhbət də başçəkmənin vacib məsələlərindəndir. MPQ üzvləri başçəkmə həyata keçirərkən saxlanılan şəxslərə görə cavabdehlik daşıyan müəssisə əməkdaşlarının rəftar baxımından yanaşmalarını qiymətləndirmək məqsədi ilə onlarla müsahibələr təşkil edirlər. Bəzi hallarda müəssisələrin personalı ilə söhbətlə yanaşı onlar üçün nəzərdə tutulmuş xüsusi sorğu anketlərindən də istifadə olunur.

Başçəkmənin sonunda müəssisə rəhbəri ilə yekun söhbət aparılaraq MPQ tərəfindən aşkar edilmiş hallarla bağlı məlumat verilir. Yerində aradan qaldırıla biləcək məsələlər onun diqqətinə çatdırılır və müvafiq tövsiyələr verilir. Eyni zamanda nəticələrlə bağlı müvafiq orqanın rəhbərliyinə müraciət ediləcəyi bildirilir.

*Başçəkmədən sonrakı tədbirlər.* MPM-in fəaliyyətinin məqsədi yalnız müvafiq yerlərə başçəkmədən ibarət deyil və müxtəlif müəssisələrdə saxlanılan şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılmasına istiqamətlənmiş fəaliyyətin təşkili də bu prosesə daxildir.

Məhz ona görə də başçəkmə yekunlaşdırıldıqdan sonra onun nəticələrinə dair hesabat tərtib edilir, nəticələr təhlil olunur, rəftar və şəraitin

yaxşılaşdırılması üçün tövsiyələr hazırlanaraq müvafiq qurumlara göndərilir.

Adətən MPQ-nin zəruri hesab etdiyi hallarda başçəkmədən sonrakı yaxın dövr ərzində müəssisə ilə əlaqədar verilmiş tövsiyələrin icrası vəziyyətinin yerində yoxlanılması məqsədi ilə təkrar başçəkmə günü təyin edilir və müvafiq olaraq həyata keçirilir.

2018-ci ildə MPQ üzvləri tərəfindən saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə plan üzrə 220, plandankənar isə 123 olmaqla, cəmi 343 başçəkmə həyata keçirilmişdir.

Müvafiq olaraq DİN-in tabe müəssisələrində 186, ƏN-in müəssisələrində 56, DTX-nin müəssisələrində 4, DMX-nin müəssisələrində 3, SN-in müəssisələrində 29, ƏƏSMN-in müəssisələrində 7, TN-nin müəssisələrində 44, yerli icra hakimiyyəti orqanlarının müəssisələrində 14 başçəkmə keçirilmişdir.

Şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə fərdi qaydada sayca 3114 şəxslə, habelə bu müəssisələrdə çalışan 600-ə qədər əməkdaşla hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

MPM fəaliyyəti çərçivəsində preventiv başçəkmələr – saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə mütəmadi olaraq, plan üzrə və ya plandankənar olmaqla və bütün hallarda əvvəlcədən xəbərdarlıq edilmədən həyata keçirilmişdir.

Ötən illərdə olduğu kimi, cari il ərzində də aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması, saxlanma şəraitinin təkmilləşdirilməsi üçün müəssisə rəhbərlərinə, habelə aidiyyəti nazirliklərə müvafiq təklif və tövsiyələr verilmiş, həmin orqanlar tərəfindən hər bir tövsiyə üzrə uyğun tədbirlər həyata keçirilərək görülmüş işlərin nəticələri barədə MPM-in funksiyalarını həyata keçirən Müvəkkilə məlumat verilmişdir.

Hər il planlı və plandankənar şəkildə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə həyata keçirilən başçəkmələr zamanı müraciət edən çoxsaylı şəxslə təklikdə və konfidensial görüşlər keçirilməklə yanaşı, onların müraciətləri qəbul edilmiş və yerində araşdırılmışdır. MPQ-yə çatdırılan müraciətlər nəzərə alınmaqla müvafiq tədbirlər görülmüş, hüquqi məsləhətlər verilmiş, icraata qəbul edilməsi təmin edilmişdir.

Başçəkmələrdə, habelə saxlanılan şəxslərdən, onların ailə üzvlərindən və vəkillərindən, hüquq müdafiəçilərindən aparata və qaynar xətlərə, eyni zamanda vətəndaş cəmiyyəti institutları,qeyri-hökumət təşkilatlarından və Beynəlxalq Qızıl Xaç Komitəsindən Müvəkkilə ünvanlanmış müraciətlər üzrə aparılmış araşdırmalar da daxil olmaqla, çoxsaylı şəxslər qəbul olunmuşdur.

Bu sahədə olan müraciətlərlə bağlı müvafiq araşdırmalar aparılmış, zərurət yarandıqda isə yoxlanılması üçün Baş Prokurorluğa, Daxili İşlər

Nazirliyinə, Ədliyyə Nazirliyinə və digər əlaqədar dövlət qurumlarına müraciət edilmişdir. Araşdırmaların nəticəsi barədə müraciət edən şəxslər hər bir halda rəsmi qaydada, vaxtında, yazılı surətdə cavablandırılmışlar.

### 2.2.1. Daxili İşlər Nazirliyinin müəssisələri

2018-cı ildə Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində müvəqqəti saxlama yerlərinə, polis bölmələrinə planlı və plandankənar olmaqla 186 başçəkmə həyata keçirilmişdir. Bu müəssisələrdə 570 saxlanılan şəxslə fərdi söhbətlər aparılmış, onların saxlanma şəraiti qiymətləndirilmiş, saxlanıldıqları müddət ərzində, habelə tutularkən pis rəftara məruz qalıb-qalmamaları araşdırılmışdır.

Müvəkkil və onun MPQ üzvləri tərəfindən rayon (şəhər) polis orqanlarının rəhbərliyi və şəxsi heyəti ilə görüşlər keçirilmiş, onlarla hüquqi maarifləndirmə işi aparılmış, insan hüquq və azadlıqlarının təmin olunmasına xüsusi diqqət yetirilməsinin vacibliyi diqqətə çatdırılmış, bu sahədə əməkdaşlıq məsələləri müzakirə edilmişdir. Keçirilən görüşlərdə təsisatın hüquqi nəşrləri, tədris vəsaitləri təqdim edilmiş, həmin vəsaitlərin öyrənilməsi, treninq və təlimlərdə istifadə olunması, təcrübədə tətbiqi tövsiyə olunmuşdur.

Ombudsmanın "Qaynar xətt" nömrələrinin əks olunduğu müvafiq elanların mövcud olub-olmadığı monitorinq edilmiş və olmayan yerlərdə qaynar xəttə dair plakatlar təqdim olunmaqla əlçatanlığı təmin edilmişdır.

Müvəqqəti saxlama yerlərinə keçirilmiş başçəkmələr zamanı isə, polis orqanlarına gətirilən şəxslərin bu və ya digər şəkildə pis rəftara məruz qalma ehtimalının olub-olmaması da araşdırma predmeti olmuş və həmin şəxslərə münasibətdə məlumatların konfidensiallığı təmin edilmişdir.

İnsan hüquqlarının daha etibarlı təmin edilməsi istiqamətində tədbirlərin davam etdirildiyi, müvəqqəti saxlama yerlərində mövcud saxlanma şəraitinin müasir standartlara uyğunlaşdırılması, maddi-texniki bazanın yenidən qurulması və təkmilləşdirilməsi istiqamətində işlərin həyata keçirildiyi müşahidə edilmişdir.

Bununla yanaşı, saxlanılan şəxslərə qarşı münasibətin yaxşılaşdırılması, müəyyən edilmiş nöqsanların və onlara şərait yaradan halların aradan qaldırılması üçün müvafiq işlərin görüldüyü, MSY-lərin işinə nəzarətin gücləndirildiyi müşahidə edilmişdir.

Aşkar olunmuş pozuntuların araşdırılması ilə bağlı, MPM qismində Müvəkkilin DİN-ə müraciətləri diqqətdə saxlanılmış, pozuntular aradan qaldırılmış, təqsirkar şəxslər qanunvericilik çərçivəsində cəzalandırılmış və bu barədə digər polis orqanları məlumatlandırılmışdır ki, bu da səmərəli əməkdaşlığa mühüm töhfədir.

***DİN-in İnzibati Həbs Olunanların Saxlanma Məntəqəsinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd saxlanma şəraitinin və saxlanılan şəxslərlə rəftar məsələlərinin araşdırılması, onların hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Müəssisədə saxlanma şəraiti ilə bağlı burada saxlanılan bir sıra şəxslər qəbul edilərək konfidensial qaydada dinlənilib, hüquqlarının təmin olunma vəziyyəti, qaldırdıqları məsələlər, sənədləşmə araşdırılıb, habelə onların bir sıra müraciətləri yerində təmin edilib.

Saxlanma Məntəqəsinin kameralarına baxışlar keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat qəbulu ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

Başçəkmənin sonunda saxlanma şəraitinin təkmilləşdirilməsinə və rəftar məsələlərinə dair MPQ üzvləri tərəfindən müəssisə rəisinə müvafiq tövsiyələr verilmiş, qeyd olunan məsələlərin həlli və qəbul edilmiş müraciətlərlə bağlı Ombudsman tərəfindən müvafiq olaraq Baş prokurora və Daxili işlər nazirinə müraciət edilmiş və verilmiş məlumatlar əsasında müraciətlər cavablandırılmışdır.

Qeyd olunmalıdır ki, əvvəlki dövrdə həyata keçirilmiş başçəkmələrin nəticəsi olaraq verilmiş tövsiyələr də nəzərə alınmaqla, saxlanma şəraitinin təkmilləşdirilməsi məqsədilə müəssisə əsaslı təmir edilmiş və sıxlığın aradan qaldırılması məqsədilə yeni korpus inşa edilərək istifadəyə verilmişdir.

***DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə*** əvvəlcədən xəbərdarlıq edilmədən planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı müvəqqəti saxlama yerində saxlanılan şəxs olmamışdır. Bu baxımdan başçəkmə çərçivəsində əvvəlki tarixlərdə saxlanılan şəxslərin saxlanılmasına dair sənədlər araşdırılmış, kameralara baxışlar keçirilmiş, qidalanma, tibbi yardım, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

Yekunda İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyanın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun müddəaları və müvəqqəti saxlama yerlərinin Daxili İntizam Qaydaları əsasında MSY əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə uyğun şəkildə müvafiq tövsiyələr verilmiş, habelə idarə rəhbərliyi ilə sənədləşmənin aparılması işinin təkmilləşdirilməsi və müraciətlərin təmini məsələləri müzakirə olunmuşdur.

***Abşeron Rayon Polis İdarəsinin Müvəqqəti saxlama yerinə*** MPQ üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq edilmədən həyata keçirilmiş başçəkmə zamanı MSY-nin bütün kameralarına baxış keçirilmiş, habelə müvafiq sənədləşmə və qeydiyyat jurnalları öyrənilmişdir.

Başçəkmə zamanı MSY-də saxlanılan şəxslər MPQ üzvləri tərəfindən fərdi qaydada dinlənilmiş, müraciətləri qəbul edilmiş və cavablandırılmış, onlara hüquqları və Ombudsmanın səlahiyyətləri izah olunmuş, hüquqi məsləhətlər verilmişdir. Bunlarla yanaşı, həmin şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə onlara qarşı rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmışdır.

Başçəkmənin sonunda sənədləşmədə olan nöqsanların aradan qaldırılmasına, saxlanma şəraitinin təkmilləşdirilməsinə və rəftar məsələlərinə dair MPQ üzvləri tərəfindən idarə rəhbərliyinə və MSY rəisinə müvafiq tövsiyələr verilmişdir.

İnsan Hüquqları üzrə Müvəkkilin tapşırığına əsasən, Milli Preventiv Qrupun üzvləri tərəfindən ***Nəsimi Rayon Polis İdarəsinin Müvəqqəti saxlama yerinə, habelə həmin RPİ-nin 19 və 22-ci polis şöbələrinə, 20 və 21-ci polis bölmələrinə*** əvvəlcədən xəbərdarlıq etmədən planlı başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələrdə məqsəd saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, qanunvericiliyə müvafiq şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Müvəqqəti saxlama yerinə başçəkmə çərçivəsində saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, bütün kameralara baxışlar keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

MSY-də saxlanılan inzibati həbs olunmuş, habelə cinayət prosessual qanunvericiliyə uyğun olaraq tutulmuş və həbs edilmiş şəxslər MPQ üzvləri tərəfindən fərdi qaydada qəbul edilmiş və müraciətləri təmin olunmuşdur.

*Qəbul edilmiş bəzi şəxslər barələrində aparılan istintaqdan narazılıqlarını bildirmiş, müraciətlərində yer alan cinayətlərin dekriminallaşdırılması və digər cinayət və mülki hüquq münasibətləri üzrə qaldırdıqları məsələlər üzrə hüquqi məsləhətlər verilmişdir.*

Yekunda müəssisə rəhbərliyi ilə sənədləşmənin və saxlanma şəraitinin təkmilləşdirilməsi, müraciətlərin təmini məsələsi müzakirə olunmuş, milli və beynəlxalq qanunvericilik əsasında əməkdaşlara ünvanlanan hüquqi maarifləndirmə işi aparılmış, müvafiq tövsiyələr verilmişdir.

Nəsimi RPİ-nin 19 və 22-ci polis şöbələrinə, 20 və 21-ci polis bölmələrinə də keçirilmiş başçəkmələr zamanı saxlanılan şəxs olmamışdır. İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyanın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun müddəaları əsasında məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, sənədləşmədə müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması və təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

***Səbail Rayon Polis İdarəsinin Müvəqqəti saxlama yerinə, habelə həmin RPİ-nin 8, 9 və 39-cu polis bölmələrinə*** əvvəlcədən xəbərdarlıq etmədən planlı başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələrdə məqsəd saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, qanunvericiliyə müvafiq şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Müvəqqəti saxlama yerinə başçəkmə çərçivəsində müəssisədə saxlanılan şəxs olmamışdır.MSY-nin müvafiq qeydiyyat jurnalında əvvəlki tarixlərdə saxlanılan şəxslərlə bağlı məlumatlar araşdırılmış, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat ilə bağlı sənədləşmə yoxlanılmış, bütün kameralara baxışlar keçirilmiş, mövcud ehtiyaclar öyrənilmişdir.

Yekunda MSY-nin rəhbərliyi ilə sənədləşmənin və saxlanma şəraitinin təkmilləşdirilməsi, müraciətlərin təmini məsələsi müzakirə olunmuş, milli və beynəlxalq qanunvericilik əsasında əməkdaşlara ünvanlanan hüquqi maarifləndirmə işi aparılmış, müvafiq tövsiyələr verilmişdir.

Səbail RPİ-nin 8 və 9-cu polis bölmələrinə də keçirilmiş başçəkmələr zamanı saxlanılan şəxs olmamış, 39-cu polis bölməsində isə inzibati xətaya görə saxlanılmış 2 nəfər şəxs MPQ üzvləri tərəfindən qəbul olunmuş, fərdi qaydada dinlənilmişdir.

Başçəkmələrin yekununda İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyanın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun müddəaları əsasında məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, habelə sənədləşmənin təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

***Yasamal Rayon Polis İdarəsinin Müvəqqəti saxlama yerinə, həmin RPİ-nin 29-cu Polis şöbəsi, 26 və 28-ci polis bölmələrinə*** əvvəlcədən xəbərdarlıq etmədən planlı başçəkmələr həyata keçirilmişdir.[14]

---

[14] http://www.ombudsman.gov.az/az/view/news/1182/milli-preventiv-qrupun-uzvleri-muveqqeti-saxlama-yeri-ve-polis-bolmelerine-bashchekmeler-heyata-kechirmishler

BMT-nin İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyanın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmələrdə məqsəd saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, qanunvericiliyə müvafiq şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Müvəqqəti saxlama yerinə (MSY) başçəkmə çərçivəsində saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, bütün kameralara baxışlar keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

MSY-də saxlanılan, cinayət prosessual qanunvericiliyə uyğun olaraq həbs edilmiş şəxslər MPQ üzvləri tərəfindən fərdi qaydada qəbul edilmiş, müraciətləri cavablandırılmış, onlara hüquqları və Ombudsmanın səlahiyyətləri izah olunmuş, hüquqi məsləhətlər verilmişdir.

RPİ-nin həmin şöbə və bölmələrinə başçəkmələr çərçivəsində isə, araşdırma otaqlarına baxışlar keçirilmiş, müvafiq qeydiyyat jurnalları və sənədləşmə öyrənilmiş, məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış və tövsiyələr verilmişdir.

Başçəkmələrin yekunu, sənədləşmənin aparılması işinin təkmilləşdirilməsi və müraciətlərin təmini məsələsi Rayon Polis İdarəsinin rəhbərliyi ilə müzakirə olunmuşdur. Bundan başqa MSY-nin əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə uyğun şəkildə müvafiq tövsiyələr verilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən ***Quba Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, qanunvericiliyə müvafiq şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

rın araşdırılması, məhkumların hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Araşdırma zamanı MPQ-nin üzvləri tərəfindən müəssisənin yataqxanalarına, tibb-sanitar hissəsinə və cərimə kameralarına baxış keçirilmiş, Müvəkkilə müraciət edən məhkumlarla yanaşı müəssisənin müxtəlif obyektlərində müraciət edən çoxsaylı məhkumlar qəbul edilmişdir.

Başçəkmə zamanı Ombudsmana müraciət edən və MPQ üzvləri ilə görüşmək istəyən məhkumlar fərdi qaydada qəbul edilmiş, onlarla konfidensial söhbət aparılmışdır.

Başçəkmənin yekununda müəssisə rəhbərliyinə milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CÇM-lərin Daxili intizam qaydalarına müvafiq şəkildə saxlanma şəraiti və rəftar məsələlərinə dair tövsiyələr verilmişdir.

Müvəkkil Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində ***4 saylı Cəzaçəkmə Müəssisəsində*** başçəkmə və açıq qapı günü keçirərək məhkum qadınları qəbul etmişdir.

Başçəkmə çərçivəsində Müvəkkil müəssisə rəhbərliyinin və məhkumların geniş tərkibdə iştirakı ilə hüquqi maarifləndirici görüş keçirmiş, 10 fevral 2017-ci il tarixdə "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi" barədə ölkə Prezidentinin Sərəncamının icrası prosesində qanunvericiliyə edilmiş dəyişikliklər və təsir dairəsi ilə bağlı məhkumlara geniş məlumat verilmiş, sualları cavablandırılmışdır.

Tədbirdən sonra Ombudsman tərəfindən müraciəti olan hər bir məhkumun qəbulu üçün "Açıq qapı" elan edilmişdir.

*CPT tövsiyələrində qeyd olunur ki, məhkumlar həm penitensiar sistem daxilində, həm də ondan kənar orqanlara şikayət etmək imkanlarına, o cümlədən müvafiq hakimiyyət orqanına konfidensial qaydada müraciət imkanına malik olmalıdırlar.*[23]

Bu baxımdan "Açıq qapı" qəbulu zamanı Müvəkkil tərəfindən çoxsaylı məhkumlar fərdi qaydada qəbul edilmiş, onların ərizə və müraciətlərinə baxılmış, bəzi müraciətlər isə yerində təmin olunmuşdur.

Bunlarla yanaşı məhkumların müraciətlərində yer alan istintaq, cinayətlərin dekriminallaşdırılması və digər cinayət və mülki hüquq münasibətləri üzrə məsələlər qanunvericiliyə uyğun şəkildə cavablandırılmış, onlara hüquqları, əfvlə bağlı müvafiq qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah edilmişdir.

Qəbul zamanı sosial və ailə məsələlərinin həlli ilə bağlı müraciətlər üzrə məhkumlara hüquqi məsləhətlər verilmiş, ərizələri üzrə qaldırılan məsələlər həlli məqsədilə müvafiq dövlət orqanlarına ünvanlanmışdır.

[23] CPT, GR 2, 54

Fərdi qəbul edilmiş məhkumlar CÇM-də saxlanma şəraitindən, qidanın keyfiyyətindən və tibbi xidmətdən, habelə onlarla işləyən müəssisə əməkdaşlarının rəftarından narazılıq etməmişlər.

Başçəkmə çərçivəsində cəzaların icrası qanunvericiliyinə müvafiq şəkildə üç yaşına çatmamış uşağı ilə birgə yaşayan məhkum qadınların da saxlanma şəraiti yoxlanılmış, müraciətləri qəbul edilmişdir.

Yekunda müəssisə rəhbərliyi ilə müzakirələr aparılmış, məhkumların hüquqlarının effektiv təmini, saxlanma şəraitinin daha da təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.[24]

Müvəkkilin əvvəlki tövsiyələrində yer almış məsələlərdən biri də məhkumların əməyinin təşkili olmuşdur ki, 4 saylı CÇM-də qadın məhkumların faydalı əməklə məşğul olmaları üçün istehsalat sahəsi genişləndirilmişdir.

*CPT tövsiyələrinə əsasən, müəssisələrdə işin təşkili və metodları, müəssisədən kənarda qəbul edilən olmalıdır ki, məhkumlar azadlıqda mövcud əmək şəraitinə öyrəşmiş və müvafiq bacarıqlara malik olsunlar.*[25]

***10 saylı Cəzaçəkmə Müəssisəsinə*** Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən həyata keçirilən başçəkmədə məqsəd daxil olmuş müraciətlərin, saxlanma şəraitinin və rəftarın araşdırılması, beynəlxalq standartlara və cəzaçəkmə müəssisələrinin daxili intizam qaydalarına uyğun şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə zamanı MPQ üzvləri tərəfindən müəssisənin yaşayış sahəsinə, tibb-sanitar hissə, karantin otağı, cərimə təcridxanası, görüş yerləri və digər obyektlərinə baxış keçirilmiş, saxlanma şəraiti, qidalanma, içməli su, isti-soyuq su təminatı, tibbi yardım, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə, habelə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası üzrə görülmüş işlər yerində araşdırılmışdır.

*CÇM-nin müdiriyyəti hər bir məhkumu, onun sağlamlığını və qüvvəsini mühafizə etmək üçün kifayət qədər qidalı olan, kifayət qədər yaxşı keyfiyyətli olan, yaxşı hazırlanan və lazımi qaydada verilən qida ilə təmin etməlidir. Hər bir məhkumun ehtiyac duyduğu zaman içməli suyu olmalıdır.*[26]

*Avropa Penitensiar Qaydaları da içməli suyun hər bir məhkum üçün çatımlı olmasını xüsusi qeyd edir.*[27]

---

[24] http://www.ombudsman.gov.az/az/view/news/953/ombudsman-4-sayli-cezacheme-muessisesinde-achiq-qapi-qebulu-heyata-kechirmishdir

[25] SMR, 72-ci qayda

[26] SMR, 20-ci qayda;

[27] Avropa Penitensiar Qaydaları, 25-ci qayda.

Başçəkmə çərçivəsində həmin müəssisədə çoxsaylı məhkumlar fərdi qaydada dinlənilmiş, habelə bir sıra şəxslər öz xahişləri ilə təkbətək qəbul edilmiş, müraciətləri yerində araşdırılmışdır. Ümumilikdə isə, qəbul olunmuş məhkumlar saxlanma şəraitindən və rəftardan şikayət etməmişlər.

Qəbul zamanı məhkumlara hüquqları, müvafiq qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah edilmiş, hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmişdir.

MPQ üzvləri Ombudsmanın ünvanına daxil olmuş müraciətlə bağlı fərdi qaydada qəbul etmiş məhkumlarla konfidensial söhbət aparmış və onlar barələrində çıxarılmış məhkəmə hökmündən şikayətlənmişlər. Bu şəxslərə Ombudsmanın səlahiyyətləri izah edilmiş, hüquqi məsləhət verilmiş, qəbul edilmiş müraciətləri müvafiq tədbirlərin görülməsi məqsədilə aidiyyəti dövlət orqanları qarşısında qaldırılmış və cavablandırılmışdır.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi ilə milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CÇM-lərinin Daxili intizam qaydalarına müvafiq şəkildə saxlanma şəraitinin, tibbi xidmətin, qidanın keyfiyyəti, sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi üzrə müzakirələr aparılmış və tövsiyələr verilmişdir.

***16 saylı Cəzaçəkmə Müəssisəsinə*** Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində MPQ üzvləri tərəfindən başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin araşdırılması, müəssisədə məhkumlarla rəftar, qidalanma, sənədləşmənin aparılması, tibbi xidmətin əlçatanlığı və Cəzaçəkmə müəssisələrinin daxili intizam Qaydalarına uyğun şəkildə məhkumların hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olmuşdur.

*CPT məhkumların şikayətlərini dinləmək (və zəruri olduqda onlarla bağlı tədbir görmək) və müəssisənin tikililərini təftiş etmək səlahiyyətlərinə malik olan müstəqil təsisatlar tərəfindən hər bir azadlıqdan məhrumetmə müəssisəsinə mütəmadi səfərlərin keçirilməsinə xüsusi önəm verir. Belə qurumlar, digər məsələlərlə yanaşı, müəssisə müdiriyyəti ilə məhkumlar arasında və ya konkret məhkum arasında yaranan fikir ayrılıqlarını aradan qaldırmaqda mühüm rol oynayırlar.*[28]

Başçəkmə zamanı müəssisənin cərimə təcridxanası, karantin otağı və digər obyektlərinə baxış keçirilmiş, saxlanma şəraiti, qidalanma, tibbi yardım, sovqat qəbulu, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə, habelə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası üzrə görülmüş işlər yerində araşdırılmışdır.

Başçəkmə çərçivəsində Müvəkkilə müraciət etmiş məhkumlarla yanaşı, başqaları da öz xahişləri ilə təkbətək qəbul edilmiş, müraciətləri dinlənilmiş,

[28] CPT, GR 2, 54;

qaldırdıqları məsələlər üzrə hüquqi məsləhətlər verilmiş, saxlanma şəraitinə dair bəzi müraciətlər isə yerində araşdırılaraq təmin edilmişdir.

Avropa Penitensiar Qaydaları da müəyyən edir ki, *bütün məhkumlar hüquqi yardım və məsləhət almaq hüququna malikdir. Müəssisə müdiriyyəti öz növbəsində məhkumların belə yardımdan səmərəli istifadə üçün zəruri şərait yaratmalıdır.*[29]

Yekunda müəssisə rəhbərliyi ilə müzakirələr aparılmış, məhkumların hüquqlarının effektiv təmini, saxlanma şəraitinin təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində MPQ üzvləri tərəfindən ***Tərbiyə Müəssisəsinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd bu müəssisədə saxlanılan yetkinlik yaşına çatmayanların saxlanma şəraitinin və onlarla rəftar məsələlərinin araşdırılması olmuşdur. MPQ-nin həkim üzvünün də iştirak etdiyi başçəkmə çərçivəsində müəssisənin müxtəlif obyektlərinə baxışlar keçirilmiş, rəftar məsələləri ilə bağlı müsahibələr aparılmış, saxlanma şəraiti ilə bağlı yataqxanalar, qidalanma, tibbi yardım, habelə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası üzrə görülmüş işlər yerində araşdırılmışdır.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi ilə müzakirələr aparılmış, məhkumların hüquqlarının effektiv təmini, saxlanma şəraitinin daha da təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

Bu müəssisədə də saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə, tikilməkdə olan yeni müəssisənin inşasının yekunlaşdırılması tövsiyə olunur.

*Avropa Penitensiar Qaydalarında da nəzərdə tutulduğu kimi, yetkinlik yaşına çatmayan məhkumlar azadlıqda yetkinlik yaşına çatmayanların istifadə etdiyi sosial, psixoloji və təhsil proqramlarından istifadə etmək imkanları ilə təmin edilməlidirlər.*[30]

***Penitensiar Xidmətin Müalicə Müəssisəsinə*** Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində MPQ üzvləri tərəfindən plandankənar başçəkmələr həyata keçirilmişdir. Başçəkmələr Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin araşdırılması, müəssisədə tibbi xidmətin əlçatanlığı və saxlanma şəraitinin öyrənilməsi məqsədini daşımışdır.

*Qəbul olunanların bəziləri tibbi yardımın keyfiyyəti və müalicə məsələləri ilə bağlı narazılıqlarını bildirmişlər. Həmin şəxslərin şikayətləri, eləcə də cəzaçəkmə müəssisələrindən Müalicə müəssisəsinə köçürülmə və müalicə ilə bağlı müraciətlər Müvəkkil tərəfindən MPM fəaliyyəti çərçivəsində Ədliyyə Nazirliyi qarşısında qaldırılmış və təmin olunmuşdur.*

*Tövsiyələrdə də qeyd olunur ki, mütəxəssisin xidmətlərinə ehtiyacı olan xəstə məhkumlar xüsusi müəssisələrə və ya mülki xəstəxanalara köçürül-*

---

[29] Avropa Penitensiar Qaydaları, 23-cü qayda;
[30] Avropa Penitensiar Qaydaları, 35-ci qayda.

*məlidir. Həbsxana xəstəxanaları xəstələrə lazımi tibbi xidmət göstərilməsi və onların müalicəsi üçün zəruri olan avadanlıqlara, qurğulara və dərmanlara, habelə kifayət qədər ixtisaslı personala malik olmalıdırlar.*[31]

Başçəkmələr zamanı müalicə palatalarına baxışlar keçirilmiş və müalicə olunan şəxslərlə fərdi söhbətlər aparılmışdır.

Müalicənin gedişi ilə bağlı qaldırdırılan bəzi məsələlər yerində araşdırılmış, baş həkimə müvafiq tövsiyələr əsasında təmin edilmişdir.[32]

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Penitensiar Xidmətin Həbsxanasına*** başçəkmə həyata keçirilmişdir.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd saxlanma şəraitinin və rəftarın, habelə daxil olmuş müraciətlərin araşdırılması, məhkumların hüquqlarının təmin olunması, o cümlədən müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.[33]

Başçəkmə çərçivəsində müəssisənin ömürlük azadlıqdan məhrumetmə cəza növündə, habelə məhkəmə qərarı əsasında cəzasının bir hissəsini həbsxana rejimində çəkən məhkumların saxlandığı rejim korpuslarına, cərimə təcridxanasına, tibb-sanitar hissəsinə, görüş yerlərinə, yeməkxanasına və digər obyektlərə baxışlar keçirilib, saxlanma şəraiti, habelə tibbi yardımın təşkili, qidalanma, içməli su, isti-soyuq su təminatı, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

*Müəssisənin bəzi rejim korpuslarının kameralarında və cərimə təcridxanasında qidalanma və saxlanma şəraitinin təkmilləşdirilməsinə ehtiyacın olduğu müşahidə edilmişdir.*

*Müəssisədə müasir psixoloji və sosial xidmətlərin təşkilinə, müəyyən müddətə və ömürlük azadlıqdan məhrum edilmiş şəxslərin ictimai faydalı əməyə cəlb edilməklə islah olunması, habelə müəyyən əmək haqqı qazanmaqla öz şəxsi ehtiyaclarını ödəmələri üçün istehsalat sahələrinin yaradılmasına ehtiyac vardır.*

Başçəkmə zamanı rəftar məsələlərinin araşdırılması ilə bağlı həmin müəssisədə çoxsaylı məhkumlar fərdi qaydada dinlənilmiş, qaldırdıqları məsələlər, görüş, telefon danışığı, tibbi yardımla bağlı məsələlər, hüquqlarının təmin olunma vəziyyəti, müraciətləri üzrə sənədləşmə, habelə KİV-də

---

[31] SMR, 22-ci qayda

[32] http://www.ombudsman.gov.az/az/view/news/1181/milli-preventiv-qrup-terefinden-cezachekme-muessiselerine-bashchekmeler-davam-etdirilir

[33]https://az.trend.az/azerbaijan/incident/2902876.html

bu müəssisə üzrə yayılmış məlumatlar yerində araşdırılmış, bir sıra müraciətlər yerində təmin edilmişdir.

Qəbul zamanı məhkumlara hüquqları, müvafiq qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah olunmuşdur.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə, o cümlədən cəzaçəkmə müəssisələrinin Daxili intizam qaydalarına müvafiq şəkildə saxlanma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin və mövcud vəziyyətin təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

Başçəkmənin nəticələri və çatışmazlıqların aradan qaldırılması ilə bağlı Ombudsman tərəfindən Ədliyyə Nazirliyinə müraciət olunmuşdur.[34]

***Şəki Penitensiar Müəssisəsinə*** başçəkmə zamanı müəssisə rəhbərliyi burada saxlanılan, həbs və məhkum olunmuş şəxslərlə bağlı ilkin məlumatları təqdim etmişdir.

Başçəkmə zamanı müəssisədə saxlanma şəraiti və rəftar məsələləri, habelə daxil olmuş müraciətlər araşdırılmış, təqsirləndirilən şəxslərin, habelə məhkumların hüquqlarının təmin olunması, o cümlədən müvafiq qaydada sənədləşmənin aparılması vəziyyəti öyrənilmişdir.

*Başçəkmələr zamanı müfəttişlər xüsusən əmin olmalıdırlar ki, azadlıqdan məhrumetmə müəssisələri mövcud qanunlara və digər normativ aktlara uyğun olaraq idarə olunur və onların işi penitensiar və islah xidmətlərinin qarşısında qoyulan vəzifələrə uyğundur.*[35]

Müəssisənin cərimə təcridxanasına başçəkmə zamanı orada bir nəfər saxlanılan şəxs olmuş və o, fərdi qaydada qəbul edilmişdir. Görüş zamanı həmin şəxs ona qarşı hər hansı qanun pozuntusunun yol verilmədiyini bildirmişdir.

Penitensiar Müəssisənin əsas hissələrindən biri olan, İstintaq Təcridxanasının kameralarına da baxış keçirilmiş və barələrində həbs qətimkan tədbiri seçilmiş şəxslər konfidensial qaydada qəbul edilmişlər.

*Saxlanılan şəxslərdən bəziləri tibbi xidmətdə və yaxınları ilə telefon əlaqəsi yaratmaqda problemlərin olduğunu bildirmişlər.*

*İstintaq Təcridxanasının kameralarına baxış zamanı bəzi yataq döşəklərinin yararsız vəziyyətdə olduğu da müşahidə edilmişdir.*

Bundan başqa müəssisənin yeməkxanasına və ərzaq anbarına da baxış keçirilmişdir.

Yekunda müəssisə rəhbərliyi ilə müzakirələr aparılmış, məhkumların hüquqlarının effektiv təmini, saxlanma şəraitinin daha da təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

---

[34] Bax: Hesabatın Hüquqi təhlil bölməsinə;

[35] SMR, 5-ci qayda.

*Müəyyən olunan nöqsanlar müəssisə rəhbərliyinin diqqətinə çatdırılmış, habelə Penitensiar Xidmət qarşısında qaldırılmaqla həlli müvafiq qaydada nəzarətə götürülmüşdür.*

***5 saylı Məntəqə Tipli Cəzaçəkmə Müəssisəsinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı müəssisə rəhbərliyi tərəfindən müəssisə və məhkumlar haqqında ilkin məlumatlar təqdim olunmuşdur.

Başçəkmə çərçivəsində *müəssisədə ticarət köşkünün, idman meydançasının, camaşırxananın, şəxsi əşyaların saxlanc otağının, telefon danışığı üçün kabinənin və tibb məntəqəsinin olmaması müəyyən edilmiş, eyni zamanda yataqxanaların cərimə təcridxanasında işıqlanma sisteminin normal olmaması, cərimə təcridxanasının döşəməsinin bir hissəsinin sıradan çıxdığından dəyişdirilməli olması, sanitar qovşaqla ümumi hissənin arakəsməsinin olmaması müşahidə edilmişdir.*

Müəssisə rəhbərliyi tərəfindən binada və cərimə təcridxanasında aparılacaq təmir işlərinin mövsümi şəraitlə bağlı müvəqqəti dayandırıldığı, istilik sistemlərinin işlədiyi, qeyd edilən nöqsanların aradan qaldırılacağı bildirilmişdir.

Müəssisədə cəza çəkən şəxslərin işlə təmin edilməsi üçün onların hazırda Ağstafa rayonunda PX-in icarəyə götürdüyü torpaq sahəsində təsərrüfat və heyvandarlıqla (maldarlıq) məşğul olduqları barədə məlumat təqdim olunmuşdur.

*Beynəlxalq təcrübəyə əsasən məhkumların ödənişli faydalı əməklə məşğul olmalarına imkan verən şərait yaradılmalıdır. Bu, ölkənin əmək bazarına onların təkrar inteqrasiyasını asanlaşdırır və özlərini, ailələrini maliyyə yardımı ilə təmin etmələrinə imkan verir.*[36]

*Məhkumların təmin edildikləri iş imkan daxilində elə olmalıdır ki, azad edildikdən sonra onların yaşayışı üçün uyğun zəhmət haqqı qazanmaq qabiliyyətini saxlasın və ya artırsın.*[37]

Başçəkmənin sonunda məhkumların hüquqlarının effektiv təmini, saxlanma şəraitinin daha da təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

***10 saylı Məntəqə Tipli Cəzaçəkmə Müəssisəsinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı müəssisə rəhbərliyi müəssisənin ehtiyatsızlıqdan cinayət törətmiş şəxslər üçün nəzərdə tutulduğunu, cəza çəkən şəxslərin işlə təmin edilməsi üçün hazırda Gədəbəy rayonunda PX-in icarəyə götürdüyü torpaq sahəsində təsərrüfat və heyvandarlıqla məşğul olduqları bildirilmiş, məhkumlar haqqında ilkin məlumatları təqdim etmişdir.

---

[36] BPTP, 8-ci prinsip

[37] SMR, 71-ci qayda

*Beynəlxalq tövsiyələrdə də yer alan əsas məsələlərdən biri Penitensiar müəssisənin müdiriyyəti tərəfindən faydalı əmək üçün kifayət qədər şərait yaratmağa səy göstərilməsi qeyd olunur.*[38]

*Burada iş saatları da elə hesablanmalıdır ki, məhkumların həftədə ən azı 1 istirahət günü olsun və tədris, onların yenidən islahı üçün zəruri olan digər fəaliyyət növlərinə kifayət qədər vaxtları olsun.*[39]

*Qeyd edilməlidir ki, 2018-ci ildə 10 saylı MTCM-ə 3 dəfə başçəkmə keçirilmiş, əvvəlki başçəkmələr zamanı aşkar edilmiş bir sıra nöqsanların aradan qaldırılması müşahidə edilmişdir.*

Müəssisə rəhbərliyi məlumat vermişdir ki, binada aparılan təmir işləri davam etdirilir, binaya təbii qazın verilməsi ilə bağlı iş aparılır.

Başçəkmə zamanı MPQ üzvləri ilə görüşmək istəyən məhkumlar fərdi qaydada qəbul edilmiş, onlarla konfidensial söhbət aparılmışdır.

Başçəkmənin yekununda müəssisə rəhbərliyinə milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CÇM-lərin Daxili intizam qaydalarına müvafiq şəkildə saxlanma şəraiti və rəftar məsələlərinə dair tövsiyələr verilmişdir.

*Ümumilikdə isə, Müvəkkilin MPM qismində fəaliyyəti çərçivəsində, MPQ-nin üzvləri tərəfindən həyata keçirilən başçəkmələr zamanı aşkar edilmiş nöqsanlar görülmüş preventiv tədbirlər, Müvəkkilin Ədliyyə Nazirliyinə müraciəti nəticəsində həllini tapmış, Penitensiar Xidmət və Tibb Baş İdarəsi tərəfindən əməkdaşlıq və səmərəli yanaşma nümayiş etdirilmişdir.*

*Preventiv tədbirlərin görülməsi ilə bağlı edilmiş müraciətlər BMT-nin Məhbuslarla rəftara dair Əsas Prinsiplərinə, Məhbuslarla Minimal Standart Davranış Qaydalarına, Avropa Penitensiar Qaydalarına və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə və Cəzaçəkmə müəssisələrinin Daxili İntizam qaydalarına əsaslanmışdır. Müraciətlərdə yer almış tövsiyələr məhkumlara saxlanma şəraitinin yaxşılaşdırılması və standartlara uyğunlaşdırılması, sağlamlıq hüquqlarının təmin olunması, onların lazımi tibbi yardım almaq hüquqlarının Avropa Penitensiar Qaydalarına və Cəzaçəkmə müəssisələrində tibbi yardımın etik və təşkilati aspektləri üzrə Avropa Şurası Nazirlər Komitəsinin üzv ölkələrə Tövsiyəsinə (№ R (98) 7) uyğun şəkildə təmin edilməsi ilə bağlı olmuşdur.*

Tövsiyələrin icra vəziyyəti təkrar həyata keçirilən başçəkmələr zamanı yerində yoxlanılmışdır.

---

[38] Avropa Penitensiar Qaydaları, 26-cı qayda;
[39] SMR, 75-ci qayda.

### 2.2.3. Dövlət Təhlükəsizliyi Xidmətinin müəssisələri

***DTX-nin Müvəqqəti saxlama yeri və istintaq təcridxanasına*** Müvəkkilin və onun MPQ-nin üzvlərinin iştirakı ilə başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələrdə məqsəd Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin araşdırılması, müəssisədə saxlanılan şəxslərlə rəftar, qidalanma, sənədləşmənin aparılması, tibbi xidmətin əlçatanlığı və "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olmuşdur. Müəssisədə başçəkmənin effektiv həyata keçirilməsi üçün müvafiq şərait yaradılmışdır.

Başçəkmələr zamanı saxlanma şəraiti, qidalanma, ərzaq təminatı araşdırılmış, bu məqsədlə həmin müəssisənin kameralarına, mətbəx və ərzaq anbarına baxış keçirilmiş, habelə tibbi yardım, gəzinti, telefon danışığı, hüquqi yardım və digər hüquqların təminatı vəziyyəti yoxlanılmışdır.

*Müvəkkilin MPM fəaliyyəti çərçivəsində verilmiş tövsiyələri də nəzərə alınmaqla, müəssisədə əsaslı təmir işləri aparılmış, kameralardakı texniki avadanlıqlar yenilənmiş, işıqlandırma sistemləri təzələri ilə əvəz olunmuş, yataq dəstləri dəyişdirilmişdir.*

*Beynəlxalq təcrübədə və tövsiyələrdə də yer almış bu kimi məsələlər yaşayışın əsas elementləri hesab olunur və hər bir saxlanılan şəxsin ona hüququ var, bu elementlərin təmin olunması isə, bir çox çətinlikllərin qarşısını alır.*[40]

Rəftar məsələlərinin araşdırılması ilə bağlı baxış keçirilmiş kameralarda saxlanılan şəxslərlə təkbətək qaydada görüşlər keçirilmiş, müraciətləri dinlənilmiş, hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, Ombudsmanın səlahiyyətləri və qanunvericiliyin tələbləri izah olunmuşdur.

Qəbul edilmiş şəxslər Müvəqqəti saxlama yeri və istintaq təcridxanasının əməkdaşlarının onlarla rəftarından və müəssisədə saxlanma şəraitindən şikayət etməmiş, keyfiyyətli qida, gəzinti və tibbi xidmətdən razılıqlarını bildirmişlər.

*Qeyd edilməlidir ki, əvvəlki dövrlərdə müəssisədə psixoloq vəzifəsi olmamışdır, tövsiyələrimiz də nəzərə alınmaqla müəssisənin ştat vahidinə aparıcı mütəxəssis kimi psixoloq vəzifəsi əlavə edilmişdir. 2018-ci ildə 305 təqsirləndirilən şəxs psixoloq tərəfindən qəbul olunmuşdur.*

Həyata keçirilmiş başçəkmələrin yekununda müəssisə rəhbərliyi ilə milli və beynəlxalq qanunvericiliyə uyğun şəkildə saxlanma şəraitinin, tibbi

[40] CPT, GR 11, 30

xidmətin və sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi ilə bağlı müzakirələr aparılmış və müvafiq tövsiyələr verilmişdir.[41]

### 2.2.4. Dövlət Miqrasiya Xidmətinin müəssisələri

DMX-nin tabeliyində olan saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi 2 müəssisə var və il ərzində həmin müəssisələrə MPQ-nin üzvləri tərəfindən Fakültativ Protokolun tələbləri əsasında başçəkmələr həyata keçirilmişdir.

***Dövlət Miqrasiya Xidmətinin Bakı Şəhəri Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinə*** əvvəlcədən xəbərdarlıq etmədən başçəkmələr həyata keçirilmişdir.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Ombudsman haqqında Konstitusiya Qanunu əsasında təşkil edilmiş başçəkmədə məqsəddaxil olmuşmüraciətlərin, saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, məcburi və könüllü qaydada saxlanılan şəxslərin daxili intizam Qaydalarına və beynəlxalq standartlara uyğun şəkildə hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olub.

Başçəkmə çərçivəsində saxlanma şəraiti ilə bağlı mərkəzin yataqxana korpuslarına, yaşayış və tibb otaqlarına, müsahibə yerlərinə, yeməkxana, ərzaq anbarı və digər obyektlərə baxışlar keçirilib, habelə tibbi yardımın təşkili, yemək-qidalanma, telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır. Məcburi və könüllü qaydada mərkəzə yerləşdirilmiş şəxslərin hüquqlarının təmini, ailəli, yanında uşağı olan qadınlar, yetkinlik yaşına çatmayanlar, habelə tibbi nəzarətə ehtiyacı olan əcnəbilərə yanaşmalar başçəmələrdə araşdırma predmeti olmuşdur.

Mərkəzə qəbul və təhvil verilmə, tibbi müayinədən keçirilmə, habelə xidmət əməkdaşlarının miqrasiya qanunvericiliyinə uyğun olaraq məcburi və könüllü saxlanılan şəxslərlə rəftar məsələləri araşdırılmış, bu məqsədlə müəssisə daxilində könüllü saxlanılan şəxslər fərdi qaydada dinlənilmiş və qaldırdıqları məsələlər üzrə müraciətləri qəbul olunmuşdur.

Yekunda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə, SPT və CPT standartlarına müvafiq şəkildə saxlanma şəraiti, tibbi xidmət və sənədləşmə və telefon danışıqları ilə bağlı çatışmazlıqların aradan qaldırılması üzrə müvafiq tövsiyələr verilmişdir.

---

[41] http://www.ombudsman.gov.az/az/view/news/1141/dtx-in-muveqqeti-saxlama-yeri-ve-istintaq-tecridxanasina-bashchekme-heyata-kechirilmishdir

***Yevlax Rayon Qanunsuz Miqrantların Saxlanılma Mərkəzinə*** MPQ-nin üzvləri tərəfindən başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələrdə məqsəd müəssisədə saxlanılan şəxslərlə rəftar, saxlanma şəraiti, qidalanma, sənədləşmənin aparılması, tibbi xidmətin əlçatanlığı və Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə, habelə beynəlxalq qanunvericiliyə uyğun şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olmuşdur.

Müəssisədə başçəkmənin həyata keçirilməsi üçün müvafiq şərait yaradılmışdır.

*Başçəkmənin nəticələrinə görə, miqrantlara telefon danışığından istifadə edə bilmələri məqsədilə müvafiq şərait yaradılması üçün telefon danışıq məntəqəsinin təşkil edilməsi, qadın əməkdaşlarının sayının artırılması, müəssisənin ixtisasca həkim və psixoloq olan kadrlarla təmin edilməsi tövsiyə olunmuşdur.*

### 2.2.5. Səhiyyə Nazirliyinin müəssisələri

MPQ-nin üzvləri tərəfindən Səhiyyə Nazirliyinin tabeliyində olan müəssisələrə 2018-ci ildə əvvəlcədən xəbərdarlıq etmədən 29 başçəkmə həyata keçirilmişdir.

Milli qanunvericilik, "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının qanunu, BMT və Avropa Şurası çərçivəsində qəbul edilmiş beynəlxalq standartlar və CPT-nin ümumi məruzələrində yer almış tövsiyələrə əsaslanan başçəkmələrdə məqsəd saxlanılan şəxslərlə rəftar, saxlanma şəraiti, tibbi yardımın vəziyyəti, saxlanmanın qanuniliyini təsdiq edən sənədlərin və əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icra vəziyyətinin araşdırılması olmuşdur.

Başçəkmələr Səhiyyə Nazirliyinin 1 saylı Respublika Psixiatriya Xəstəxanası, o cümlədən Qazax, Şəki, Lənkəran Rayonlararası və Gəncə şəhər Psixiatriya Xəstəxanalarını, Quba Rayonlarası Psixonevroloji Reabilitasiya Mərkəzini, Gəncə şəhər Səhiyyə İdarəsinin Körpələr evini, Gəncə və Lənkəran Rayonlararası Narkoloji Dispanserlərini əhatə etmişdir.

***1 saylı Respublika Psixiatriya Xəstəxanasına*** keçirilən başçəkmə çərçivəsində müəssisənin palata və korpuslarına, görüş yerlərinə, yeməkxanaya və digər obyektlərə baxış keçirilmiş, müəssisədəki saxlanma şəraiti, habelə tibbi yardımın təşkili, qidalanma, içməli su, isti-soyuq su təminatı, sovqat, gəzinti, görüş, telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisənin müvafiq şöbələrində pasiyentlər konfidensial qaydada qəbul olunmuş, hüquqlarının təmin olunma vəziyyəti, qaldırdıqları məsələ-

lər, sənədləşmə yerində araşdırılmış, habelə onların tibbi yardımla bağlı bir sıra müraciətləri yerində təmin edilmişdir. *Fərdi qəbul zamanı pasiyentlər barələrində verilən rəylərdən və məhkəmə icraatından şikayətlənmiş, qaldırdıqları məsələlərlə bağlı hər birinə hüquqi məsləhətlər verilmişdir.*

*Başçəkmə zamanı barələrində məhkəmə tərəfindən tibbi xarakterli məcburi tədbirlər seçilmiş pasiyentlərin olduğu bir neçə palatada sıxlıq müşahidə edilmişdir.*

*Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində əvvəlki tövsiyələri də nəzərə alınmaqla, bu müəssisədə istilik sisteminin normal işlədiyi, digər şöbələrdə şəraitin qənaətbəxş olduğu müşahidə olunmuşdur.*

***Quba Rayonlarası Psixonevroloji Dəstək Mərkəzinə*** keçirilən başçəkmə zamanı saxlanma şəraitinin araşdırılması məqsədilə ümumi əraziyə, şöbələrə, müşahidə otaqlarına, palatalara, istirahət və görüş otaqlarına, mətbəxə, yeməkxanalara, hamama, sanitariya qovşaqlarına, anbarlara və inzibati binaya baxış keçirilmişdir.

*Qeyd edilməlidir ki, müəssisə əsaslı təmirdən sonra 2017-ci ilin əvvəlində yenidən fəaliyyətə başlamışdır. Bu baxımdan müəssisənin infrastruktur vəziyyəti müvafiq tələblərə cavab verir.*

Rəftar məsələlərinin araşdırılması məqsədilə Psixonevroloji Mərkəzdə müalicə olunan pasiyentlərdən bir qrupu təkbətək qəbul edilmiş, onlarla fərdi söhbətlər aparılmışdır.

Pasiyentlərdən saxlanma şəraiti və müəssisə əməkdaşlarının onlara rəftarına dair şikayət daxil olmamışdır.

***Gəncə şəhər Psixiatriya Xəstəxanasına*** *keçirilən baxış zamanı xəstəxananın demək olar ki, yararsız vəziyyətdə olması, şöbələrdə geyim və yataq dəstləri ilə bağlı zəruri təminata ehtiyac duyulduğu müşahidə edilmişdir.*

*Müəssisənin binası ruhi xəstələrin stasionar qaydada saxlanılması üçün uyğun deyildir. Həmin xəstələrin yaxın müəssisələrə köçürülməsi, bu müəssisənin isə ambulator qaydada fəaliyyəti məsələsinə baxılması məqsədəmüvafiq olardı.*

*Ümumilikdə isə, xəstəxana üçün yeni binanın tikintisinin sürətləndirilməsi Səhiyyə Nazirliyinə tövsiyə olunmuşdur.*

***Qazax Rayonlararası Psixiatriya Xəstəxanasına*** MPQ-nin üzvləri tərəfindən Fakültativ Protokolun tələbləri əsasında həyata keçirilmiş başçəkmə zamanı xəstəxananın iki mərtəbəli inzibati binasına, qadın və kişilər üçün palatalara, müəssisənin yeməkxanasına, mətbəxinə, ərzaq anbarına və digər obyektlərinə baxış keçirilmişdir.

*Əvvəlki tövsiyələrimiz nəzərə alınmaqla xəstəxanada mətbəx üçün əlavə otaq tikilərək istifadəyə verilmiş və lazımi inventarlarla təchiz edilmişdir. Eyni zamanda xəstəxananın 1-ci mərtəbəsində ibadət otağının və xəstələr*

*üçün sahəsi təxminən 25 kv.m. olan yeni əlavə palatanın istifadəyə verilməsi üçün hazırlıq işlərinə başlanıldığı müşahidə olunmuşdur.*

*BMT-nin "Psixi xəstələrin müdafiəsi və psixiatriya yardımının yaxşılaşdırılması prinsiplərinə"görə psixiatriya müəssisələrində saxlanılan hər bir pasiyentin dini etiqad azadlığı vardır (13-cü prinsip,2).*

*Bunlarla yanaşı, xəstəxananın camaşırxanasının sanitar normalara uyğun təmiri və yeni paltaryuyan maşınlarla təmin edilməsinə, xəstəxanada görüş otağının bir neçə görüşün eyni zamanda baş tutmasına şərait yarada biləcək şəkildə yenidən təşkil edilməsinə ehtiyac vardır.*

***Şəki Rayonlararası Psixiatriya Xəstəxanasına*** keçirilmiş başçəkmə zamanı müəssisənin binası köhnə olduğundan, saxlama şəraitinin standartlara cavab vermədiyi, otaqların sayı kifayət etmədiyindən palatalarda sıxlığın olduğu, mərkəzi istilik sisteminin olmadığı, ərzaq anbarında isə qida məhsullarının kifayət etmədiyi müşahidə edilmişdir.

Saxlama şəraitinin yaxşılaşdırılması baxımından bu müəssisə üçün tikilməkdə olan yeni binanın inşasının sürətləndirilməsi olduqca zəruridir.

***Lənkəran Rayonlarası Psixiatriya Xəstəxanasına*** keçirilən başçəkmə zamanı saxlanma şəraitinin araşdırılması məqsədilə ümumi palatalara, istirahət və görüş otaqlarına, mətbəxə, yeməkxanalara, hamama, sanitariya qovşaqlarına, anbarlara baxış keçirilmişdir. Rəftar məsələlərinin araşdırılması məqsədilə xəstəxanada müalicə olunan pasiyentlərdən bir qrupu təkbətək qəbul edilmiş, onlarla fərdi söhbətlər aparılmışdır.

Pasiyentlərdən saxlanma şəraiti və müəssisə əməkdaşlarının onlarla rəftarına dair şikayət daxil olmamışdır.

*Beynəlxalq standartlar və İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin psixiatriya müəssisələrində pasiyentlərin saxlanma şəraiti ilə bağlı tələblərinə görə hər bir pasiyentə əlverişli şəxsi yaşayış sahəsi verilməsi zəruridir.*

*Ümumilikdə isə, başçəkmələr zamanı Gəncə, Şəki və Qazax Psixiatriya müəssisələrində saxlanma şəraitinin ruhi xəstələr üçün əlverişli olmadığı, həmçinin dərman preparatlarının və ərzaq təminatının çatışmazlığı müəyyən edilmişdir.*

*Keçirilən başçəkmələr zamanı Səhiyyə Nazirliyinin Psixiatriya Xəstəxanalarında saxlanılan şəxslər üçün ərzaq və dərman preparatları üçün ayrılan vəsaitin də eyni olmadığı, hər dəfə müxtəlif rəqəmlərin səsləndirildiyi qeyd olunmalıdır.*

*Belə ki, sonuncu dəfə günlük ərzaq üçün 3.6 - 5 manat, dərman üçün isə tamamilə az, 0.22 - 0.60 manat civarında olduğu bildirilmişdir ki, bu da mövcud qiymətlərə və ehtiyaclara uyğunlaşdırılmalıdır. Əfsuslar olsun ki, anbarlara baxış zamanı da tələbata uyğun ərzağın, habelə dərman ehtiyatının az olduğu müşahidə edilmişdir.*

*Bu baxımdan bərabər və normalara uyğun təminatın təşkili, günlük normaların vahid bölgü və normativ sənəd əsasında sistemləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması zəruridir.*

Başçəkmələr zamanı aşkar olunmuş və yerində aradan qaldırılması mümkün olan məsələlərlə bağlı milli və beynəlxalq standartlara, BMT-nin "Psixi xəstələrin müdafiəsi və psixiatriya yardımının yaxşılaşdırılması prinsiplərinə", Ruhi xəstələrin saxlanma şəraitinə və onlara qarşı rəftara dair Avropa Minimum Standartlarına əsaslanmaqla hər bir müəssisə rəhbərliyinə tövsiyələr verilmiş, habelə psixiatriya müəssisələrində saxlanılan şəxslərin hüquqlarının qorunması və gələcəkdə onlara qarşı hər hansı pis rəftar hallarının baş verməsinin qarşısının alınması məqsədilə müəssisə rəhbərliyi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

*Qeyd olunmalıdır ki, ruhi-əsəb müəssisələri binalarının yenidən qurulması və ya əsaslı təmir edilməsi, bu müəssisələrdə müalicə olunan xəstələrin tibbi təminatının yaxşılaşdırılması, habelə orada çalışan kadrlarla gücləndirilməsi və onların sosial müdafiəsinin yaxşılaşdırılması məsələlərinə maliyyə təminatının artırılmasına dair təkliflər Milli Məclisdə 2019-cu ilin dövlət büdcəsi müzakirə olunan zaman Ombudsman tərəfindən qaldırılmışdır.*

***Gəncə şəhər Səhiyyə İdarəsinin Körpələr evinə*** 2018-ci ildə MPQ üzvləri tərəfindən 2 başçəkmə həyata keçirilmişdir. Başçəkmə Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında keçirilmişdir.

Başçəkmə zamanı MPQ üzvləri tərəfindən Səhiyyə Nazirliyinin tabeliyində olan Körpələr evinin ərazisinə, yataqxanalar yerləşən korpuslarına, o cümlədən, 3 yaşadək və südəmər qrupa aid körpələrin saxlandığı yataq yerlərinə, oyun zalına, görüş otaqları, əşyaların saxlanılma otağı, camaşırxana və ərzaq anbarına, yeməkxanasına baxış keçirilmiş, təminat məsələləri araşdırılmışdır.

*Başçəkmənin nəticələrinə əsasən müəssisənin korpuslarında şəraitin yaxşılaşdırılmasına, körpələr evinin əsaslı təmiri və yeni inventarlarla təchiz edilməsinə, müvafiq yaşa çatdıqdan sonra körpələr evini tərk etməli olan sağlamlıq imkanları məhdud körpələrin digər müəssisələrdə yerləşdirilməsi işinin effektiv təşkilinə, müəssisənin fəaliyyətini tənzimləyən müvafiq normativ-hüquqi aktlar barədə əməkdaşların məlumatlılığının artırılmasına ehtiyac vardır.*

Başçəkmə çərçivəsində Gəncə Körpələr Evinin əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqları sahəsində

mövcud olan beynəlxalq standartlar, MPQ-nin mandatı barədə məlumat verilmişdir.

Yekunda müəssisə rəhbərliyinə milli və beynəlxalq qanunvericiliyə müvafiq şəkildə saxlanma şəraiti və rəftar məsələlərinə, sənədləşmədə müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılmasına dair tövsiyələr verilmişdir.

***Lənkəran Rayonlararası Narkoloji Xəstəxanasına*** Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində başçəkmə həyata keçirilmişdir.

MPQ-nun üzvləri tərəfindən BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında keçirilmiş başçəkmədə məqsəd müəssisədə saxlanma şəraiti və rəftar məsələlərinin araşdırılması olmuşdur.

Başçəkmə  zamanı müəssisədə palatalara, istirahət və görüş otaqlarına, mətbəxə, yeməkxanalara, hamama, sanitariya qovşaqlarına, anbarlara baxış keçirilmiş, xəstəxanada müalicə olunan pasiyentlər təkbətək qəbul edilmiş, onlarla fərdi söhbətlər aparılmışdır.

Yekunda müəssisə rəhbərliyinə  saxlama şəraitinin təkmilləşdirilməsinə və rəftar məsələlərinə dair tövsiyələr verilmişdir.

***Gəncə Rayonlararası Narkoloji Dispanserinə*** də Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində başçəkmə həyata keçirilmişdir.

MPQ-nin üzvləri tərəfindən BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında keçirilmiş başçəkmə zamanı bu müəssisədə saxlanma şəraitinin təkmilləşdirilməsinə ehtiyac olduğu müəyyən edilmişdir.

*Belə ki, müəssisənin yerləşdiyi binanın köhnə olduğu, palataların, o cümlədən,  inzibati və xidməti otaqların, ərzaq anbarı, saxlanc otağı və s. yararsız vəziyyətə düşdüyü müşahidə olunmuşdur.*

MPQ üzvlərinin həyata keçirdiyi başçəkmənin nəticələrinə əsasən, dispanser üçün yeni binanın tikintisinə, dispanser əməkdaşlarının müəssisənin fəaliyyətini tənzimləyən normativ aktlarla tanış edilməsi, qeydiyyat işinin təkmilləşdirilməsi, xəstələrin qida rasionunda müxtəlifliyin təmin edilməsi tövsiyə edilir.

*Bu baxımdan CPT-nin qapalı müəssisələrdə pasiyentlərin saxlanma şəraiti ilə bağlı müvafiq standartlarına görə qidalanma ən vacib amillərdən*

*biridir. CPT hesab edir ki, qida rasionu keyfiyyət və kəmiyyət baxımından bir-birinə adekvat olmalıdır.*[42]

Başçəkmənin yekununda müəssisə rəhbərliyi və tibb personalına ünvanlanan hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə müvafiq şəkildə saxlanma şəraiti və rəftar məsələlərinə, sənədləşmədə müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılmasına dair tövsiyələr verilmişdir.

Başçəkmələr milli qanunvericilik, "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanunu, o cümlədən beynəlxalq standartlar, "Əqli qüsurlu şəxslərin hüquqları haqqında Bəyannamə", BMT-nin "Psixi xəstələrin müdafiəsi və psixiatriya yardımının yaxşılaşdırılması prinsipləri"[43] və İQA (SPT) qaydaları, İQAK-nın 3-cü Ümumi məruzəsində (İQAK/INF (93) 12, maddə 30-77) təsbit olunmuş tövsiyələr əsasında həyata keçirilmişdir.

*Müvəkkil keçirilmiş başçəkmələrin nəticələri ilə bağlı Səhiyyə Nazirliyinə məktubla müraciət etmişdir. Cavab məktubunda qeyd edilən məsələlərin nəzarətə götürüldüyü və müvafiq tədbirlərin görüldüyü bildirilmişdir.*

*Müvəkkil ümid edir ki, MPM fəaliyyəti çərçivəsində bu qəbildən olan müəssisələrlə bağlı tövsiyələri və müəssisələr üzrə qaldırılan məsələlər səhiyyə sahəsində aparılan islahatlar, tibbi xidmətlərin inkişafına göstərilən təşəbbüslər, tibb müəssisələrinin, xəstəxanalarının əsaslı təmiri və yenidən qurulması, bu müəssisələrin maddi-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər çərçivəsində öz həllini tapacaqdır.*

### 2.2.6. Təhsil Nazirliyinin müəssisələri

MPQ-nin üzvləri tərəfindən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanunu, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası, "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya"sının müddəaları, "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu, İQA (SPT) tövsiyələri, İQK (CPT) standart-ları, BMT-nin Uşaq Hüquqları Komitəsinin tövsiyələri əsasında Təhsil Nazirliyinin tabeliyində olan müəssisələrə əvvəlcədən xəbərdarlıq etmədən 44 başçəkmə həyata keçirilmişdir. Başçəkmələr zamanı beynəlxalq təcrübə nəzərə alınmaqla təhsil müəssisələrində saxlanma şəraiti və rəftar məsələləri, habelə bu sahədə milli və beynəlxalq standartların praktik tətbiqi

---

[42] Стандарты ЕКПП «Существенные» разделы общих докладов ЕКПП.с 62.CPT/Inf/E (2002) 1 – Rev. 2015

[43] BMT Baş Assambleyasının 17 dekabr 1991-ci il tarixli 46/119 saylı qətnaməsi ilə qəbul olunmuşdur.

məsələləri araşdırılmış, əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icra vəziyyəti yoxlanılmışdır.

*Başçəkmələr zamanı bir sıra müəssisələrdə maddi-texniki şəraitin və ümumi vəziyyətin təkmilləşməsi, bəzi müəssisələrdə isə, saxlanma şəraiti və sənədləşmədə çatışmazlıqlar müşahidə edilmişdir.*

MPQ-nin üzvləri tərəfindən ***Mingəçevir şəhər Tam Orta İnter-nat Məktəbinə*** Fakültativ Protokolun tələbləri əsasında keçirilən başçək-mədə məqsəd müəssisədə saxlanma şəraiti və rəftarın qiymətləndirilməsi, uşaqların qidalanması və dərman təchizatı, tibbi xidmət, istilik təchizatı və xüsusi diqqət yetirilməli olan məsələlərin dairəsinin müəyyənləşdirməsindən ibarət olmuşdur. Başçəkmə zamanı müəssisənin yeməkxanasına, ərzaq anbarına, digər otaqlara və müvafiq sənədlərə baxış keçirilmiş, müəssisədə yaşayan uşaqlarla müvafiq söhbət aparılmışdır.

*Məktəbin binasının tam yararsız vəziyyətdə olduğu, uşaqların təhsil və yaşaması üçün uyğun olmadığından əsaslı təmiri zəruridir.*

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında məktəb rəhbərliyinə uşaq hüquqları üzrə məşğələlərin keçirilməsi, əməkdaşların uşaqlarla rəftar məsələlərinin nəzarətdə saxlanılması ilə bağlı tövsiyələr verilmişdir.

***Lerik şəhər V.İbrahimov adına İnteqrasiya Təlimli İnternat Məktəbinə*** keçirilən başçəkmədə məqsəd saxlanma şəraiti və rəftar məsələlərinin araşdırılması olmuş, bu məqsədlə uşaqlar təsadüfi seçim əsasında fərdi qaydada qəbul edilmiş, onlarla müsahibələr aparılmış, habelə müəssisənin yeməkxana, yataqxana və tədris korpusuna baxış keçirilmişdir.

*Bu məktəbin də binası uşaqların təhsili və burada yaşaması üçün uyğun deyildir. Başçəkmə zamanı müəssisənin yeməkxana və yataqxanasının şəraitsizliyi, müvafiq standartlara uyğun olmadığı müşahidə olunmuşdur. İlkin tibbi yardım göstərmək üçün hər hansı bir şərait və sanitar qovşaqlar demək olar ki, yoxdur və müəssisə sanitariya tələblərinə cavab vermir.*

*Müəssisənin əsaslı təmir olunmasına,saxlanma şəraitinin təkmilləşdirilməsinə ehtiyac vardır.*

***Neftçala rayon M.Səfərov adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya*** keçirilən başçəkmə zamanı rəftar məsələlərinin araşdırılması ilə bağlı müəssisədə yaşayan uşaqlarla müvafiq söhbətlər aparılmış, hüquqları izah edilmişdir.

*Bu müəssisədə də saxlanma şəraitinin təkmilləşdirilməsinə ehtiyac olduğu müşahidə olunmuş, hal-hazırda isə müəssisə üçün yeni yataqxananın tikintisinin aparıldığı məlum olmuşdur.*

*Saxlanma şəraitinin təkmilləşdirilməsi üçün tikintinin sürətləndirilməsinə ciddi ehtiyac var.*

***Tovuz rayonu Qovlar şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya*** başçəkmə həyata keçirilmişdir.

*Başçəkmə zamanı məktəbin tibb məntəqəsində zəruri ilkin tibbi yardım üçün şəraitinin və dərman preparatlarının olmadığı, sinif otaqlarının inventarının yenilənməsinə, yataqxananın lazımi avadanlıqla təchiz edilməsinə, yeməkxana və mətbəxin su sisteminin yenilənməsinə, ərzaq anbarının daha əlverişli və soyuducularla təchiz edilmiş yerə köçürülməsinə, köhnə və qismən nasaz avtobusun yeni və iritutumlu, sağlamlıq imkanları məhdud olan uşaqlar üçün şəraiti olan avtobusla əvəz edilməsinə ehtiyac olduğu müşahidə edilmişdir.*

***Quba rayon, R.Kəlbiyev adına Xınalıq Tam Orta İnternat Məktəbinin*** hamam otaqları və sanitariya qovşaqlarında şəraitin get-gedə pisləşdiyi müşahidə olunmuşdur. Müəssisədə yeməkxana və mətbəx uyğunlaşdırılmış otaqlarda yerləşdirilib və tələblərə cavab vermir.

Başçəkmə zamanı ümumi ərazidə, mətbəx və yeməkxanada, sanitariya qovşaqlarında natəmizlik və antisanitariya, mətbəxdə çalışan heyətin də təmizliyə və sanitariya qaydalarına riayət etmədiyi müşahidə olunmuşdur.

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında məktəb rəhbərliyinə uşaq hüquqları üzrə məşğələlərin keçirilməsi, əməkdaşların uşaqlarla rəftar məsələlərinin nəzarətdə saxlanılması ilə bağlı tövsiyələr verilmişdir.

***Quba Xüsusi Peşə Məktəbində*** başçəkmələr zamanı müəssisənin binasının əsaslı təmirinə, saxlanma şəraitinin təkmilləşdirilməsinə, yeni, müasir standartlara cavab verən vəziyyətə gətirilməsinə ehtiyac vardır. Müəssisə rəhbərliyi saxlanma şəraitinin yaxşılaşdırılması və müəssisənin əsaslı təmiri ilə bağlı məsələlərin Təhsil Nazirliyi qarşısında qaldırıldığını bildirmişdir. Sinif, tərbiyə və istirahət otaqlarına, kitabxanaya, mətbəxə, yeməkxanaya, hamama, inzibati otaqlara və ümumi əraziyə baxış keçirilmiş və infrastrukturun uşaqlar üçün uyğun olmadığı müşahidə edilmişdir. Burada uşaqların keyfiyyətli təhsil, asudə vaxtlarının səmərəli təşkili, peşə vərdişlərinə yiyələnmələri üçün imkanlar demək olar ki, çox aşağı səviyyədədir.

Müəssisəyə uşaqların bəziləri məhkəmə qaydasında, bir qismi isə yerli icra hakimiyyəti orqanlarının qərarları əsasında yerləşdirilmişdir. Bu yanaşma özü də çətinliklər yaradır və internata yerləşdirmə qərarı qəbul olunmuş uşaqlar bu müəssisəyə yerləşdiriliblər. İş yeri vahidinin çox olmasına baxmayaraq, ictimai təhlükəli əməli törətmiş uşaqların reabilitasiyası üçün hər hansı bir şərait yoxdur, bu da uşaqlar arasında qanunazidd davranışa meylliliyi artırır. Bu isə ölkəmizin qoşulduğu BMT-nin Uşaq hüquqları Konvensiyasına və BMT-nin Uşaq Hüquqları Komitəsinin yuvenal ədliyyə sahəsində islahatlarla bağlı tövsiyələri ilə ziddiyyət təşkil edir.

*Müəssisənin özü köhnə Nizamnamə əsasında fəaliyyət göstərir və statusunu dəyişdirmək üçün "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamənin" nəzərdən keçirilməsi və müəssisənin yenidən təşkil olunması, habelə uşaqların bura yerləşdirilməsi məsələsinə qanunvericiliyə uyğun şəkildə baxılması məqsədəmüvafiqdir.*

***Goranboy rayonunda yerləşən R.Ağakişiyev adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya*** keçirilən başçəkmə zamanı müəssisənin yeməkxanasına, ərzaq anbarına, digər otaqlara və müvafiq sənədlərə baxış keçirilmiş, müəssisədə yaşayan uşaqlarla müvafiq söhbət aparılmış, onlara hüquqları izah edilmişdir. Şagirdlərlə görüş zamanı saxlanma şəraiti və rəftarla bağlı verilən suallara cavab olaraq şagirdlər tərəfindən narazılıq bildirilməmişdir.

*Lakin baxış zamanı müəssisənin informatika otağında köhnə inventarların və yararsız kompyuterlərin yenilənməsinə, həmçinin gimnaziyanın mətbəxinə qaz xəttinin çəkilməsinə, gimnaziya şagirdlərinin daşınmaları üçün sərnişin avtobusuna, yataqxana üçün yeni yataq dəstləri və müvafiq mebellərin alınmasına ehtiyac olduğu müşahidə olunmuşdur.*

***Gəncə şəhər İdman Litseyinə*** MPQ üzvləri tərəfindən başçəkmələr həyata keçirilmişdir.

Fakültativ Protokolun tələbləri əsasında keçirilmiş başçəkmələrdə məqsəd uşaqlarla rəftar və müəssisədə saxlanma şəraitinin araşdırılması olmuşdur.

*Həyata keçirilən başçəkmənin nəticələrinə əsasən, müəssisənin binasının əsaslı təmir edilməsinə, həmçinin əvvəllər "Futbol Təmayüllü İnternat tipli Gimnaziya" adı ilə fəaliyyət göstərmiş bu litseyin adının və təyinatının dəyişdirildiyini nəzərə alaraq, litseyin fəaliyyətini tənzimləməli olan nizamnamənin qısa zaman ərzində təsdiq edilməsinə ehtiyac olduğu müəyyən edilmişdir.*

***Quba Şəhər Valideyn Himayəsindən Məhrum Olmuş Uşaqlar üçün Tam Orta İnternat Məktəbində*** MPQ-nin üzvləri tərəfindən keçirilmiş başçəkmələr zamanı saxlanma şəraitinin araşdırılması məqsədilə müəssisənin yataq, sinif və tərbiyə otaqlarına, mətbəxə, hamamxana və inzibati otaqlara, eləcə də ümumi əraziyə baxış keçirilmiş, saxlanma şəraiti və müəssisədəki uşaqlarla rəftar, onların təhsil alması və asudə vaxtlarının təşkili məsələsi araşdırılmışdır.

Başçəkmələr çərçivəsində müəssisədə saxlanılan uşaqların bir qismi ilə təkbətək söhbətlər aparılmış, müəssisə əməkdaşlarının onlarla rəftarı, təminatları və şəraitləri araşdırılmışdır. Uşaqlar müəssisə əməkdaşlarının onlara qarşı rəftarından şikayət etməmişlər.

***Gəncə şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya*** MPQ üzvləri tərəfindən başçəkmələr həyata keçirilmişdir.

Başçəkmə zamanı intemat məktəbinin 3 mərtəbədən ibarət yataqxanasında hazırda təmir işlərinin aparıldığı, yeməkxana və mətbəxin bütün zəruri avadanlıqla təchiz edildiyi müşahidə olunmuşdur. Həmçinin inzibati otaqlar və sinif otaqlarının yerləşdiyi binaya, həkim otağına, tibb məntəqəsinə, psixoloq otağına, texnologiya otağına, kompyuter otağına, kitabxanaya baxış keçirilmiş, otaqların yeni mebellərlə və zəruri ləvazimatlarla təchiz edildiyi müşahidə edilmişdir.

Gimnaziyada istilik sistemləri xəttləri tam çəkilib başa çatmışdır və binalar təbii qazla qızdırılır.

Başçəkmə zamanı məktəb şəraitinin təkmilləşdirilməsi, dərslərdə uşaq hüquqları ilə bağlı məşğələlərin keçirilməsi məktəb rəhbərinə tövsiyyə edilmiş və uşaq hüquqları ilə bağlı nəşrlər təqdim edilmişdir.

***Siyəzən şəhər ümumi orta internat məktəbinə*** keçirilən başçəkmədə məqsəd müəssisədə saxlanma şəraiti və rəftarın qiymətləndirilməsi, uşaqların qidalanması, dərman təchizatı, tibbi xidmət, istilik təchizatı və və s. məsələlərin araşdırılması olmuşdur.

Başçəkmə zamanı müəssisənin yeməkxanasına, ərzaq anbarına, sinif otaqlarına və müvafiq sənədlərə baxış keçirilmiş, müəssisədə yaşayan uşaqlarla müvafiq söhbət aparılmışdır.

Söhbət zamanı uşaqlar müəssisə əməkdaşlarının onlara qarşı rəftarından şikayət etməmişlər.

***Şəki şəhər İnteqrasiya Təlimli İnternat tipli Gimnaziyaya*** keçirilən başçəkmədə məqsəd saxlanma şəraiti və rəftar məsələlərinin araşdırılması olmuş, bu məqsədlə uşaqlar təsadüfi seçim əsasında fərdi qaydada qəbul edilmiş, onlarla müsahibələr aparılmışdır.

*2014-cü ildən bu gimnaziyanın binasının əsaslı təmirinə başlanılmış, lakin təmir işləri başa çatdırılmadığından, hazırda Şəki Qarışıq Tipli Uşaq Evinin keçmiş binasında fəaliyyət göstərir və saxlanma şəraitinin yaxşılaşdırılmasına ehtiyac vardır.*

Başçəkmə zamanı MPQ üzvləri tərəfindən həmçinin mətbəxə, ərzaq anbarına, yataq otaqlarına, siniflərə baxış keçirilmiş, şagirdlərlə uşaqların hüquq və azadlıqları, həmçinin vəzifələri mövzusunda maarifləndirici söhbət aparılmışdır.

***Salyan şəhər A.Səfərov adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya*** keçirilən başçəkmə zamanı müəssisənin yataq və sinif otaqlarına, mətbəxə, eləcə də ümumi əraziyə baxış keçirilmiş, saxlanma şəraiti, müəssisədəki uşaqlarla rəftar və müvafiq sənədləşmənin aparılması vəziyyəti öyrənilmişdir.

Başçəkmələr çərçivəsində müəssisədə saxlanılan uşaqların bir qismi ilə təkbətək söhbətlər aparılmış, müəssisə əməkdaşlarının onlarla rəftarı, təminatları və şəraitləri araşdırılmışdır.

Başçəkmə zamanı MPQ üzvləri tərəfindən həmçinin mətbəxə, ərzaq anbarına, yataq otaqlarına, siniflərə baxış keçirilmiş, şagirdlərlə uşaqların hüquq və azadlıqları, həmçinin vəzifələri mövzusunda maarifləndirici söhbət aparılmışdır.

***Zaqatala rayon İnteqrasiya Təlimli İnternat tipli Gimnaziyaya*** keçirilən başçəkmədə məqsəd saxlanma şəraiti və rəftar məsələlərinin araşdırılması olmuşdur.

Başçəkmə zamanı MPQ üzvləri tərəfindən mətbəxə, ərzaq anbarına, yataq otaqlarına, siniflərə baxış keçirilmiş, şagirdlərlə uşaqların hüquq və azadlıqları, həmçinin vəzifələri mövzusunda maarifləndirici söhbət aparılmışdır.

Gimnaziya daimi su və istiliklə təmin edilmişdir.

Başçəkmə zamanı gimnaziyada cari təmir işlərinin aparıldığı müşahidə edilmişdir.

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında müəssisələrin rəhbərliyi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqlarının həyata keçirilməsi və təmininə diqqətin artırılması və bu sahədə fəaliyyətlərinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

***Balakən rayon İnteqrasiya Təlimli İnternat tipli Gimnaziyaya*** keçirilən başçəkmə zamanı müəssisənin yataq və sinif otaqlarına, mətbəxə, eləcə də ümumi əraziyə baxış keçirilmiş, saxlanma şəraiti, müəssisədəki uşaqlarla rəftar və müvafiq sənədləşmənin aparılması vəziyyəti öyrənilmişdir.

Bu müəssisə əsaslı təmirdən sonra 15.09.2016-cı ildən istifadəyə verilmişdir. Gimnaziyada həkim-pediatr ştatı olmasına baxmayaraq uzun müddətdir ki, bu ştat vakansiyadadır. Gimnaziyanın direktorunun bildirdiyinə görə həmin vəzifəyə həkim-pediatr təyin edilməsi üçün bir neçə dəfə Balakən Rayon Mərkəzi Xəstəxanasına müraciət etməsinə baxmayaraq indiyədək bu məsələ öz həllini tapmamışdır.

Başçəkmə zamanı sanitar qovşaqlarından bir neçəsinin işlək vəziyyətdə olmadığı müşahidə edilmişdir.

Başçəkmələrin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında müəssisələrin rəhbərliyi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqlarının həyata keçirilməsi və təmininə diqqətin artırılması və bu sahədə fəaliyyətlərinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

*Keçirilmiş başçəkmələrin nəticələri və müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması Müvəkkil tərəfindən Təhsil Nazirliyi qarşısında qaldırılmışdır. Təhsil Nazirliyindən verilmiş cavab məktubunda, nöqsanların*

*aradan qaldırılması ilə bağlı müvafiq tədbirlərin görüldüyü və qeyd edilən məsələlərin nəzarətə götürülərək aradan qaldırılması istiqamətində müvafiq addımların atılacağı bildirilmişdir.*

### 2.2.7. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələri

2018-ci ildə Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında MPQ-nin üzvləri tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələrinə əvvəlcədən xəbərdarlıq etmədən 7 başçəkmə həyata keçirilmişdir.

Başçəkmələr milli qanunvericilik, "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanunu, o cümlədən beynəlxalq standartlar, BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyası", "Əqli qüsurlu şəxslərin hüquqları haqqında Bəyannamə", "Psixi xəstə şəxslərin müdafiəsi və psixiatrik yardımın yaxşılaşdırılması Prinsipləri", BMT-nin ahıl şəxslərə dair Prinsipləri, BMT Baş Assambleyasının Əhalinin qocalması problemləri üzrə Beynəlxalq Fəaliyyət Planı üzrə tövsiyələri, CPT və SPT qaydaları əsasında həyata keçirilmişdir.

***2 saylı Sosial Xidmət Müəssisəsinə*** Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində MPQ üzvləri tərəfindən başçəkmə həyata keçirilmişdir.

*Başçəkmədə MPQ üzvləri ilə yanaşı UNICEF-in Azərbaycandakı nümayəndəliyinin əməkdaşları və sosial iş sahəsində mütəxəssis də iştirak etmişdir.*

Başçəkmədə məqsəd bu müəssisədə yaşayan, abilitasiya[44] və reabilitasiyaya cəlb olunmuş uşaqların saxlanma şəraitinin və müəssisə əməkdaşlarının onlarla rəftarı məsələlərinin, habelə uşaqların hüquqlarının təmin olunması vəziyyətinin araşdırılması olmuşdur. Rəftar məsələlərinin araşdırılması məqsədilə bu təhsil müəssisələrində yaşayan uşaqlara yanaşmalar, habelə müəssisə rəhbərliyi, müəllimlər və tibb işçiləri ilə fərdi və hüquqi maarifləndirici söhbətlər əsasında mövcud vəziyyət öyrənilmişdir.

5 yaşından 18 yaşa qədər sağlamlıq imkanları məhdud uşaqlar üçün nəzərdə tutulmuş müəssisənin ümumi limiti 170 nəfər, başçəkmə gününə isə, siyahı üzrə faktiki 140 nəfər olmuşdur.

Başçəkmə zamanı müəssisənin bütün obyektlərinə, o cümlədən yataq, dərs və reabilitasiya otaqlarına, yeməkxanaya və mətbəxə, asudə vaxtının

[44] Abilitasiya - əlilliyi olan şəxsin mövcud potensialını maksimum inkişaf etdirməklə onun sərbəst yaşamaq imkanlarının artırılmasıdır.

təşkili üçün nəzərdə tutulmuş otaqlara, o cümlədən rəsm, musiqi otaqlarına, habelə idman zalına baxış keçirilmişdir. Buradakı uşaqlarla görüş zamanı onlar şəraitdən, qidalanmadan, müəssisə əməkdaşlarının onlarla rəftarından razılıq etmişlər. Müəssisədə tibb xidmətinin təşkili üçün müasir tələblərə cavab verən və təmir olunmuş həkim otağı, izolyasiya otağı və prosedur otağının ayrıldığı müşahidə olunmuşdur. Tibb personalı gecə növbəsi də daxil olmaqla növbəli iş qrafiki ilə işləyirlər. Onlar gecə növbəsində ehtiyac olduğu təqdirdə təcili tibbi yardım stansiyasından həkim briqadası çağrıldığını bildirmişlər. Qeyd etmək lazımdır ki, tibb bölməsi üçün ayrılan otaqlar lazımi inventarlar və bir sıra müasir diaqnostik və fizioterapevtik tibbi avadanlıqlarla təchiz olunmuşdur. Həkimlərlə söhbət zamanı müəssisənin dərman təchizatında da çətinlik olmadığını bildirmişlər.

*Qeyd olunmalıdır ki, Müvəkkilin MPM fəaliyyəti çərçivəsində verdiyi tövsiyələri də nəzərə alınmaqla əsaslı təmir olunaraq zəruri müasir avadanlıqlarla təchiz edilmiş müəssisənin standartlara uyğun olduğu, saxlanma şəraiti, qidalanma, ərzaq təminatı, tibbi yardım, gəzinti və digər hüquqların təmin olunması vəziyyəti, habelə uşaqlarla rəftar məsələləri qənaətbəxş qiymətləndirilmişdir.*

Başçəkmənin sonunda internat evinin rəhbərinə Milli Preventiv Qrupun üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları haqqında və Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyaları əsasında müzakirələr aparılmaqla, müvafiq tövsiyələr verilmişdir.

***Göygöl rayon 3 saylı Psixonevroloji Sosial Xidmət Müəssisəsinə*** MPQ üzvləri tərəfindən başçəkmələr həyata keçirilmişdir.

Müəssisədə əsasən şizofreniya, oliqofreniya, daun sindromu kimi xəstəliklərdən əziyyət çəkən şəxslər saxlanılır. Başçəkmə zamanı MPQ-nin üzvləri müəssisənin müalicə və yataq otaqlarına, yeməkxana və mətbəxinə, ümumi əraziyə baxış keçirmiş, fiziki imkanları məhdud olan uşaqlar, əlilliyi olan şəxslərlə görüşmüşlər. Söhbət aparılan şəxslər onlarla rəftar məsələlərindən narazılıq etməmişlər.

Başçəkmələr zamanı müəssisənin müvafiq qeydiyyat jurnalları, həmçinin saxlanılan şəxslərin sənədləri və təyinatları da öyrənilmişdir.

Müəssisədəki saxlanılma limiti 135 nəfərdir (çarpayı sayı 135), hazırda Gəncə şəhər Pensiyaçıların Ərazi Sosial Xidməti Mərkəzində təmir işlərinin aparılması səbəbindən həmin müəssisənin 37 nəfər sakini və Şamaxı 2 saylı Psixonevroloji Sosial Xidmət Müəssisəsinin 9 nəfər sakini müəssisədə saxlanıldığından, saxlanılanların sayı 133 nəfər təşkil edir və 18 yaşından, 77 yaşadək saxlanılanların hamısı qadındır. Əlavə saxlanılan xəstələrin hamısı çarpayı ilə təmin edilib. Saxlanılanlardan yetkinlik yaşına çatmayanı yoxdur. Müəssisədə əsasən şizofreniya, oliqofreniya, daun sindromu, sereb-

ral iflic, yüngül dərəcəli ağıl zəifliyi, henqinkton xəstəliyi, əqli inkişaf geriliyi və s. xəstəliklərdən əziyyət çəkən şəxslər saxlanılır.

Müəssisənin bütün ərzaqlarını hər ayda iki dəfə olmaqla Ərzaq Məhsullarının Tədarükü və Təchizatı ASC tərəfindən təmin edilir.

Müəssisə 1 korpusdan, 4 mərtəbədən, yardımçı təsərrüfat binasından, camaşırxana binasından ibarətdir, binanın 2-ci mərtəbəsində inzibati heyət fəaliyyət göstərir. Müəssisə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 25.02.2015-ci il tarixli qərarı ilə təsdiq edilmiş ƏƏSMN yanında Dövlət Sosial Müdafiə Fondunun 3 Psixonevroloji Sosial Xidmət müəssisələrinin nizamnaməsi əsasında fəaliyyət göstərir.

Müəssisənin birinci mərtəbəsində yeməkxana, saxlanc anbarları, mətbəx, camaşırxana və həmin mərtəbədə binanın digər hissəsində xəstələr üçün palatanın yerləşməsi müəyyən edilmişdir.

İkinci mərtəbə inzibati heyət üçün nəzərdə tutulmuş xidməti otaqlardan, xəstələrin asudə vaxtlarının səmərəli təşkili üçün tikiş otağı, toxuculuq otağı, rəsm otağı, musiqi otağı, ingilis dili kursu otağı, gözəllik otağı, əmək otağı, kitabxana otağı, kompyuter otağından (12 ədəd kompyuter mövcuddur) ibarət olması və buradakı otaqların və koridorun təmirinin normal vəziyyətdə olması müşahidə edilmişdir.

Müəssisənin xəstələr üçün palatalar yerləşən dördüncü mərtəbəsi ilə tanışlıq zamanı buradakı vəziyyətin, palataların və koridorun vəziyyətinin normal olması, palataların radiatorla isidilməsi, həmin mərtəbədə ağır xəstələrin saxlanılması müşahidə edilmişdir.

Müəssisənin yardımçı təsərrüfat binasında camaşırxana ilə yanaşı yay ayları üçün nəzərdə tutulan hamam və soyunma otağının təmir işlərinin davam etdirildiyi müşahidə edilmişdir. Başçəkmə zamanı müəssisənin müvafiq qeydiyyat jurnallarına - Psixonevroloji Sosial Təminat Müəssisəsinin Əmr kitablarına, Sakinlərin qohumları və yaxınları ilə görüşlərinin qeydiyyatı jurnalına, Müəssisənin Sanitar jurnalına, Qonaqlar və sakinlər üçün şikayət və təkliflər kitabına baxış zamanı, həmçinin saxlanılan şəxslərin şəxsi işləri ilə tanışlıq zamanı müvafiq qeydlərin aparıldığı müşahidə edilmişdir.

*Başçəkmənin nəticələrinə əsasən müəssisə binasının uzun müddətli istifadə nəticəsində aşındığından, əksər divarlarda olan suvaq qatının tökülməkdə olduğundan müəssisənin ümumilikdə əsaslı təmirə ehtiyacı olması, müəssisədəki dörd mərtəbəli binanın yuxarı mərtəbələrinə qaldırılmalı olan xəstələr üçün çətinlik yaratdığından qaldırıcı liftin təmirə ehtiyacı olması, müəssisədə stomatoloji xidmət göstərilməsi üçün stomatoloji kabinet və həkimə ehtiyac olması, gündəlik dərman təminatı üçün nəzərdə tutulmuş*

*vəsaitin xəstələrin keyfiyyətli dərman təminatı üçün kifayət etmədiyindən həmin məbləğin artırılmasına ehtiyac olması müəyyən edilmişdir.*

***Gəncə Şəhər Pensiyaçıların Ərazi Sosial Xidməti Mərkəzinə*** Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində MPQ-nin üzvləri tərəfindən Fakültativ Protokolun tələbləri əsasında başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı MPQ-nin üzvləri tərəfindən müəssisənin yataq otaqlarına, yeməkxana və mətbəxinə, ümumi əraziyə baxış keçirilmiş, yaşlı, fiziki imkanları məhdud və əlilliyi olan şəxslər fərdi şəkildə qəbul edilmişlər.

Sosial xidmət müəssisəsinin sakinləri saxlanma şəraitindən, müəssisə əməkdaşlarının onlara qarşı rəftarından şikayət etməmişlər.

Həyata keçirilmiş başçəkmələrin yekununda saxlanma şəraitinin təkmilləşdirilməsi məqsəsilə aparılan işlər çərçivəsində müəssisələrin rəhbərliyinə beynəlxalq standartlara əsaslanan, habelə BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyası" və "Əhalinin qocalması problemləri üzrə Beynəlxalq Fəaliyyət Planı" əsasında müvafiq tövsiyələr verilmişdir.

### 2.2.8. Yerli icra hakimiyyəti orqanlarının müəssisələri

MPQ-nin üzvləri tərəfindən Fakültativ Protokolun tələbləri əsasında Bakı şəhərində və respublikanın regionlarında, yerli icra hakimiyyəti orqanlarının tabeliyində olan və MPM-in yurisdiksiyasında olan müəssisələrə planlı və plandankənar olmaqla 14 başçəkmə həyata keçirilmişdir.

***Bakı Şəhər İcra Hakimiyyətinin 1 saylı Uşaq evinə*** Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında MPQ-nin üzvləri tərəfindən başçəkmələr həyata keçirilmişdir.

Başçəkmədə məqsəd bu müəssisədə yaşayan uşaqların saxlanma şəraitinin və müəssisə əməkdaşlarının onlarla rəftarı məsələlərinin, habelə uşaq hüquqlarının təmin olunması vəziyyətinin araşdırılması olmuşdur.

Söhbət zamanı məlum olmuşdur ki, müəssisənin ümumi limiti 110 nəfər üçün nəzərdə tutulmuş, faktiki 14 dekabr 2018-ci il tarixə orada 101 nəfər saxlanılır.

Başçəkmə zamanı müəssisənin bütün obyektlərinə, o cümlədən yataq, dərs, tibb otaqlarına, asudə vaxtının təşkili üçün nəzərdə tutulmuş otaqlara, o cümlədən rəsm, musiqi otaqlarına, habelə idman zalına, yeməkxanaya və

mətbəxə, ərzaq anbarına baxış keçirilmiş, saxlanılan qidaların istehsal və istifadə müddəti yoxlanılmışdır.

3 tərbiyəçi-müəllimə ilə söhbət aparılmış, onların uşaqlara münasibəti araşdırılmışdır.

Uşaqlarla aparılan konfidensial söhbət zamanı onların hər biri ayrı-ayrılıqda şəraitdən, rəftardan və qidalanmadan heç bir narazılıqlarının olmadığını bildirmişlər. Müəssisədə uşaqlara göstərilən tibbi xidmətin vəziyyəti ilə tanış olarkən məlum olmuşdur ki, tibb xidmətinin təşkili üçün burada 1 həkim-pediatr, 4 tibb bacısı fəaliyyət göstərir.

Araşdırma zamanı uşaqların hərtərəfli tibbi müayinə və müalicəsi üçün ehtiyac olduğu təqdirdə yaxınlıqdakı poliklinika və özəl tibb müəssisələrinin fəaliyyətindən istifadə edildiyi məlum olmuşdur.

*Qeyd olunmalıdır ki, zəruri avadanlıqlarla təchiz edilmiş bu müəssisədəki şərait və uşaqlarla rəftar məsələləri qənaətbəxş qiymətləndirilmişdir.*

Başçəkmələrin yekununda MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, BMT-nin Uşaq Hüquqları Komitəsinin tövsiyələri, o cümlədən Uşaq Hüquqları Konvensiyası əsasında uşaqlarla, müəssisə rəhbərliyi ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqlarının həyata keçirilməsi və təmininə diqqətin artırılması, bu sahədə fəaliyyətlərinin və sənədləşmənin təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

***Bakı Şəhər İcra Hakimiyyətinin 2 saylı Uşaq evinə*** Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında MPQ-nin üzvləri tərəfindən başçəkmələr həyata keçirilmişdir.

Başçəkmədə məqsəd bu müəssisədə yaşayan uşaqların saxlanma şəraitinin və müəssisə əməkdaşlarının onlarla rəftarı məsələlərinin, habelə uşaq hüquqlarının təmin olunması vəziyyətinin araşdırılması olmuşdur.

Məlum olmuşdur ki, müəssisə 2000-ci ildən fəaliyyət göstərir, ümumi limiti 300 nəfər üçün nəzərdə tutulmuş, faktiki 14 dekabr 2018-ci il tarixə orada 274 nəfər saxlanılır. Bunlardan 140 nəfəri müəssisədə yaradılmış "Günərzi" Qayğı Mərkəzi qruplarına aid, 134 nəfər isə müəssisədə daimi yaşayan uşaqlardır. 3-13 yaşlı uşaqları əhatə edən "Günərzi" Qayğı Mərkəzi qruplarındakı uşaqlar 8:00-dan 20:00-a qədər müəssisədə olurlar və bu müddət ərzində müəssisədə yaşayan digər uşaqlarla bərabər hüquqlara malikdirlər.

Müəssisədə 3 məktəbəqədər qrup fəaliyyət göstərir və hər qrupa 2 tərbiyəçi müəllim, 2 dayə nəzarət edir.

Müəssisədə təqdim olunmuş məlumata əsasən, 3 yaşından 16 yaşa qədər olan uşaqlar üçün nəzərdə tutulan bu müəssisədə 16 yaşı tamam olan uşaqları valideynləri və ya qanuni nümayəndələri götürür, digər hallarda isə, uşaqlar Masazırda yeni istifadəyə verilmiş məzun evində qeydiyyata düşür və yaşayış üçün lazımi şəraitlə təmin edilirlər. 5 uşağın valideyninin cəzaçəkmə müəssisəsində cəza çəkdiyi, onların valideynləri ilə qısamüddətli görüşlərində çətinlik olmadığı müəyyən edilmişdir.

Başçəkmə zamanı müəssisənin bütün obyektlərinə, o cümlədən yataq, dərs, tibb otaqlarına, asudə vaxtının təşkili üçün nəzərdə tutulmuş otaqlara, o cümlədən rəsm, musiqi otaqlarına, habelə idman zalına, yeməkxanaya və mətbəxə, ərzaq anbarına baxış keçirilmiş, saxlanılan qidaların istehsal və istifadə müddəti yoxlanılmışdır.

Uşaqlarla aparılan konfidensial söhbət zamanı onların hər biri ayrı-ayrılıqda şəraitdən, rəftardan və qidalanmadan heç bir narazılıqlarının olmadığını bildirmişlər.

*Müəssisədə saxlanma şəraiti yaxşılaşdırılmış, zəruri avadanlıqlarla təchiz edilmişdir. Müəssisədəki şərait, qidalanma və uşaqlarla rəftar məsələləri, onların asudə vaxtlarının səmərəli təşili vəziyyəti qənaətbəxş qiymətləndirilmişdir.*

Başçəkmələrin yekununda MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, BMT-nin Uşaq Hüquqları Komitəsinin tövsiyələri, o cümlədən Uşaq Hüquqları Konvensiyası əsasında uşaqlarla, müəssisə rəhbərliyi ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqlarının həyata keçirilməsi və təmininə diqqətin artırılması, bu sahədə fəaliyyətlərinin və sənədləşmənin təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun (MPQ) üzvləri tərəfindən ***Bakı Şəhər İcra Hakimiyyətinin 3 saylı Uşaq evinə*** əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.

Müəssisənin ümumi limiti 95 nəfər üçün nəzərdə tutulmuş, faktiki 14 dekabr 2018-ci il tarixə orada 91 nəfər yaşayır, hər birində 20-25 uşaq olmaqla 4 qrup fəaliyyət göstərir və hər qrupla 2 tərbiyəçi müəllim və 2 dayə çalışır.

Valideynləri cəzaçəkmə müəssisəsində olan uşaqların onlarla qısamüddətli görüşlərində çətinlik olmadığı bildirilmişdir.

Başçəkmə zamanı müəssisənin bütün obyektlərinə, o cümlədən yataq, dərs, tibb otaqlarına, asudə vaxtın təşkili üçün nəzərdə tutulmuş otaqlara, o cümlədən rəsm, musiqi otaqlarına, habelə idman zalına, yeməkxanaya və

mətbəxə, ərzaq anbarına baxış keçirilmiş, saxlanılan qidaların yararlılığı yoxlanılmışdır.

Müəssisədə uşaqlara göstərilən tibbi xidmətin vəziyyəti ilə tanış olarkən məlum olmuşdur ki, tibb xidmətinin təşkili üçün burada 1 həkim-pediatr və 4 tibb bacısı fəaliyyət göstərir. Tibb bacılarının işi növbəli iş qrafiki əsasında qurulub ki, bu da müəssisədə daimi tibbi nəzarətin olması deməkdir. Araşdırma zamanı məlum olmuşdur ki, uşaqların hərtərəfli tibbi müayinə və müalicəsi üçün ehtiyac olduğu təqdirdə yaxınlıqdakı poliklinika və özəl tibb müəssisələrinin imkanlarından istifadə edilir. Stomatoloji yardım üçün mobil stomatoloji kabinetin fəaliyyətindən də istifadə edildiyi bildirilmişdir.

*Qeyd olunmalıdır ki, əsaslı təmir olunaraq zəruri avadanlıqlarla təchiz edilmiş müəssisənin standartlara uyğun olduğu müəyyən olunmuş, saxlanma şəraiti, qidalanma, ərzaq təminatı, tibbi yardım, gəzinti və digər hüquqların təmin olunması vəziyyəti, habelə uşaqlarla rəftar məsələləri qənaətbəxş qiymətləndirilmişdir.*

*Monitorinqlər, habelə müəssisə rəhbərliyi və əməkdaşlarla aparılan söhbət zamanı tərbiyəçi və tərbiyəçi köməkçilərinin sayının saxlanılan uşaqların sayına adekvat olmadığı, buna görə müəssisə üçün sosial işçi və psixoloqlarla bağlı əlavə ştatların, o cümlədən loqoped ştatının ayrılmasına ehtiyac olduğu müşahidə edilmişdir.*

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq Hüquqları Konvensiyası əsasında uşaqlarla, müəssisə rəhbərliyi ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqlarının həyata keçirilməsi və təmininə diqqətin artırılması və bu sahədə fəaliyyətlərinin və sənədləşmənin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

***Gəncə şəhər Uşaq Evinə*** MPQ-nin üzvləri tərəfindən planlı və plandankənar başçəkmələr həyata keçirilmişdir. Başçəkmə zamanı uşaq evində yaşayan və məktəb yaşında olan uşaqların saxlanma şəraiti, onlarla rəftar məsələləri araşdırılmışdır.

Baxış zamanı, uşaq evinin yataqxanalarının, psixoloq otağının, rəssamlıq dərnəyinin, kompyuter otağının, mətbəxin, yeməkxananın, anbarın və ümumilikdə müəssisənin təmiz və səliqəli, şəraitin normal olduğu müşahidə edilmişdir.

Başçəkmələr zamanı həmin müəssisənin bütün obyektlərinə baxışlar keçirilmiş, mövcud şərait, saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə aparılan işlər, uşaqların dərs ləvazimatı ilə təminatı məsələləri araşdırılmışdır.

Müəssisə əməkdaşları ilə görüş zamanı onlara uşaqlarla rəftar məsələlərində, milli və beynəlxalq qanunvericiliyin tələbləri əsasında uşaq hüquqla-

rının, təhsil, sağlamlıq, asudə vaxtlarının səmərəli təşkilin effektiv təmini ilə bağlı hüquqi məlumatlar və tövsiyələr verilmişdir.

***Şəki Qarışıq Tipli Uşaq Evində*** MPQ-nin üzvləri tərəfindən başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələr milli qanunvericilik, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanunu, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu, o cümlədən BMT-nin Uşaq Hüquqları Konvensiyası, SPT tövsiyələri, CPT standartları və BMT-nin Uşaq Hüquqları Komitəsinin tövsiyələri əsasında həyata keçirilmişdir.

Başçəkmələr zamanı bu müəssisədə yaşayan uşaqlar konfidensial qaydada qəbul edilmiş və müəssisə əməkdaşlarının onlarla rəftarı məsələləri araşdırılmış, habelə müəssisə əməkdaşları ilə müsahibələr aparılmışdır.

Uşaq evinin binası tövsiyələrimiz də nəzərə alınmaqla yenidən inşa olunmuş, saxlama şəraiti xeyli təkmilləşdirilmiş və müasir standartlara uyğunlaşdırılmışdır.

Başçəkmənin sonunda Müvəkkilin MPQ-u tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında müəssisə rəhbərliyi ilə hüquqi maarifləndirici müzakirələr və rəftar məsələləri üzrə söhbətlər aparılmışdır.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Lənkəran şəhər O.Mirzəyev adına qarışıq tipli uşaq evinə*** əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı müəssisənin bütün obyektlərinə, o cümlədən yataq, dərs, tibb otaqlarına, asudə vaxtın təşkili üçün nəzərdə tutulmuş otaqlara, o cümlədən rəsm, musiqi otaqlarına, habelə idman zalına, yeməkxanaya və mətbəxə, ərzaq anbarına baxış keçirilmiş, saxlanılan qidaların yararlılığı yoxlanılmışdır.

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq Hüquqları Konvensiyası əsasında uşaqlarla, müəssisə rəhbərliyi ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqlarının həyata keçirilməsi və təmininə diqqətin artırılması və bu sahədə fəaliyyətlərinin və sənədləşmənin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

# BÖLMƏ 3.

# HÜQUQİ TƏHLİL

Müvəkkilin MPM fəaliyyəti çərçivəsində əsas fəaliyyət istiqamətlərindən biri də Milli Preventiv Qrupun preventiv başçəkmələri və hüquqi maarifləndirmə tədbirləri zamanı əldə olunmuş məlumatların hüquqi təhlilidir.

Hüquqi təhlil prosesində həyata keçirilən fəaliyyət, eləcə də bu fəaliyyətlə əlaqədar toplanmış məlumatlar, habelə alınmış tövsiyələrin, mövcud, yaxud layihədə olan qanunvericilik aktlarının nəzəri-təcrübi təhlili, əldə olunmuş nəticələrin ümumiləşdirilməsi aparılır.

FP-nin 19-cu maddəsində MPM-in hüquqi təhlil və qüvvədə olan qanunvericilik və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi hüququ birbaşa təsbit olunmuşdur.

2018-ci ildə də hüquqi təhlil işinin səmərəli təşkil olunması Müvəkkilin MPM fəaliyyəti çərçivəsində qarşısında duran əsas məsələlərdən biri olmuşdur. Ötən illərdə olduğu kimi işgəncələrin qarşısının alınmasının təmin olunması məqsədi ilə həyata keçirilmiş fəaliyyətin nəticələri və mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələr işlənib hazırlanmışdır.

Başçəkmələr zamanı şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə saxlanılan şəxslərin qəbulu və Müvəkkilə ünvanlanmış şikayətlərlə yanaşı, Ombudsmanın İşgəncələrlə bağlı 24 saat fəaliyyət göstərən Qaynar Xəttinə daxil olmuş müraciətlərin təhlili də bu fəaliyyət üçün əsas mənbələrdən olmuşdur.

***Şəxsin cəmiyyətdən təcrid edilməməsi ilə bağlı alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi.*** Alternativ cəza və prossesual məcburiyyət tədbirlərinin tətbiqi cəza siyasətinin liberallaşması baxımından mühüm əhəmiyyət kəsb etməklə, Müvəkkilin əvvəlki illərdə istər illik məruzələrində, istərsə də MPM fəaliyyəti ilə bağlı hesabatlarında bu məsələ qaldırılmışdır.

Müvəkkil bu sahədə həyata keçirilən islahatları, yeni yanaşmaları izləyir və dəstəkləyir.

Bu gün qloballaşan dünyada insanın həyat və sağlamlığı, dövlət quruluşunun əsaslarına yönəlməyən, iqtisadi və mülkiyyət hüquqlarının pozulmasına səbəb olan hüquq pozuntuları cinayət hüququnun təsir orbitindən çıxaraq, mülki və inzibati hüququn təsir və tənzim dairəsinə daxil olmaqdadır. Konkret ölkələrin cinayət qanunvericiliyində cinayət kimi müəyyən və təsbit edilən əməllər bu tip qanunvericilik aktlarından çıxarılır, beləliklə də cəza tətbiq edilmə təcrübəsində yeni meyllər yaranır.

Təcrübə göstərir ki, hüquqi islahatlar gedişində iqtisadi fəaliyyət sahəsində hüquq pozuntuları dəymiş zərər ödənildiyi halda cinayət sayılmır və ya həmin əməlləri törədən şəxslər daha çox mülki qaydada məsuliyyətə cəlb olunurlar. Bu tendensiya bir tərəfdən cəza siyasətinin humanistləşdirilməsi ilə bağlıdırsa, digər tərəfdən konkret ölkələrin iqtisadi və maliyyə həyatında canlanma yaratma cəhdləri ilə də izah oluna bilər. Maliyyə amnistiyası kimi tədbirlərin tətbiq olunması kontekstində bu cür dekriminallaşdırma iqtisadi baxımdan da müsbət təşəbbüs sayıla bilər. Cinayət nəticəsində vurulmuş zərərin və əldən çıxmış faydanın tam şəkildə ödənilməsi, ilk dəfə olaraq bu cür hüquq pozuntusuna yol verilməsi həmin şəxsin cinayət məsuliyyətindən azad edilməsi və həmin əməlin ümumiyyətlə cinayət sayılmaması üçün lazımi əsas kimi qiymətləndirlə bilər.

*Bu baxımdan Müvəkkil hesab edir ki, məhkəmələr tərəfindən bu cür yanaşmalar geniş tətbiq olunarsa, liberallaşma və dekriminallaşma prinsipləri daha da genişlənməklə səmərəliliyi artar.*

***Vəkillə görüş hüququnun təmini.*** Həbs və ya məhkum edilmiş şəxslərin müdafiəsi tələb edir ki, vəkillər onlara mütəmadi baş çəkə bilsinlər. Bu baxımdan Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində vəkillərlə əməkdaşlıq əlaqələri də inkişaf etdirilir.

*CPT saxlanılmış, həbs və ya azadlıqdan məhrum edilmiş şəxslərin bu barədə özünün seçdiyi şəxsə məlumat vermək, vəkillə görüşmək hüququna əhəmiyyət verir. Bu hüquq həbs edilmiş şəxslərlə pis rəftara qarşı 3 əsas təminatdan biridir və müvafiq hüquq sistemində azadlıqdan məhrumetmənin necə adlandırılmasından asılı olmayaraq (saxlanma, tutulma və s.) həmin təminatlar həbsin ilk anlarından tətbiq edilməlidir.*[45]

Bu baxımdan ilkin saxlanılmış şəxslərin bu dövrdə vəkillə görüşməsi qəddar, pis rəftar eftimalına qarşı əsas təminatdır. Bundan başqa, pis rəftar faktiki olaraq baş verdikdə, vəkil müvafiq tədbirlər görmək imkanına malikdir.

Vəkillə görüş hüququ onunla təklikdə ünsiyyət hüququnu ehtiva etməlidir. Tutulmuş şəxs prinsipcə polis və ya hər hansı qurum tərəfindən aparılan istənilən dindirmədə vəkilin iştirakını tələb etmək hüququna malikdir. Təbii ki, bu, tutulmuş şəxsin təcili məsələlərlə bağlı vəkilin iştirakı olmadan dindirilməsinə, yaxud dindirmənin lazımi qaydada aparılmasına maneçilik törədən vəkilin dəyişdirilməsinə mane olmamalıdır.

Vəkillə görüşmək hüququ təkcə cinayət törətməkdə şübhəli bilinən şəxslərə deyil, məsələn, qanun əsasında polis məntəqəsinə getməyə və müəyyən müddətə orada qalmağa borclu olan istənilən şəxsə verilməlidir.[46]

[45] CPT, GR 2, 36
[46] CPT, GR 12, 41

*Təcrübədə vəkillərin hüquqlarını müdafiə etdikləri şəxslərlə görüşmək hüququnun həyata keçirilməsində yarana biləcək çətinliklərin qarşısının alınmasında Ombudsmanın Qaynar Xətti effektiv mexanizm olaraq fəaliyyət göstərir.*[47]

*Cəzaçəkmə müəssisələrinin vəkillərdən orderləri olmasına baxmayaraq Penitensiar Xidmətdən əlavə məktubun verilməsi kimi tələbləri ilə bağlı daxil olmuş müraciətlərə də dərhal reaksiya verilməklə təmin edilmişdir.*

Vəkillər, hüquq müdafiəçiləri, vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq Müvəkkilin MPM fəaliyyətində də mühüm yer tutur. Eyni zamanda Müvəkkil Vəkillər Kollegiyasında aparılan islahatları da diqqətlə izləyir. Vətəndaşların hüquqlarının qorunmasında vəkillik institunun əhəmiyyəti danılmazdır. Bu baxımdan vəkillərin sayının artırılması istiqamətində atılan addımlar, vəkilliyə qəbul üçün keçirilən imtahanlar müsbət hal kimi qiymətləndirilə bilər. *Müvəkkil ölkədə vəkillərin sayının artırılmasını vacib hesab edir.*

***Hərtərəfli və vahid qeydiyyat sistemi.*** Məlumdur ki, hər bir tutulmuş şəxsin qeydə alındığı, həbsdə saxlanmanın bütün aspektlərini və həbsə alınanlar barəsində görülən bütün tədbirləri – ilkin tutmanın vaxtı və bu tədbirin səbəbləri, hüquqlar barədə məlumatlandırmanın vaxtı, xəsarətin, psixi çatışmazlığın və digər əlamətləri, yaxın qohumun, konsulluq nümayəndəsinin və ya vəkilin saxlanılan şəxslə təmasda olduğu və ya ona baş çəkdiyi vaxt, qidanın təklif olunduğu vaxt, dindirmənin vaxtı, başqa yerə köçürmənin və ya azad edilmənin vaxtını əks etdirən vahid qeydiyyatın müfəssəl aparılmasına nəzarət gücləndirilməlidir.

Müfəssəl qeydiyyatın aparılması polis, penitensiar xidmət müəssisələri və digər hüquq mühafizə orqanlarının əməkdaşlarının işini xeyli asanlaşdırar.

CPT də qeyd edir ki, müxtəlif məsələlərlə bağlı saxlanılan şəxsin də imzası alına bilər, yaxud imza qoyulmadıqda, bunun səbəbi izah edilməlidir. Bundan başqa, həmin şəxslərin vəkilinin aparılan qeydiyyat kitablarındakı məlumatlarla tanış olmaq imkanı da olmalıdır.[48]

*Müvəkkil hesab edir ki, müvafiq qeydiyyatın aparılması mühüm və əsaslı təminatdır.* Belə ki, azadlıqdan məhrum edilmiş şəxslə rəftara və tətbiq edilən prosedurlara dair bütün mühüm məlumatlar orada yazılı şəkildə müfəssəl əks olunur. Qeydə alınması zəruri olan müxtəlif xarakterli məlumatlar müxtəlif qeydiyyat kitablarında qeyd edilir. Başçəkmələr zamanı MPQ üzvləri qeydiyyat kitabları ilə tanış olur, qeydiyyatın lazımi qaydada aparılmadığı və dəyişikliklər edildiyi müşahidə olunmuşdur.

---

[47]https://www.amerikaninsesi.org/a/hebs-heyati/4396026.html

[48] CPT, GR2, 40

MPQ üzvləri tərəfindən polis orqanlarında keçirilən başçəkmələr zamanı qeydiyyatla bağlı aşkar edilmiş nöqsanlar Müvəkkilin Daxili İşlər Nazirliyinə müraciətində geniş yer almış və nöqsanlara yol vermiş şəxslər *intizam məsuliyyətinə cəlb olunmuşlar.*

DİN tərəfindən Müvəkkilə göndərilmiş məktubda həmçinin bildirilir ki, mövcud nöqsanlar polis orqanlarının əməliyyat müşavirələrində müzakirəyə çıxarılaraq onların aradan qaldırılması məqsədilə aidiyyəti əməkdaşlar qarşısında konkret tələblər qoyulmuşdur.

*Müvəkkil tövsiyə edir ki, saxlanılan şəxsin adı, saxlanma səbəbi, saxlanmanın vaxtı, dindirmə, başqa yerə köçürülməsi, prosedurlar və digər məsələlər mütləq şəkildə müvafiq qaydada qeydiyyata götürülməli və məlumatlar müfəssəl şəkildə qeyd olunmalıdır.*

Penitensiar müəssisələrdə də cərimə təcridxanasının, tibbi-sanitar hissələrin və karantin otaqlarının qeydiyyat jurnallarında da eyni məzmunlu nöqsanlar müşahidə olunmuşdur.

Eləcə də cərimə təcridxanasına keçirilmə ilə bağlı qərarların və müvafiq aktların da müfəssəl tərtib olunmadığı müşahidə olunmaqdadır.

***Saxlanılan şəxslərlə rəftar.*** Qeyd olunan məsələ Müvəkkilin daimi diqqətində olmaqla, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Miqrasiya Xidməti və digər mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə əməkdaşlıqda nəzarətdə saxlanılan və müzakirə oluan məsələlərdən olmuşdur.

Xüsusilə vurğulanmalıdır ki, ərazi polis orqanlarında bütün MSY-lər videonəzarət sistemləri ilə təchiz edilmişdir ki, bu müsbət amil kimi qiymətləndirilə bilər.

DİN tərəfindən verilmiş məlumatda son 5 ildə nazirlik tərəfindən aparılan xidməti yoxlamalarla saxlanılan şəxslər üzərində nəzarətin həyata keçirilməsi vəzifələrinin icrasına laqeyd yanaşdıqlarına görə MSY-lərin 40 əməkdaşı daxili işlər orqanlarında xidmətdən xaric edilmiş, 6 nəfər tutduğu vəzifədən azad edilmiş, 199 nəfər haqqında digər intizam tədbirləri görülmüşdür.

Təqdim olunmuş məlumatlarda son illərdə daxili işlər və ədliyyə orqanlarında insan hüquqlarının və azadlıqlarının təmin edilməsi ilə bağlı bir sıra daxili normativ sənəd, müxtəlif tədris proqramları, metodiki vəsaitlər hazırlanıb tabe qurumlara göndərildiyi, əməkdaşların peşə hazırlığı üçün müəyyən edilmiş mövzuların əksər hissəsinin bu fəaliyyətə həsr olunduğu qeyd olunmuşdur.

*Xüsusilə qeyd edilməlidir ki, 2018-ci ildə işgəncələrin qarşısının alınması ilə bağlı Baş Prokurorluqla birgə göstəriş hazırlanıb yerlərə göndərilmiş, habelə Nazirliyin kollegiya qərarı ilə orqan və hissələr qarşısında konkret tapşırıqlar qoyulmuşdur.*

*Müvəkkil bu sahədə atılan addımları izləməklə yanaşı, tutulmuş, həbs edilmiş, azadlıqdan məhrum edilmiş şəxslərlə bağlı yeni, müfəssəl təlimatların qəbul edilməsini, mövcud təlimatların beynəlxalq qanunvericilik aktlarında təsbit olunmuş prinsip və müddəalara uyğunlaşdırılmasını tövsiyə edir.*

***Tibbi xidmətlərin əlçatanlığı.*** Başçəkmələrin təhlili göstərir ki, bu sahədə müəyyən çatışmazlıqlara hələ də rast gəlinir.

*Penitensiar Xidmətin Müalicə Müəssisəsində qəbul olunanların çoxu tibbi yardımın keyfiyyəti və müalicə məsələləri ilə bağlı narazılıqlarını bildirmişlər. Bunlarla yanaşı cəzaçəkmə müəssisələrindən Müalicə müəssisəsinə köçürülmə və müalicə ilə bağlı müraciətlər də çoxluq təşkil edir.*

*Penitensiar müəssisələrdə əsas ehtiyac duyulan məsələlərdən biri də psixi xəstəliklərdən əziyyət çəkən məhkumların müalicəsi və ixtisaslaşmış psixiatriya müəssisələrinə yerləşdirilməsi mexanizminin təkmilləşdirilməsidir.*

*Psixi xəstəliklərdən və ya qüsurlardan əziyyət çəkən məhkumlar həbsxanada olduqları müddətdə xüsusi həkim nəzarəti altında olmalıdır.*[49] *CPT qeyd edir ki, penitensiar müəssisələrdə layiqli yaşayış şəraitinin təmin olunması çox bahalı ola bilər və bir çox ölkələrdə vəsait çatışmazlığı şəraitin yaxşılaşdırılmasına mane olur.*[50]

DİN-nin MSY-nə keçirilən başçəkmələr zamanı qanunvericiliyə uyğun olaraq 24 saat ərzində həyata keçirilməli olan tibbi müayinənin də formal keçirildiyi müşahidə edilmişdir.

CPT qeyd edir ki, polis tərəfindən tutulmuş şəxslərin həkim tərəfindən tibbi müayinəsi xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, saxlanılan şəxsin polis orqanlarının çağırdığı həkim tərəfindən keçirilmiş müayinələrdən əlavə özünün seçdiyi həkim tərəfindən müayinəsi də saxlanılan şəxslər üçün əsas təminatlardan biri kimi çıxış edir.[51]

Ölkə qanunvericiliyi də bu məsələnin mühümlüyünü qeyd edir və müəyyən edir ki, tutulmuş şəxslər tutulduğu və ya həbs edildiyi andan 24 saat müddətində tibb işçiləri tərəfindən müayinədən keçirilir və MSY-ə qəbul edilən hər bir şəxsə tibbi kitabça tərtib olunur.[52]

*Ombudsman Daxili İşlər Nazirinə ünvanladığı məktubunda polis orqanlarının müvəqqəti saxlama yerlərində tibb otaqlarının dərman preparatları və lazımi avadanlıqlarla təchiz edilməsinin vacibliyini vurğulamışdır.*

---

[49] SMR, 82-ci qayda

[50] CPT, GR 11, 30

[51] CPT, GR 2, 36;

[52] "Tutulmuş və ya həbs olunmuş şəxslərə tibbi və psixoloji yardım göstərilməsi, habelə onların tibb müəssisələrində saxlanılması Qaydaları", AR Nazirlər Kabinetinin 67 nömrəli qərarı,18 aprel 2013-cü il.

*Cavab məktubunda qeyd edilən məsələlərin həlli istiqamətində əməli addımların atıldığı qeyd edilmişdir.*

*Müvəkkil bu sahədə olan nöqsanların aradan qaldırılmasının və bundan sonra da daim nəzarətdə saxlanılmasının vacibliyini bir daha vurğulayır.*

***Müvəqqəti saxlama yerlərində saxlanma şəraiti.*** Qeyd olunmalıdır ki, son dövrlər bu sahədə kifayət qədər işlər görülmüşdür.

Başçəkmələrin nəticəsi olaraq, Müvəkkilin tövsiyələri nəzərə alınmaqla çoxsaylı müvəqqəti saxlama yerləri müasir standartlara uyğun yenidən qurulmuş, həmin yerlər sanitar qovşaqlar, dindirmə, görüş, ibadət və digər köməkçi otaqlarla, həmçinin müasir həyəcan və mühafizə siqnalizasiya sistemi ilə təchiz edilmiş, orada xidmətin aparılmasına və saxlanılan şəxslərin davranışına nəzarəti gücləndirmək məqsədi ilə video nəzarət cihazları quraşdırılmış, xidmətdə olan əməkdaşlara və kameralarda həmin şəxslərin davranışına nəzarət gücləndirilmiş, saxlama şəraiti müasir tələblərə uyğun olaraq təkmilləşdirilmişdir.

Polisə gətirilmiş və müvəqqəti saxlama yerlərində asılmış lövhələr vasitəsilə saxlanılan şəxslərə qanunvericilikdə təsbit olunmuş hüquq və vəzifələri, habelə Müvəkkilin 24 saat fəaliyyət göstərən iki "qaynar xətti" barədə məlumatlarla tanış olmaq imkanı yaradılmışdır.

DİN-dən Müvəkkilə ünvanlanmış məktubda bildirilir ki, 2018-ci il ərzində Bakı şəhər Baş Polis İdarəsinin tabeliyində olan polis orqanlarının, Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı, Cəlilabad, Neftçala, Salyan, Biləsuvar, Ucar rayon polis şöbələrinin müvəqqəti saxlama yerlərində texniki möhkəmliyin yoxlanılması və praktiki təlimlərin keçirilməsi təmin olunmuş, aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün polis orqanlarının rəhbərliyinə daxili göstərişlər verilmişdir.

*Eyni zamanda sıxlıq problemi həllini hələ də tam tapmamışdır*. Başçəkmələr zamanı MPQ üzvləri bəzi hallarda sıxlıq hallarının olduğunu müəyyən etmişlər. Məsələn, *Lənkəran ŞRPŞ-nin MSY-nə baxış keçirilən zaman MSY-də sıxlıq müşahidə olunmuşdur.*

CPT qeyd edir ki, bütün polis kameraları təmiz və orada yerləşdirilən şəxslərin sayı baxımından kifayət qədər geniş olmalı, adekvat işıqlandırmaya malik olmalıdır[53].

"Polis etikası haqqında Avropa Məcəlləsinə" görə, polis kameraları ağlabatan ölçüyə malik olmalıdır.[54]

Hazırda beynəlxalq miqyasda polis məntəqələrində tək adamın bir neçə saat ərzində saxlanılması üçün nəzərdə tutulan kameralar qiymətləndirilərkən aşağıdakı meyarlardan istifadə edilir:

Sahə - təxminən 7 kv. m,

[53] CPT, GR 12, 47

[54] "Polis etikası haqqında Avropa Məcəlləsi", 56-cı maddə

Divarlar arasındakı məsafə - 2 metr və ya daha çox,

Döşəmə ilə tavan arasındakı məsafə - 2,5 metr.[55]

*Müvəkkil hesab edir ki, polis orqanlarının müvəqqəti saxlama yerlərində sıxlıq probleminin qarşısının alınması istiqamətində tədbirlərin nəzarətdə saxlanılması zəruridir.*

***Penitensiar Xidmətin müəssisələrində saxlanma şəraiti və tibbi xidmət.*** *Məhkumların və həbs edilmiş şəxslərin saxlanma şəraitinin təkmilləşdirilməsi, yemək, tibbi-sanitariya, maddi-məişət təminatına nəzarətin gücləndirilməsini davamlı proses olduğunda Müvəkkilin MPM fəaliyyəti çərçivəsində də mütəmadi monitorinq olunur.*

Başçəkmələr çərçivəsində Penitensiar Xidmətin cəzaçəkmə müəssisələrində yaşayış binaları, cərimə təcridxanası, tibb-sanitar hissəsi, görüş yerləri, yeməkxana və digər obyektlərə baxışlar zamanı saxlanma şəraitinin təkmilləşdirilməsinə, qidalanma ilə bağlı təminatın yaxşılaşdırılmasına və keyfiyyətinin artırılmasına ehtiyacın olduğu müşahidə edilmişdir. Eləcə də həbsxanada ömürlük azadlıqdan məhrumetmə cəza növündə, habelə məhkəmə qərarı əsasında cəzasının bir hissəsini həbsxana rejimində çəkən məhkumların saxlandığı rejim korpuslarında, kameralarda və cərimə təcridxanasında saxlanma şəraitinin təkmilləşdirilməsi zərurəti vardır.

Cəzaçəkmə müəssisələrində müasir psixoloji və sosial xidmətlərin effektiv təşkili də zəruri məsələlərdəndir. Penitensiar müəssisələrdə müəyyən müddətə azadlıqdan məhrum edilmiş şəxslərlə yanaşı, ömürlük azadlıqdan məhrum edilmiş şəxslərin də ictimai faydalı əməyə cəlb edilməklə islah olunması, habelə müəyyən əmək haqqı qazanmaqla öz şəxsi ehtiyaclarını ödəmələri üçün müasir istehsalat sahələrinin yaradılmasına ehtiyac vardır.

Qeyd olunan məsələlərin təhlili əsasında Müvəkkilin Ədliyyə Nazirliyinə etdiyi müraciətlə bağlı bildirilimişdir ki, başçəkmələrin nəticələrinə göstərilən nöqsanlarla bağlı müvafiq tədbirlər görülmüşdür.

Eyni zamanda bildirilmişdir ki, həbsxanada cəza çəkən məhkumlara xüsusi vasitələrin tətbiqi 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,6 dəfə azalmışdır. Eyni zamanda ötən ilin müvafiq dövrü ilə müqayisədə cəzaçəkmə müəssisələrindən həbxsanaya keçirilən məhkumlarla bağlı təqdimatların sayı 2,6 dəfə azalmışdır. Cərimə təcridxanasına keçirilmə və oradan azad olma ilə bağlı sənədləşmədə yol verilmiş qüsurlar aradan qaldırılmış, kitabın qanunvericiliyin tələblərinə uyğun aparılması, qeydlərin düzgün tərtibatı təmin edilmişdir.

Bildirilmişdir ki, Penitensiar müəssisələrin ərzaq təminatı və məhkumların qidalanması diqqətdə saxlanılmış, çörək bişirmə sexlərində yeni sobaların quraşdırılması nəticəsində çörəyin keyfiyyəti yaxşılaşdırılmışdır.

---

[55] CPT, GR 2, 43

Qaradağ rayonunun Umbakı qəsəbəsində yeni həbsxananın, eləcə də digər penitensiar müəssisələrin tikinti işlərinin dövlət büdcəsindən ayrılan maliyyə vəsaitinə uyğun davam etdirildiyi də verilmiş cavab məktublarında qeyd olunur.

*Müvəkkil hesab edir ki, yeni həbsxana da daxil olmaqla, penitensiar müəssisələrin tikintisi, təmiri, müvafiq beynəlxalq standartlara uyğun saxlama şəraitinin yaradılması işləri davam etdirilməlidir.*

*Penitensiar Xidmətin 2 saylı İstintaq Təcridxanasında da əvvəlki illərdə olduğu kimi, sıxlıq müşahidə olunmuş, kameralara və digər obyektlərə baxış zamanı müəssisənin binalarının köhnə olduğu, yenidənqurma işlərinə ehtiyac olduğu müəyyən edilmişdir.*

*Məntəqə tipli cəzaçəkmə müəssisələrində də nöqsanlar qalmaqdadır. Bu prosesin sürətləndirilməsinə xüsusi ehtiyac vardır. Məntəqə tipli cəzaçəkmə müəssisələrinin modernləşməsi istiqamətində atılan addımlar hələ ki, tam tələblərə cavab vermir. Başçəkmələr, təhlil və müşahidələr burada maddi-texniki bazanın daha da yenilənməsini, kadr korpusunun məsuliyyətinin və bacarıqlarının artırılmasına ehtiyac olduğunu göstərir. Müvəkkil bu məsələlərə diqqətin artırılmasının vacibliyini vurğulayır.*

Cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların tibbi-sanitariya təminatı, sağlamlığının qorunması hüququnun reallaşdırılması ilə bağlı xeyli işlər görülsə də, hələ də çatışmazlıqlar mövcuddur. Penitensiar müəssisələrdə tibb işçiləri tərəfindən cərimə təcridxanasında məhkumların səhhətinə gündəlik nəzarətin, habelə sanitar-epidemioloji vəziyyətə nəzarətin formal xarakter daşıması, müvafiq jurnallarda aparılan qeydlərdə düzəlişlərin edilməsi, xüsusi vasitələrin tətbiqi ilə bağlı qeydlərin müəssisənin jurnalında aparılmış müvafiq qeydlərlə uyğun olmaması halları mövcuddur.

Bəzi hallarda Müalicə Müəssisəsində müalicə, habelə CÇM-dən bura göndərilməyə maneələrin yaradılması, müalicə məsələlərində operativliyin olmamasının fəsadlar törətdiyi, yemək qəbulundan imtina edən, cərimə təcridxanasına keçirilmiş, xüsusi vasitə tətbiq olunmuş məhkumlara münasibətdə qeyri-uyğun yanaşmalar da müşahidə edilmişdir ki, bu da nəzarətin gücləndirilməsini və tədbirlərin görülməsini zəruri edir.

***Cəzaçəkmə Müəssisələrində məhkumların əməyə cəlb edilməsi.*** Azərbaycan Respublikasının Prezidentinin 10 fevral 2017-ci il tarixdə "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi" barədə Sərəncamın tələblərindən biri də azadlıqdan məhrum edilmiş şəxslərin əməyə cəlb edilməsi, yeni istehsal sahələrinin yaradılması imkanları, bu sahədə sahibkarların fəaliyyətinin stimullaşdırılması olmuşdur.

Hal-hazırda müşahidələr göstərir ki, bəzi müəssisələrdə müxtəlif istehsalat sexləri, qadınlar üçün CÇM-də toxuculuq sexi olsa da, bu sahədə Sərəncamdan irəli gələn tələblərin genişləndirilməsinə ehtiyac vardır.

Sərəncamın da bu məsələ ilə bağlı müddəası məhkumların əməklə məşğul olması yolu ilə islah edilməsi və öz şəxsi ehtiyaclarını ödəmək üçün müəyyən əmək haqqı qazanması, yeni və müasir iş yerlərinin yaradılması istiqamətində mühüm dəyişiklikləri nəzərdə tutur. Burada isə müəssisələrin istehsalat sahələrinin bir qədər ictimailəşməsi, iş yerlərinin siyahısının açıqlanması tələb olunur.

Eləcə də müəssisələrin özünün də istehsalat baxımından ixtisaslaşması məsələsinə islahatlar prosesində baxılması məqsədəmüvafiq olardı. Belə ki, bir çox ölkələrdə bununla bağlı yaradılan nümunəvi modellər məhkumların islah prosesinə, əmək vərdişlərinə yiyələnməsi, habelə reabilitasiya və cəmiyyətə adaptasiya proseslərinə mühüm töhfə verir.

*Müvəkkil hesab edir ki, burada müasir yanaşma baxımından xarici təcrübəyə müraciət edilməsi uğurlu nəticələr verə bilər.*

Məsələn, Yunanıstan təcrübəsində ayrıca bir kənd təsərrüfatı sahəsində ixtisaslaşmış cəzaçəkmə müəssisəsi fəaliyyət göstərir ki, buraya da müraciət edən məhkumlar xüsusi komissiyadan keçməklə rejim fərqi olmadan qəbul olunurlar. Burada qalma və işləmə həm də cəza müddətini daha tez başa vurmağa imkan verdiyindən məhkumları da əməyə həvəsləndirir.

Bu təcrübə effektiv olmaqla yanaşı, cəmiyyətin qəbul edəcəyi kifayət qədər islah olunmuş, peşə vərdişlərinə yiyələnmiş şəxslər arasında cəzadan azad edildikdən sonra təkrar cinayət törətməyə meylliliyin böyük faiz nisbətində azalmasına imkan verməsi baxımından da müsbət təcrübə olaraq istifadə olunmalıdır. Ölkəmizdə də bu və digər təcrübi modellərin effektivliyi nəzərə alınmaqla tətbiqi məqsədəmüvafiq olardı.

*Məhkumların əməyə cəlb edilməsi məsələsi Müvəkkilin hesabat və məruzələrində və Ədliyyə Nazirliyinə müraciətlərində də daim qaldırılmışdır.*

Penitensiar müəssisələrdə müəyyən müddətə azadlıqdan məhrum edilmiş şəxslərlə yanaşı, ömürlük azadlıqdan məhrum edilmiş şəxslərin də ictimai faydalı əməyə cəlb edilməklə islah olunması, habelə müəyyən əmək haqqı qazanmaqla öz şəxsi ehtiyaclarını ödəmələri üçün yeni və müasir istehsalat sahələrinin yaradılmasına ehtiyac vardır.

Penitensiar Xidmət tərəfindən təqdim olunmuş son məlumatda həbsxanada saxlanılan məhkumların əməyinin təşkili ilə də bağlı bildirilmişdir ki, məhkumların ictimai faydalı əməyə cəlb edilməsi, habelə müəyyən əmək haqqı qazanmaqla öz şəxsi ehtiyaclarını ödəmələri üçün istehsalat sahələrinin yaradılması inşa edilən yeni həbsxanada nəzərə alınmışdır.

***Psixiatriya müəssisələrində saxlanılan şəxslərin saxlanma şəraiti.*** Başçəkmələr zamanı Gəncə, Şəki və Qazax Psixiatriya müəssisələrində saxlanma şəraitinin ruhi xəstələr üçün əlverişli olmadığı, həmçinin dərman preparatlarının və ərzaq təminatında çatışmazlıq müşahidə edilmişdir.

Keçirilən başçəkmələr zamanı Səhiyyə Nazirliyinin Psixiatriya Xəstəxanalarında saxlanılan şəxslər üçün ərzaq və dərman preparatları üçün ayrılan vəsaitin də eyni olmadığı, hər dəfə müxtəlif rəqəmlərin səsləndirildiyi qeyd olunmalıdır.

Belə ki, ayrılan vəsaitin sonuncu dəfə günlük ərzaq üçün 3.6 - 5 manat, dərman üçün isə tamamilə az, 0.22 - 0.60 manat civarında olduğu bildirilmişdir ki, bu da mövcud qiymətlərə və ehtiyaclara uyğunlaşdırılmalıdır. Əfsuslar olsun ki, anbarlara baxış zamanı da tələbata uyğun ərzağın, habelə dərman ehtiyatının az olduğu müşahidə edilmişdir.

*Müvəkkil hesab edir ki, bərabər və normalara uyğun təminatın təşkili, günlük normaların vahid bölgü və normativ sənəd əsasında sistemləşdirilməsi, Nazirlər Kabinetinin müvafiq qərarında dəyişiklik edilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması zəruridir.*

Qeyd olunmalıdır ki, ruhi-əsəb müəssisələri binalarının yenidən qurulması və ya əsaslı təmir edilməsi, bu müəssisələrdə müalicə olunan xəstələrin tibbi təminatının yaxşılaşdırılması, habelə orada çalışan kadrlarla gücləndirilməsi və onların sosial müdafiəsinin yaxşılaşdırılması məsələlərinə maliyyə təminatının artırılmasına dair təkliflər Ombudsman tərəfindən Milli Məclisdə 2019-cu ilin dövlət büdcəsi müzakirə olunan zaman, eləcə də müvafiq qurumlar qarşısında qaldırılmışdır.

# BÖLMƏ 4.

# HÜQUQİ MAARİFLƏNDİRMƏ

Azərbaycan MPM-nin fəaliyyət istiqamətlərindən biri də şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə saxlanılan şəxslər və onlarla işləyən xidmət əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirmə işinin təşkilidir. Fakültativ Protokolun preambulası da maarifləndirmə sahəsində tədbirlərin görülməsini və müxtəlif qanunvericilik, inzibati, məhkəmə və digər tədbirlərin birləşdirilməsini tələb edir.

2018-ci ildə də dövlət uşaq müəssisələrində, müxtəlif dövlət qurumlarının, hüquq-mühafizə orqanlarının Akademiyalarında, müvəqqəti saxlama yerləri, cəzaçəkmə müəssisələri və istintaq təcridxanalarında milli və beynəl-xalq qanunvericiliyin müddəaları, BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sı, digər beynəlxalq standartların müddəaları əsasında görüşlər, insan hüquqlarına dair seminarlar və treninqlər təşkil olunmuşdur. Milli və bey-nəlxalq standartlar əsasında planlı və ardıcıl həyata keçirilən treninqlər MPM-in tanınması, fəaliyyətinin dəstəklənməsi ilə yanaşı, şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə çalışan şəxslərin bacarıqlarının artırılması və maarifləndirilmələri, eləcə də bu qəbildən olan tövsiyələrin icrası baxımından mühüm əhəmiyyət kəsb edir.

Bakı şəhərində və ölkənin digər şəhər və rayonlarında keçirilən görüş və qəbullar, habelə hüquqi maarifləndirmə tədbirləri zamanı polis orqanlarının, penitensiar xidmətin, miqrasiya orqanlarının, təhsil, sosial xidmət və psixiatriya müəssisələrinin əməkdaşları ilə də maarifləndirmə işi aparılmış, insan hüquq və azadlıqlarının təmin olunmasına xüsusi diqqət yetirilməsinin vacibliyi, ölkəmizdə "İşgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Mexanizm" funksiyalarının icrası məqsədilə təsisat tərəfindən həyata keçirilən fəaliyyət diqqətə çatdırılmışdır.

Qeyd edilənlərlə yanaşı, mövcud sahədə əməkdaşlıq məsələləri müzakirə edilmiş, təsisatın hüquqi nəşrləri, tədris vəsaitləri, qaynar xətt nömrələrinin əks olunduğu plakatlar təqdim edilmiş, həmin vəsaitlərin öyrənilməsi, treninq və təlimlərdə istifadə olunması, təcrübədə tətbiqi tövsiyə olunmuşdur.

Saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə başçəkmələr çərçivəsində həmin müəssisələrin rəhbərliyi və məsul əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericilik əsasında saxlanılma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi, çatışmazlıqların aradan qaldırılması ilə bağlı verilmiş tövsiyələr əsaslandırılmışdır.

İl ərzində həbs yerlərində və cəzaçəkmə müəssisələrində keçirilən hüquqi maarifləndirmə tədbirləri zamanı Azərbaycan Respublikasının Prezidentinin 10 fevral 2017-ci il tarixli Sərəncamı əsasında milli qanunvericilikdə həyata keçirilmiş hüquqi islahatlara dair yeniliklər, cinayət törətmiş, hüquq pozuntusuna yol vermiş şəxslərin azadlıq hüququ ilə bağlı məhdudiyyətlərin tətbiq edilməsinin qarşısının alınması, bu istiqamətdə cinayət təqibi və cəza icra siyasətinin humanistləşdirilməsi, şəxsin cəmiyyətdən təcrid edilməsi təcrübəsindən getdikcə imtina edilməsi sahəsində mövcud təcrübə, həyata keçirilən işlər və yeniliklə saxlanılan şəxslərə izah olunmuş və onların sualları cavablandırılmışdır. MPM fəaliyyəti çərçivəsində Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası ilə hüquqi maarifləndirmə, habelə müxtəlif istiqamətlər üzrə qulluğa qəbul olunmuş şəxslərin bilik və bacarıqlarının artırılması istiqamətində səmərəli əməkdaşlıq əlaqələri davam etdirilmişdir. Tədris müəssisəsinin tədris kurslarının proqramına Azərbaycan MPM-nin fəaliyyəti ilə bağlı mövzular da daxil edilmişdir.

MPQ üzvləri tərəfindən Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinə, Məhkəmə Ekspertizası Mərkəzinə və Tibb baş idarəsinə ilk dəfə qulluğa qəbul olunmuş müdavimlərin peşə fəaliyyətinə buraxılması ilə bağlı Akademiyada keçirilən icbari təlim kursunda "Ombudsmanın insan hüquqlarının müdafiəsi və Milli Preventiv Mexanizm qismində fəaliyyəti" mövzusunda mühazirələr oxunmuşdur. Dinləyicilərə Ombudsmanın təşəbbüsləri və təklifləri nəzərə alınmaqla Azərbaycan Respublikasının milli qanunvericiliyində həyata keçirilən islahatlar, Müvəkkilin insan hüquqlarının müdafiəsi və MPM qismində fəaliyyəti haqqında geniş məlumat verilmiş, habelə Ombudsman haqqında Konstitusiya Qanununun müddəaları tədris olunmuşdur.[56]

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunun icrasının təmin edilməsi ilə bağlı ölkə Ombudsmanının Milli Preventiv Mexanizm funksiyalarını yerinə yetirən təsisat qismində müəyyən olunması, bu sahədə fəaliyyətin daha səmərəli aparılması üçün ölkədə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə müntəzəm keçirilən baxışlar, verilmiş tövsiyələr və onların icrası vəziyyətinə dair məlumatlar da milli, xarici ölkə və beynəlxalq təşkilatların təcrübəsindən misallar gətirməklə dinləyicilərin diqqətinə çatdırılmışdır.

Mühazirələrdə 10 fevral 2017-ci il tarixdə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə

[56] http://www.ombudsman.gov.az/az/view/news/1175/ombudsmanin-milli-preventiv-mexanizm-fealiyyeti-cherchivesinde-huquqi-maariflendirme-tedbirleri-davam-etdirilir

əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi" barədə Sərəncamın insan hüquqlarının effektiv təmini baxımından həyata keçirilən islahatlar prosesində yeni mərhələ olduğu vurğulanmış, sənədin şəxsiyyətin toxunulmazlığı hüququnun təmin edilməsi, cinayət törətmiş, hüquq pozuntusuna yol vermiş şəxslərin də azadlıq hüququ ilə bağlı məhdudiyyətlərin tətbiq edilməsinin qarşısının alınması, bu istiqamətdə cinayət təqibi və cəza icra siyasətinin humanistləşdirilməsi, şəxsin cəmiyyətdən təcrid edilməsi təcrübəsindən getdikcə imtina edilməsi sahəsində mövcud təcrübə və çətinliklərlə bağlı müddəaları canlı diskussiya şəraitində əsas müzakirə mövzularından olmuşdur.

Bunlarla yanaşı, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının sənədi olan, pis rəftar növlərinin və cəzaların tətbiqinin effektiv tədqiq edilməsi ilə bağlı "İstanbul Protokolu", SPT tövsiyələri və CPT-nin ümumi məruzələrində yer almış standartları, habelə əlaqəli şəkildə milli qanunvericilik aktları tədris olunmuşdur.

Dinləyicilərə Ombudsmanın təşəbbüsləri və təklifləri nəzərə alınmaqla Azərbaycan Respublikasının milli qanunvericiliyində həyata keçirilən islahatlar, Müvəkkilin insan hüquqlarının müdafiəsi və Milli Preventiv Mexanizm qismində fəaliyyəti, beynəlxalq standartlar əsasında rəftar məsələləri və saxlanma şəraitinin araşdırılmasında göstərdiyi yanaşmalar haqqında geniş məlumat verilmişdir.

Ölkə Ombudsmanının insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirdiyi fəaliyyət, o cümlədən MPM qismində fəaliyyəti dinləyicilər tərəfindən maraqla qarşılanmış, onların çoxsaylı sualları ətraflı cavablandırılmışdır.

Ombudsmanın təşəbbüsü ilə ölkəmizdə ənənəvi olaraq 20 oktyabr - 20 noyabr tarixlərində Uşaq Hüquqları Aylığı keçirilmişdir. Bu aylıq çərçivəsində Bakıda və rayonlarda, o cümlədən dövlət uşaq müəssisələrində, Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Tərbiyə müəssisəsində maarifləndirmə tədbirləri təşkil edilərək çoxsaylı yetkinlik yaşına çatmayan şəxslər hüquqi maarifləndirmə tədbirlərinə cəlb olunmuşlar.

Tədbirlər canlı diskussiya şəraitində davam etmiş, uşaq hüquqları sahəsində mövcud olan beynəlxalq və milli qanunvericilik, BMT-nin Uşaq Hüquqları Konvensiyası, Pekin qaydaları və Ər-Riyad təlimatları əsasında müəyyən olunmuş hüquq və vəzifələr, bu hüquqların müdafiə mexanizmləri, həyata keçirilməli olan preventiv tədbirlər haqqında məlumatlar verilmiş, uşaqların çoxsaylı sualları ətraflı cavablandırılmış, onlara hüquqları və Müvəkkilin səlahiyyətləri izah edilmiş, qaldırdıqları məsələlər üzrə hüquqi məsləhətlər verilmişdir.[57]

---

[57] http://www.ombudsman.gov.az/az/view/news/1139/ushaq-huquqlari-ayligi-cherchivesinde-novbeti-tedbirler-kechirilib

İl ərzində Ombudsman Aparatı, UNICEF, Ədliyyə və Polis Akademiyalarının birgə əməkdaşlığında hakimlər, prokurorluq, polis, ədliyyə və yerli icra hakimiyyəti, sosial xidmət orqanlarının əməkdaşlarına ünvanlanan "Uşaqlar üçün Ədliyyə", "Yetkinlik yaşına çatmayanların ədalət mühakiməsi" mövzularında hüquqi maarifləndirmə və bacarıqların artırılması məqsədi daşıyan fəaliyyət çərçivəsində treninqlər davam etdirilmişdir.

Bu əməkdaşlıq çərçivəsində silsilə treninqlər xarici ölkələrinin həmin sahədə müsbət təcrübəsi əsasında bacarıqların artırılması məqsədini daşımaqla yanaşı, həyata keçirilməsi yuvenal ədliyyə sistemində islahatların qanunla münaqişədə olan uşaqlara təsirinin qiymətləndirməsi, yerli icra hakimiyyəti orqanları nəzdində fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyaların fəaliyyətinə yeni yanaşmaların, mövcud çətinliklərin öyrənilməsi baxımından əhəmiyyətli olmuşdur.

Treninqdə UNICEF, Ədliyyə və Polis Akademiyalarının nümayəndələri, o cümlədən Ombudsman Aparatının şöbə müdiri, Milli Preventiv Qrupun rəhbəri R. Rumzadə ekspert qismində iştirak etmiş və yuvenal ədliyyəyə dair mövzularda təqdimatlar edilmişdir.

Ombudsmanın nümayəndəsi, BMT-nin Uşaq Hüquqları Komitəsinin tövsiyələri əsasında uşaqların ən ümdə maraqlarının təmini təcrübəsi, hüququazidd davranış nümayiş etdirən və saxlanılan yetkinlik yaşına çatmayan şəxslərlə işin təşkili, cinayətdə şübhəli bilinən uşaqlarla davranış və prosedur qarantiyalar barədə danışmış, bu sahədə xarici ölkələrin təcrübəsi, beynəlxalq və regional standartların praktik tətbiqi məsələləri, habelə Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində həyata keçirilən başçəkmələr əsasında göstərilən yanaşmalarla bağlı geniş məlumat verilmişdir.

Bakı şəhərində və regionlarda keçirilmiş treninqlərdə mövzu üzrə milli və beynəlxalq təcrübə, normativ-hüquqi aktlar, BMT-nin Uşaq Hüquqları Konvensiyası, Pekin qaydaları və Ər-Riyad təlimatları əsasında həyata keçirilməli olan preventiv tədbirlər haqqında məlumatlar verilmiş, cinayət törətmiş və ya hüquq pozuntusuna yol vermiş yetkinlik yaşına çatmayan şəxslərin azadlıq hüququ ilə bağlı məhdudiyyətlərin tətbiq edilməsinin qarşısının alınması, bu istiqamətdə cinayət təqibi və cəza icra siyasətinin humanistləşdirilməsi, şəxsin cəmiyyətdən təcrid edilməsi təcrübəsindən imtina edilməsi sahəsində mövcud təcrübəyə toxunmuş və mövzular canlı diskussiya şəraitində geniş müzakirə edilmişdir.

## BÖLMƏ 5.

## İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

2018-ci ildə də dövlət orqanları, yerli vətəndaş cəmiyyəti qurumları, o cümlədən QHT-lər, habelə KİV, regional və beynəlxalq təşkilatlarla, xarici ölkə MPM-ləri ilə informasiya və təcrübə mübadiləsinin aparılması, keçirilən tədbirlərdə qarşılıqlı iştirakın təmin olunması, eləcə də birgə tədbirlərin təşkili bu istiqamətdə fəaliyyəti daha da inkişaf etdirmişdir.

Qeyd edilən dövr ərzində Azərbaycan MPM-in fəaliyyəti barədə həm ölkə ictimaiyyəti, həm də beynəlxalq ictimaiyyət mütəmadi olaraq ətraflı məlumatlandırılmışdır.

2018-ci ildə KİV-də cəmi 94 mətbuat açıqlaması (press-relizlər) yayımlanmışdır.

Ümumilikdə 2009-2018-ci illər ərzində MPM-in fəaliyyəti ilə bağlı 974 mətbuat açıqlaması yayımlanmışdır.

Press-relizlər (mətbuat açıqlamaları), həmçinin MPM-in fəaliyyətinə dair hesabatlar, MPQ-nin tərkibi barədə məlumat, habelə müvafiq normativ-hüquqi aktlar Müvəkkilin rəsmi internet saytında yaradılmış xüsusi bölmədə Azərbaycan və İngilis dillərində yerləşdirilmişdir. Hesabatlar Müvəkkilin rəsmi internet səhifəsində yerləşdirilməklə yanaşı, aidiyyəti dövlət qurumlarına və beynəlxalq təşkilatlara da göndərilmişdir.

Müvəkkilin ünvanına, o cümlədən 24 saat fəaliyyət göstərən "Qaynar xətti"nə daxil olmuş müraciətlər və digər məlumatlar, QHT-lərdən, hüquq müdafiəçilərindən, vəkillərdən, kütləvi informasiya vasitələrindən alınmış, internet saytlarından götürülmüş informasiyalar bilavasitə yerində, yaxud bu və ya digər dövlət orqanına yoxlama tapşırığı verilməsi yolu ilə araşdırılması zamanı əldə edilmiş faktlar, toplanmış məlumat və materiallar, habelə şikayətlərin aidiyyət və kəmiyyət göstəriciləri həyata keçirilən başçəkmələr zamanı istifadə olunmuşdur.

Müvəkkilin nümayəndələri KİV-lərdə mütəmadi adları çəkilən, həbsdə saxlanılan və ya təqib olunan şəxslərlə də mütəmadi olaraq görüşmüşlər. Aparılmış araşdırmalar barədə press relizlər KİV-ə göndərilmiş, Müvəkkilin rəsmi internet saytında yerləşdirilmişdir.

MPM-in işgəncələrin qarşısının alınması sahəsində dövlət orqanları, beynəlxalq təşkilatlar, qeyri-hökumət təşkilatları ilə yanaşı, KİV-lə də səmərəli əməkdaşlıq əlaqələri daha da inkişaf etdirilmişdir.

Müvəkkil fəaliyyətinin ilk illərindən vətəndaş cəmiyyəti institutları ilə sıx əməkdaşlıq edir. Ölkə təcrübəsində də yenilik olmaqla Müvəkkilin təşəbbüsü ilə hələ fəaliyyətinin ilk illərində təsisat yanında çoxsaylı vətən-

daş cəmiyyəti institutlarını özündə birləşdirən "Ekspertlər Şurası" yaradılmış və bu günədək fəaliyyət göstərməkdərir. MPM-in fəaliyyəti çərçivəsində də keçirilən başçəkmə və hüquqi maarifləndirmə tədbirlərində, o cümlədən müvafiq dövlət qurumlarının iştirakı ilə keçirilən görüşlərdə, qanunveri-ciliklə bağlı müzakirələrdə, müvafiq hesabatların hazırlanması prosesində vətəndaş cəmiyyətinin üzvlərinin cəlb olunması və ekspertlərin iştirakı mütəmadi olaraq təmin olunur.

Vətəndaş cəmiyyəti üzvlərindən ibarət tərkibdə Ədliyyə Nazirliyi yanında yaradılmış İctimai Komitə ilə də sıx əməkdaşlıq edilir. Ekspert qismində cəlb olunmuş Komitə üzvləri MPM-in işində yaxından iştirak edir

Milli Preventiv Qrupun rəhbəri Azərbaycan Respublikası Ədliyyə Nazirliyi yanında İctimai Komitənin Seçkisi Komissiyasının üzvü kimi qeyd edilən dövr ərzində keçirilən müvafiq tədbirlərin iştirakçısı olmuşdur.

***Beynəlxalq əməkdaşlıq.*** Beynəlxalq əlaqələrin daha da genişləndirilməsi, aparılan təcrübə və fikir mübadilələri Azəbaycan MPM-nin fəaliyyətinin effektiv həyata keçirilməsinə geniş imkanlar açmışdır.

Müvəkkil MPM qismində BMT və onun müqavilə qurumları, o cümlədən CAT, SPT, habelə CPT, Avropa Şurası, Avropa İttifaqı, ATƏT, İşgəncələrin Qarşısının alınması üzrə Assosiasiya (APT) və digər beynəlxalq təşkilatlar, müxtəlif ölkələrin MPM-ləri ilə əməkdaşlıq edir, təcrübə mübadiləsi aparır.

Müvəkkilin MPM qismində beynəlxalq əlaqələrinin həyata keçirilməsi istiqamətləri kimi işgəncələrin qarşısının alınması sahəsində müxtəlif səmərəli görüşlərin təşkili, birgə tədbirlərin həyata keçirilməsi, Müvəkkil və MPQ-nin üzvlərinin beynəlxalq tədbirlərdə iştirakı və qarşılıqlı təcrübə mübadilələrini göstərmək olar.

MPM-in beynəlxalq əməkdaşlıq fəaliyyəti çərçivəsində Müvəkkilin UNICEF-in Bakı ofisi ilə əməkdaşlığı uğurlu olmuş, birgə əməkdaşlıqda bir sıra tədbirlər, dövlət uşaq müəssisələrində monitorinqlər həyata keçirilmişdir.[58]

Müvəkkil bu əməkdaşlıq çərçivəsində Milli İnsan Hüquqları Təsisatı olaraq uşaq hüquqlarının müdafiəsi və təbliği sahəsində həyata keçirilən işlər çərçivəsində əlilliyi olan uşaqlar, BMT-nin Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyası üzrə müstəqil monitorinq mexanizmi olaraq fəaliyyət imkanlarını da genişləndirir.

Qarşılıqlı əməkdaşlıq, o cümlədən dövlət uşaq müəssisələrində uşaq hüquqlarının müdafiəsi məqsədi ilə birgə moitorinqlərə əsaslanan fəaliyyət, Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində həyata keçirilən birgə işlər UNİCEF-in ölkə Ofisi tərəfindən yüksək qiymətləndirilir.

---

[58]http://femida.az/az/news/79229

İlin yekunu üzrə görüşdə uşaqlara ünvanlanan zəruri sosial xidmətlər, bu sahədə kadr hazırlanması məsələsi, eləcə də bu qəbildən olan müəssisələrlə bağlı fikir mübadiləsi aparılmış, gələcək əməkdaşlığın prioritetləri müzakirə olunmuşdur.

*2018-ci ildə də Ombudsmanın UNICEF-lə əməkdaşlığında dövlət uşaq müəssisələrində birgə monitorinqlər prioritet istiqamət olmuş və müsbət təcrübə olaraq 2019-cu ildə də davam etdirilməsi ikitərəfli təsdiq olunmuş fəaliyyət planında yer almışdır.*

Fəaliyyət planı üzrə MPM fəaliyyəti çərçivəsində həyata keçiriləcək tədbirlər Uşaq Hüquqları Konvensiyasının müddəalarına, habelə BMT-nin müvafiq saziş qurumunun verdiyi tövsiyələrə əsaslanmaqla, icmalarda hüquqi maarifləndirmə işinin həyata keçirilməsini, bu sahədə çalışacaq təlimçilərin hazırlanmasını, treninq-seminarların, o cümlədən dövlət uşaq müəssisələrində keçiriləcək birgə monitorinqlərə, habelə Milli Preventiv Qrupun başçəkmələrinə dəstək verəcəkdir.

Müqavilə sosial cəhətdən təcrid olunmuş uşaqların gündəlik həyatlarında təkmilləşmiş keyfiyyətli xidmətlərdən istifadə imkanının Ombudsmanın Milli Preventiv Qrupunun iştirakı ilə monitorinqinə, habelə uşaq hüquqlarının müdafiəsi sahəsində çalışan dövlət qurumlarının, hüquq-mühafizə və yerli icra hakimiyyəti orqanlarının ehtiyaclarının qiymətləndirilməsi və təlimlər vasitəsilə bacarıqlarının artırılmasına, vətəndaş cəmiyyəti təsisatlarının və yerli icmaların da bu prosesə cəlb edilməsi ilə uşaq hüquqlarının müdafiəsinə, monitorinqinə və fəaliyyətin genişləndirilməsinə yeni imkanlar açır.[59]

Müvəkkil 2018-ci ildə MPM fəaliyyətini də əhatə edən səfəri çərçivəsində BMT-nin Cenevrə Ofisində keçirilmiş Milli İnsan Hüquqları Təsisatlarının Qlobal Alyansının Baş Assambleyasında, Avropa Milli İnsan İnsan Hüquqları Təsisatları Şəbəkəsinin regional iclaslarında və prioritet mövzular üzrə plenar iclaslarında iştirak etmişdir. [60]

Tədbirlərdə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı və başqa qurum-larının rəsmiləri, müxtəlif ölkələrin Ombudsmanları, Milli İnsan Hüquqları Təsisatlarının və onları birləşdirən təşkilatların nümayəndələri, beynəlxalq ekspertlər qatılmış və çıxışlar etmişlər.

Səfər çərçivəsində Müvəkkil və MPQ-nin üzvləri İşgəncələrə Qarşı Assosiasiyanın (APT) ofisində təşkil edilmiş Milli Preventiv Mexanizmlərin Avropa Şəbəkəsinin tədbirində iştirak etmişlər. Müxtəlif ölkələrin MPM-nin

---

[59] https://azertag.az/xeber/Ombudsman_tesisati_ile_UNICEF_arasinda_emekdasliga_dair_muqavile_imzalanib-1153817

[60] https://azertag.az/xeber/Azerbaycan_Ombudsmani_Milli_Insan_Huquqlari_Tesisatlarinin_Qlobal_Alyansinin_Bas_Assambleyasinda_istirak_edib-1140371

də iştirak etdiyi tədbir yeni fəaliyyət istiqamətlərinə uyğun olaraq təcrübə mübadiləsi, fəaliyyətin səmərəli təşkili, təşkilatlanma və gələcək əməkdaşlıq kimi mövzulara həsr olunmuş və geniş müzakirələr aparılmışdır. Ombudsman tədbirdə MPM fəaliyyəti çərçivəsində fikirlərini bölüşmüş və gələcək əməkdaşlıq istiqamətləri üzrə öz təkliflərini vermişdir.

Səfərin növbəti günü Azərbaycan Ombudsmanı Milli İnsan Hüquqları Təsisatlarının Qlobal Alyansının Baş Assambleyasına, Avropa Milli İnsan İnsan Hüquqları Təsisatları Şəbəkəsinin regional iclaslarına, ahıllar, əlilliyi olan şəxslər və məcburi köçkün və miqrantlarla bağlı mövzular üzrə plenar iclaslarda iştirak etmiş və bu mövzular üzrə iştirakçılarla fikir mübadiləsi keçirmişdir.

Avropa Milli İnsan Hüquqları Təsisatlarının regional iclasında Kopenhagen Bəyannaməsi də qəbul edilmiş və sözü gedən sənədə əsasən Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının icrasında bu qurumların iştirakı təşviq olunmuşdur.

Assambleya çərçivəsində keçirilən iclaslarda diqqət yetirilən və ölkələrə tövsiyə olunan prioritetlər arasında ahılların hüquqlarının müdafiəsi məsələsi xüsusi yer almış və bununla bağlı Milli İnsan Hüquqları Təsisatlarının roluna həsr olunmuş geniş plenar iclas keçirilmiş, yeni hədəflər üzrə müzakirələr aparılmışdır.

Səfər çərçivəsində Müvəkkil Milli İnsan Hüquqları Təsisatlarının Qlobal Alyansının, Avropa Milli İnsan Hüquqları Təsisatları Şəbəkəsinin, habelə Amerika, Avropa, Asiya regionlarında, o cümlədən Türkiyə və Orta Asiyada fəaliyyət göstərən Milli İnsan Hüquqları Təsisatlarının təmsilçiləri ilə görüşlər və fikir mübadiləsi keçirmişdir.

MPQ-nin üzvləri Gürcüstanın paytaxtı Tbilisi şəhərində Penal Reform International təşkilatının Gürcüstan Ombudsmanı ilə birgə təşkilatçılığında Cənubi Qafqaz ölkələrinin MPM-lərinin iştirakı ilə regional konfrans keçirilmişdir.

Konfransda Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatını İşgəncələrin qarşısının alınması şöbəsinin müdiri, Milli Preventiv Qrupun rəhbəri R. Rumzadə və həmin qrupun üzvü V. Heydərov təmsil etmişlər.

Proqrama uyğun olaraq region ölkələrinin MPM-lərinin məruzələri dinlənilmiş, Azərbaycan Ombudsmanının da MPM qismində fəaliyyəti təqdim olunmuş, əvvəlcədən xəbərdarlıq etmədən şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə keçirilən effektiv başçəkmələr və onların nəticələri, hüquqi təhlil, qanunvericiliyin və bu istiqamətdə fəaliyyətin təkmilləşdirilməsi məqsədilə verilmiş təklif və tövsiyələr, əməkdaşlıq istiqamətləri, həmçinin hüquqi maarifləndirmə tədbirləri ilə bağlı geniş məlumat vermişdir.

Azərbaycan Ombudsmanının nümayəndələri tərəfindən ölkədə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının sənədi olan, pis rəftar növlərinin və cəzaların tətbiqinin effektiv tədqiq edilməsi ilə bağlı "İstanbul Protokolu", SPT tövsiyələri və CPT-nin ümumi məruzələrində yer almış standartlarının tətbiqi, habelə milli qanunvericiliyə implementasiyası, Müvəkkilin beynəlxalq standartlar əsasında rəftar məsələləri və saxlanma şəraitinin araşdırılmasında göstərdiyi yanaşmalarla bağlı geniş məlumat verilmişdir.

Bununla yanaşı, 10 fevral 2017-ci il tarixdə ölkə Prezidenti tərəfindən imzalanmış Sərəncamın insan hüquqlarının effektiv təmini baxımından həyata keçirilən islahatlar prosesində yeni mərhələ olduğu vurğulanmış, sənədin şəxsiyyətin toxunulmazlığı hüququnun təmin edilməsi, cinayət törətmiş, hüquq pozuntusuna yol vermiş şəxslərin də azadlıq hüququ ilə bağlı məhdudiyyətlərin tətbiq edilməsinin qarşısının alınması, bu istiqamətdə cinayət təqibi və cəza icra siyasətinin humanistləşdirilməsi, şəxsin cəmiyyətdən təcrid edilməsi təcrübəsindən getdikcə imtina edilməsi sahəsində ölkə təcrübəsinin təkmilləşdirilməsinə mühüm töhfə verdiyi diqqətə çatdırılmışdır.

Regional konfransda Azərbaycan Ombudsmanının MPM qismində fəaliyyətinə dair iştirakçılar tərəfindən verilmiş çoxsaylı suallar cavablandırılmış, insan hüquqlarının effektiv təmini baxımından aparılan müzakirələr MPM-lərin fəaliyyət istiqamətləri və qarşılıqlı əməkdaşlıq baxımından səmərəli olmuşdur.

Konfrans çərçivəsində Azərbaycan Ombudsmanının MPM qismində fəaliyyətinə dair hesabatlarının nüsxələri və diskləri, illik məruzələri Penal Reform International təşkilatının Cənubi Qafqaz Ofisinə təqdim olunmuşdur.[61]

MPM fəaliyyəti çərçivəsində Mərakeş Krallığının Mərrakeş şəhərində Milli İnsan Hüquqları Təsisatlarının 13-cü Beynəlxalq Konfransında iştirak olunmuşdur.

Konfrans BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının, Milli İnsan Hüquqları Təsisatlarının Qlobal Alyansının və Milli İnsan Hüquqları Şurasının təşkilatçılığı ilə "Vətəndaş cəmiyyətinin genişləndirilməsi və qadın hüquqları kontekstində insan hüquq müdafiəçilərinin dəstəklənməsi və müdafiəsində Milli İnsan Hüquqları Təsisatlarının rolu" mövzusunda keçirilmişdir.

Konfransın sessiyalarına BMT qurumlarının rəsmi şəxsləri, xarici ölkələrin Ombudsmanları, Milli İnsan Hüquqları Təsisatlarının və onları birləşdirən təşkilatların nümayəndələri, beynəlxalq ekspertlər qatılmış və məru-

---

[61] http://ombudsman.gov.az/az/view/news/1086/ombudsmanin-milli-preventiv-qrupunun-uzvleri-tbiliside-regional-konfransda-ishtirak-etmishler

zələrlə çıxış etmişlər. Beynəlxalq konfransda Azərbaycanın Ombudsmanını Aparatın şöbə müdiri, Milli Preventiv Qrupun rəhbəri R. Rumzadə təmsil etmişdir.

Milli siyasət və insan hüquqları, İnsan hüquqları sahəsində məlumatlandırma və müsbət təcrübənin təşviqi, vətəndaş cəmiyyəti və insan hüquq müdafiəçilərinin qorunması, gender perspektivi və qeyri-hökumət təşkilatlarının iştirakçılığının təmini, tərəfdaşlıq və əməkdaşlıq kimi sahələrdə Milli İnsan Hüquqları Təsisatlarının rolu sessiya və seminarların əsas müzakirə mövzularından olmuşdur.

Sessiyalar çərçivəsində keçirilən seminarlarda vətəndaş cəmiyyəti və insan hüquq müdafiəçilərinin qorunması, gender perspektivi, hüquqi maarifləndirmə və insan hüquqları təhsili ölkələrə tövsiyə olunan prioritetlər içərisində xüsusi yer almış və mövzular üzrə Azərbaycan Ombudsmanının təcrübəsini bölüşmüş, habelə yeni hədəflər üzrə fikir mübadilələri aparılmışdır.

Qeyd olunmuşdur ki, Azərbaycan Ombudsmanı Elmira Süleymanovanın təşəbbüsü ilə İnsan Hüquqları üzrə Müvəkkil yanında müxtəlif qeyri-hökumət təşkilatlarının və müstəqil ekspertlərin, hüquq müdafiəçilərinin təmsil olunduğu, ölkədə insan hüquqlarının əsas istiqamətləri üzrə vəziyyətin təhlil edilməsinə, milli qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq hüquqi sənədlərin implementasiyası üzrə təkliflərin hazırlanmasına mühüm töhfə verən müstəqil Ekspertlər Şurası fəaliyyət göstərir. Bu yanaşma özü ölkə təcrübəsində ilk olmuş və QHT-lərin fəaliyyətinin dəstəklənməsinə, dövlət qurumları yanında vətəndaş cəmiyyəti üzvlərindən ibarət ictimai şuraların yaradılmasına, hüquqi bazanın, ictimai iştirakçılıq haqqında qanunvericiliyinin yaradılmasına mühüm töhfə vermişdir.

Qeyd olunmuşdur ki, Azərbaycan Ombudsman Təsisatı Milli İnsan Hüquqları İnstitutu olaraq Paris Prinsipləri əsasında qurulmuş müstəqil bir qurumdur və Müvəkkil mandatı çərçivəsində insan hüquqlarının müdafiəsində, vətəndaş mühitinin qorunmasında, insan hüquqlarının və qanunun aliliyinin təşviq edilməsində, vətəndaş cəmiyyətinin dəstəklənməsində bütün imkanlarından istifadə edir və əməkdaşlığa açıqdır.

Səfər çərçivəsində Milli İnsan Hüquqları Təsisatlarının Qlobal Alyansının, Avropa Milli İnsan Hüquqları Təsisatları Şəbəkəsinin, habelə Avropa, Asiya, Amerika regionlarında fəaliyyət göstərən Milli İnsan Hüquqları Təsisatların nümayəndələri ilə fikir mübadilələri keçirilmiş, insan hüquqlarının prioritet məsələləri üzrə əməkdaşlıq müzakirə olunmuşdur.[62]

Qeyd olunanlarla yanaşı, beynəlxalq əməkdaşlıq çərçivəsində Müvəkkilin MPM kimi fəaliyyəti ilə bağlı beynəlxalq təşkilatlardan il ərzində daxil

[62] http://www.ombudsman.gov.az/az/view/news/1126/azerbaycan-ombudsmaninin-numayendesi-milli-insan-huquqlari
-tesisatlarinin-13-cu-beynelxalq-konfransinda-ishtirak-etmishdir

olmuş sorğular cavablandırılmış, bu istiqamətdə informasiyalara açıq şəkildə yanaşmalar nümayiş etdirilmişdir.

MPM fəaliyyəti çərçivəsində BMT-nin Özbaşına həbslərlə bağlı İşçi Qrupundan Müvəkkilin ünvanına sorğu daxil olmuşdur.

Sorğu üzrə Özbaşına həbslərlə bağlı İşçi qrupunun Azərbaycana səfərinin nəticəsi olaraq verilmiş tövsiyyələrin icrası vəziyyətinə dair məlumat istənilmişdir.

MPM fəaliyyəti çərçivəsində sorğu ilə bağlı məlumat işlənib hazırlanmış və BMT-nin İnsan Hüquqları üzrə Komissarlığına göndərilmişdir.

MPM fəaliyyəti çərçivəsində daxil olmuş daha bir sorğu Hüquq və təcrübədə qadınlara qarşı ayrı-seçkilik məsələləri üzrə İşçi qrupu tərəfindən Müvəkkilə ünvanlanmışdır.

Sorğu üzrə Hüquq və təcrübədə qadınlara qarşı ayrı-seçkilik məsələləri üzrə İşçi Qrupun məlumat istəyi ölkədə azadlıqdan məhrum edilmiş qadınlarla bağlı olmuşdur.

Sorğuda yer almış suallar ölkə təcrübəsi və Müvəkkilin MPM fəaliyyətinə əsaslanmaqla cavablandırılmış və müvafiq qaydada məlumatlar göndərilmişdir.

BMT çərçivəsində Müvəkkilə ünvanlanmış növbəti sorğu Cüzamdan əziyyət çəkən şəxslər və onların ailə üzvlərinə qarşı ayrı-seçkiliyin aradan qaldırılması üzrə Xüsusi Məruzəçindən daxil olmuşdur.

MPM fəaliyyəti çərçivəsində sorğu ilə bağlı məlumat işlənib hazırlanmış və Cüzamdan əziyyət çəkən şəxslər və onların ailə üzvlərinə qarşı ayrı-seçkiliyin aradan qaldırılması üzrə Xüsusi Məruzəçinin sorğusu cavablandırılmışdır.

İl ərzində Müvəkkil beynəlxalq qurumların nümayəndələri ilə bir sıra görüşlər keçirmişdir. Həmin görüşlər zamanı qonaqlar Müvəkkilin fəaliyyəti, o cümlədən MPM qismində həyata keçirdiyi fəaliyyətlə yaxından tanış olmuş, birgə əməkdaşlıq perspektivləri barədə müzakirələr aparmışdır.

Müvəkkil BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Cənubi Qafqazdakı ofisinin insan hüquqları üzrə baş müşaviri Vladimir Şkolnikovu və ali komissarlığın Azərbaycan nümayəndəliyinin rəhbəri Kamran Bağırovu qəbul etmiş, əməkdaşlığın prioritet istiqamətləri müzakirə edilmişdir.

UNICEF-in Ölkə Ofisinin rəhbəri Edvard Karvardini qəbul edən Müvəkkil UNICEF-lə səmərəli əməkdaşlıq əlaqələrinin yaradıldığını, birgə tədbirlərin, mühüm layihələrin həyata keçirildiyini diqqətə çatdırmış, eyni zamanda MPM fəaliyyətinin dəstəklənməsini də nəzərdə tutan 2018-2019-cu illər üzrə əməkdaşlığa dair ikitərəfli müqavilə imzalanmışdır.

Müvəkkil İsveçrə Əməkdaşlıq Ofisinin Cənubi Qafqaz üzrə regional direktorunun müavini Simone Haeberlini qəbul etmiş, Azərbaycanda bu təsisatın yaranması və fəaliyyəti barədə ətraflı məlumat vermişdir.

S.Haeberli Cənubi Qafqazda təmsil etdiyi qurumun fəaliyyəti, habelə həyata keçirdikləri müvafiq layihələr barədə məlumat vermiş, gələcək əməkdaşlıqda marağını ifadə etmişdir.

Müvəkkil Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Vyanadakı Cənub-Şərqi Avropa, Şərqi Avropa və Mərkəzi Asiyanı əhatə edən Regional ofisinin 20 ölkə üzrə əlaqələndirmə və siyasət məsələləri üzrə baş mütəxəssisi, "Qlobal Kompakt" sənədi üzrə məsul şəxs Amr İbrahim Taha və BMqT-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Sərhan Aktoprakı qəbul etmiş, miqrasiya və miqrantların hüquqlarının təmin olunması məsələlərinə dair həyata keçirilən səmərəli əməkdaşlıq üzrə fikir mübadiləsi aparılmış, Müvəkkilin MPM qismində həyata keçirdiyi fəaliyyət çərçivəsində bu sahədə görülmüş işlər barəsində qonaqlara ətraflı məlumatlar verilmiş, qarşılıqlı əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur.

## BÖLMƏ 6.

## NƏTİCƏ VƏ TÖVSİYƏLƏR

Müvəkkil MPM qismində 2018-ci ildə həyata keçirdiyi fəaliyyətin nəticələrinin təhlili, saxlanılan şəxlərin hüquqlarının effektiv təmini məqsədilə aşağıdakıları təklif edir.

### Normativ hüquqi aktlarla bağlı

1. Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarına yenidən baxılması *(Nazirlər Kabineti)*;

